# HƏQİQƏTLƏR - 1

**HARUN YƏHYA**

# MÜNDƏRİCAT

**Giriş**

**Birinci hissə:** Təkamül yanılması

- Böyük partlayışın ardınca gələn nizam
- Kainatın yaradılışındakı həssas tarazlıqlar və böyük nizamlılıq haqqında elm adamları nə deyir?
- Darvinizmə görə şüursuz atomlar bir gün qərar vermiş və növbənöv balıqlar meydana gətirmişlər
- Darvinistlər şüursuz atomların cansız dünyanı təsadüfən canlandırdığını iddia edir
- Atomlar görə bilər, eşidə bilər, düşünə bilər, hiss edə bilər, ləzzət ala bilər, sevgi və şəfqət hiss edə bilərmi?
- Həyat tək həyatdan gəlir! Cansız maddələr həyat meydana gətirə bilməz
- Təkamülçülərin xəyali ssenarilərinə xəyali təcrübələr
- Darvinizmin elmdən nə qədər uzaq olduğunu öyrənmək istərsinizmi?
- Tarix boyunca quşlar həmişə quş, meymunlar həmişə meymun, insanlar isə həmişə insan olub
- Təkamülçülərin iddia etdiyi əcaib canlılar heç bir zaman yaşamamışdır
- Qalıqların Darvinizmə böyük zərbəsi
- Darvinizmə "öldürücü bir zərbə" endirən trilobit gözləri
- Darvinizmin klassik təbliğat üsulu: "Realı yoxsa saxtasını düzəlt!"
- Təkamülçülərin saxtakarlıqlarından bir nümunə: Nebraska Adamı
- Darvinizm saxtakarlıqlarla və göz boyama üsullarıyla yaşadılan bir aldatmacadır
- Darvinistlərin xəyal dünyası sona çatır
- Darvinistlər nəzəriyyələrini isbat etmək uğrunda insanlara zülm etmişdilər
- İnsanın dik və iki ayaqlı gedişi təkamülün reallaşmadığını göstərən dəlillərdən biridir

- Darvinistlər termodinamikanın ikinci qanununu rədd edir
- Darvinizmin cadusu müdafiəçilərində şiddətli məntiq təxribatına səbəb olmuşdur
- Darvinizmdə ağıl və məntiq yoxdur, fanatikcəsinə inanmaq vardır!
- Darvinistlər "sanki ovsunlanmış kimi" inanılması qeyri-mümkün iddialara inanarlar
- Darvinizmin məntiq məğlubiyyətinə siz də şahid olun!
- İlk dövr əfsanələrinin günümüzə mirası: Darvinist xurafatlar
- Darvinizmin XIX əsrin ibtidai elm səviyyəsi ilə yazılmış nağıllardan ibarət olduğunu bilirdinizmi?
- Darvinizmin köhnə dövrlərdən günümüzə qədər gələn bütpərəst bir inanc olduğundan xəbərdarsınızmı?
- Bir orta əsrlər xurafatı: Təkamül Nəzəriyyəsi
- Darvinizmin primitiv totemçilik inancından bir fərqi olmadığını bilirsinizmi?
- Darvinistlər inanılmaz olanı müdafiə edirlər, açıq-aşkar həqiqətləri görməzliyə vururlar!

**İkinci hissə:** Darvinizmin qaranlıq üzü

- Kommunizmin XX əsr hesabatı!
- Kommunizm ölmədi, gizləndi! Yeni bir şəxsiyyət altında yaşamağa davam edir!
- Yer üzündə sülhün və təhlükəsizliyin təminatı üçün, Darvinizm iddiasının etibarsızlığı ortaya qoyulmalıdır
- Darvinist-Kommunist Rusiya qaranlıq üzünü bir daha göstərdi!
- Kommunist-Darvinist fəlsəfənin zülmü hələ davam edir
- Kommunist Çin zülmü altında əzilən Şərqi Türkistanın rejimə görə günahı ağır: "materialist olmamaq!"
- Günahsız insanlara gözlərini qırpmadan silahı tuşlayan rus əsgərləri, etdiklərini gülərək izah edirlər

- Darvinist-materialistlərin hiyləgər taktikaları
- Darvinizm və kommunizm arasındakı tarixi ittifaq
- Darvinist-materialist təhsilin necə hiyləgərincə bir üsul izlədiyini bilirsinizmi?
- Darvinizm yaşadığımız əsri döyüşlərin və müharibələrin əsri halına gətirmişdir
- Hitler və Darvin arasındakı qanlı ittifaq
- Dünyaya zülm gətirənlərin qatı bir darvinist olduğunu bilirsinizmi?
- Hitlerin darvinist sayıqlamaları sona çatmadı!
- Darvinist-faşist təhsil millətlərə dağıntı gətirməkdədir
- Mussolininin əzmkarı darvinizm idi!
- Faşizmin qaynağının darvinist təlimlər olduğunu bilirdinizmi?
- Faşist lider Franko yeni çıxarılan silahları müdafiəsiz insanlar üzərində tətbiq edirdi!
- Faşist zalımlıqlardan dünyanı qurtarmaq üçün darvinizmlə mübarizə şərtdir
- Faşistlərin ikiüzlü dindarlığı
- Soydaşlarımıza hücum edən neo-nasistlər darvinist irqçiliyin təsirindədirlər
- Əvvəl gicitkən otunu torpağa at, sula və gübrəylə böyüt, sonar "niyə gicitkən oldun?" de... Məhz bu darvinistlərin məntiq pozğunluğuna bir nümunədir!
- Darvinizmin yetişdirdiyi günah maşınları
- Faşizm kommunizmə qarşımı?
- Faşizm kommunizmi, kommunizm faşizmi yüksəldər
- XX əsrdə faşist və kommunist ölkələrin dünyaya gətirdikləri böyük dağıntı
- XXI əsrdə Türk milləti sayəsində bir-bir aradan qalxır
- Darvinistlərin dünyanın başına bəla etdiyi şeytanı düstur budur:
- "Kommunizm faşizmi, faşizm isə kommunizmi doğurar."
- Terrorun ideologiyasını fikirlə məğlub etmədən, terroru dayandırmaq mümkün deyil

- Yer üzündə təxribatçılıq, anarxiya və terrora maneə törətmək səmimi bir cəhd istəyər.
- Türk milləti bu əhəmiyyətli vəzifəyə talibdir
- Yaxın dünya tarixi qiyamların, döyüşlərin, qan, zülm və gözyaşının tarixidir.
- Bütün bunların arxasında isə Darvinin mənasız, donuq baxışlarını əks etdirən şəklini görərik
- Darvinistlərin hədəflədikləri cəmiyyət - Türk millətinin Allahın icazəsiylə meydana gətirdiyi cəmiyyətdir
- İllərcə darvinist-materialist fəlsəfə ilə idarə olunan rus millətinin sonu bütün dünyaya ibrət olmalıdır
- Satanistlərin fikri dayağı darvinizmdir
- Darvinizmin yetişdirdiyi nəsillərin sonu mənəvi ölümdür
- Neo-nasistlər darvinist bataqlığın bir məhsuludurlar
- Darvinizm zəiflərin, gücsüzlərin, möhtacların əzilərək yox edilmələrini əmr edər
- Olimpiya məşəlini yandıran Aborjin atletin hekayəsi:
- Katie Frimanın atalarını Darvinistlər qətlə yetirdi!
- Darvinist elm adamları günahsız insanları təcrübə vasitəsi olaraq istifadə edirlər
- Təkamülçülərin insanlıqdan kənar tətbiqləri

**Üçüncü hissə:** Həll yolu Quran əxlaqı

- Darvinizmin insanlığa gətirdiyi bəlalara qarşı həll yolu: Quran əxlaqı
- Yazıq qadınlar, uşaqlar, yaşlılar, zülmə uğrayan bütün insanlar üçün siz də bir şey edə bilərsiniz
- Yer üzündə ədalətin, sülhün və qardaşlığın təmin edilməsi ancaq Quran əxlaqının yaşanmasıyla mümkün olacaq
- Televiziyanı açdığınızda, qəzetinizi oxuyarkən zülmə uğramış, qətlə yetirilmiş insanlarla qarşılaşmayacağınız günlər çox yaxında gələcək

- Darvinizmin 150 ildir davam edən təxribatı böyükdür, ancaq bütün bunların bir həlli vardır
- Yoxsulluq və səfalətin ortadan qalxması ancaq Quran əxlaqının hakim qılınmasıyla olar

**Dördüncü hissə:** Canlılardakı iman dəlilləri

- Ağıl və vicdan sahibi insanlar, heyvanları deyil, Quranda bəhs edilən əxlaqı nümunə götürərlər
- "Toxumu və çərdəyi Allah çatladır" (Ənam surəsi, 95)
- Təkamülçülərin məntiq məğlubiyyətini göstərən bir hadisə: ağaclardakı mühəndislik möcüzəsi
- Payız gəlincə yarpaqları tökən şüurlu hüceyrələr
- Təbiətə doğru gözlə baxın
- Bitkilər sizdən daha şüurludurmu?
- Balıqlardakı bənzərsiz duyğu sistemi
- "Dörd gözlü" balığın möhtəşəm optik dizaynı
- Allah nümunəsiz yaradandır
- Bir kərtənkələ atom mühəndisi ola bilərmi?
- Hörümçək və dahiyanə "tor hörmə texnikası"
- Suyun altında da tor hörmə qabiliyyətli və şüurlu hörümçəklər
- 2 qramlıq güvəni təqlid edən 150 tonluq döyüş texnologiyası
- Bildiyiniz, bilmədiyiniz bütün canlıları yaradan uca Allahdır
- Köpək balıqlarının həssas qəbul ediciləri
- Yer üzündəki həssas tarazlıqlar
- Gözləriylə deyil, kəllənin alt qismində olan sonarla görmə əməliyyatını yerinə yetirən delfinlər, sahib olduqları bu qüsursuz cihazı necə əldə etdilər
- Allah hər canlını yaşadığı mühitə uyğun olaraq yaratmışdır

- İmmiqrant quşların kilometr hesabı etdiklərini və bu hesaba görə enerji qənaəti tətbiq etdiklərini bilirdinizmi?
- Təkamülçü iddialarını tək başına çökdürən bir sistem: böcəklərin uçuşu
- Təbiətdəki simmetriya və uyğunlaşma Allahın varlığının dəlillərindəndir

**Beşinci hissə:** Maddənin ardındakı sirr

- Təyyarə ilə okeanı keçən bir insan əslində beynindəki təyyarədə səyahət edər və beynindəki okeanın üzərindən keçər
- Maddənin çöldəki varlığına duyğularımızla əsla çata bilmərik
- Darvinist-materialistlərin cavablandıra bilmədikləri əhəmiyyətli bir sual:
- Beynin içində, parlaq rəngli bir dünyanı seyr edən, simfoniyaları, quşların cəh-cəhlərini dinləyən, gülü iyləyən kimdir?
- Hər insan bütün həyatını beynindəki kiçik məkanda yaşayar
- Dünya həyatının həqiqəti, Allahın beynimizdə izlətdirdiyi qədərimizdir
- Beyninin içində yaranan ev görünüşünü seyr edən kimdir?
- Heç düşündünüzmü?
- Allah bilmədən bir yarpaq belə düşməz

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və

hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta  təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik  külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur,  İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd  tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər

sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Dünya üzərində hər insanın özünə mənimsədiyi bir yol, bir həyat tərzi vardır. Ancaq bu yollardan bəzisi səhv yollardır və insanları maddi və mənəvi istiqamətdən çətinliyə salar. İnsanların önündəki saysız alternativ içində doğru yolu tapa bilməsi üçün isə düşünməsi və həqiqətləri araşdırması lazımdır.

Bu kitabda həyatın çox fərqli istiqamətləriylə əlaqədar və eyni zamanda çox əhəmiyyətli bəzi həqiqətləri oxuyacaqsınız.

İçində yaşadığımız kainatın yaranması, ətrafımızdakı canlıların sahib olduğu möcüzəvi xüsusiyyətlər, öz bədənimizdə hər an dayanmadan işləyən fövqəladə sistemlərlə əlaqədar məlumatlar sizə hər şeyin Allah tərəfindən yaradıldığı həqiqətinə çatdıracaq.

Hər şeyin təsadüfən meydana gəldiyini iddia edən təkamül nəzəriyyəsinin elmi istiqamətdən etibarsızlığı ilə əlaqədar verilən açıqlayıcı və təmin edən məlumatlar, kainatın və həyatın meydana gəlməsində əsla təsadüfə yer olmadığı həqiqətini sizə xatırladacaq.

Bütün bunlarla bərabər, geridə qoyduğumuz XX əsrdə bütün dünyada yaşanan xaos və qarışıqlığın səbəblərinin araşdırıldığı hissələrdə, Darvinizmin, insanlığın yaşadığı bütün bu bəlaların və ağrıların qaynağı olduğu həqiqəti çaşdırıcı bir şəkildə qarşınıza çıxacaq.

Son olaraq da yaşanan bütün çətinliklərin, ağrıların, bəlaların, xaosun, döyüşlərin, müharibələrin, düşmənliklərin, zülmün yaşanmaq məcburiyyətində olmadığını izah edən hissədə, bütün mənfiliklərin bir anda yaxşılıqlara və gözəlliklərə çevrilməsinin tək həllinin Quran əxlaqının yaşanması olduğu həqiqətinə şahid olacaqsınız.

Harun Yəhyanın bütün əsərlərinin ümumi bir xülasəsi şəklində hazırlanmış bu təəccüblü və həqiqətləri ortaya çıxaran yazılar, həyata olan baxışınızı dəyişdirəcək.

# I HİSSƏ:
# TƏKAMÜL YANILMASI

## BÖYÜK PARTLAYIŞIN ARDINCA GƏLƏN QURULUŞ

Kainatımız "Böyük Partlayış" (Big Bang) nəticəsində ortaya çıxmışdır. Bu gün bütün elm dünyası bu həqiqət üzərində birləşməkdədir.

Kainatı araşdırsaq, son dərəcə möhtəşəm bir nizam və təfərrüatlı bir dizaynla təchiz olunduğunu görərik. Kainatın sıxlığı, genişlənmə sürəti, ulduz sistemlərinin, qalaktikaların dizaynı, çəkiliş gücləri, orbitləri, hərəkət formaları, sürətləri, ehtiva etdikləri maddə miqdarı –hamısı son dərəcə incə hesablamalar və həssas tarazlıqlar üzərinə qurulmuşdur. Eyni şəkildə kainatda iştirak edən dünyamız, ətrafını bürüyən atmosfer insanın həyatına ən uyğun quruluşdakı yer üzü, bunların hamısı fövqəladə bir dizaynın nümunələridir. Bu hesablarda və tarazlıqlardakı çox kiçik bir oynama bütün kainatın və Yerin darmadağın olmasına kifayətdir.

Yaxşı, böyük bir partlayış nəticəsində belə ətraflı, kompleks və qüsursuz bir nizam və dizayn necə ortaya çıxmışdır?

Bilindiyi kimi partlayışlar nizam deyil, nizamsızlıq, dağınıqlıq və sökūntü meydana gətirərlər. Big Bang də bir partlayış olduğuna görə, gözlənilməsi lazım olan, bu partlayışın ardınca maddənin kosmos boşluğunda "təsadüfi" dağılması olacaq. Lakin böyük partlayışın ardınca belə təsadüfi bir dağılma olmamış və maddə kainatın müəyyən nöqtələrində yığılıb qalaktikaları, ulduzları, ulduz sistemlərini, Günəşi, dünyanı və üzərindəki bitkiləri, heyvanları, insanları meydana gətirmişdir. Bu vəziyyət bir buğda ambarına atılan əl bombasının, buğdaları yığıb, nizamlı tayaları bürüyüb üst-üstə yığmasıyla belə qarşılaşdırılmayacaq qədər "möcüzəvi" bir vəziyyətdir.

Bu vəziyyətin bir izahı var: Big Bang kimi bir partlayışın ardınca belə bir nizamın meydana gəlməsi ancaq hadisənin hər anını istiqamətləndirən şüurlu bir müdaxilə nəticəsində reallaşa bilər. Bu da kainatı yoxdan var edən və onun hər anını idarəsi və hakimiyyəti altında saxlayan Uca Allahın yaratmasıdır.

Kainatın yaradılışındakı həssas tarazlıq və böyük nizam haqqında elm adamları nə deyir?

Məşhur bir nəzəri fizika professoru olan Paul Devis:

"Hesablamalar, kainatın genişləmə sürətinin çox kritik bir nöqtədə seyr etdiyini göstərir. Əgər kainat bir az daha yavaş genişlənsə cazibə qüvvəsinə görə içinə çökəcək, bir az daha sürətli genişlənsə kosmik material tamamilə dağılıb gedəcəkdi ... Buna görə kainatın partlama sürəti inanılmayacaq qədər həssas bir qətiliklə təyin olunmuşdur. Buna görə Big Bang hər hansı bir partlayış deyil, hər istiqamətiylə çox yaxşı hesablanmış və təşkil edilmişdir. "(Paul Devis, Superforce: The Search for a Grand Unified Theory of Nature, 1984, səh.184)

Dövrümüzün ən məşhur elm adamlarından Stefen Havking:

"Kainatın genişləmə sürəti o qədər kritik bir nöqtədədir ki, “Big Bang“-dən sonrakı birinci saniyədə bu nisbət əgər yüz min milyon dəfə milyonda bir daha kiçik olsaydı kainat indiki vəziyyətinə gəlmədən içinə çökərdi." (Stefen Hawking, A Brief History of Time, Bantam Press, London: 1988, s. 121-125)

Amerikalı Astronomiya Professoru Corc Qrinşteyn:

"Dəlilləri araşdırdıqca, israrla əhəmiyyətli bir həqiqətlə qarşı-qarşıya gəlirik. (Kainatın meydana gəlməsində) bir fövqəltəbii ağıl -ya da Ağıl- dövrəyə girmişdir." (Corc Qrinşteyn, The Symbiotic Universe, s. 27)

**Allah, yeddi göyü və yerdən də onların bənzərini yaratdı. Əmr, bunların arasında dayanmadan enər; sizin həqiqətən Allahın hər şeyə qadir olduğunu və Allahın elmiylə hər şeyi əhatə etdiyini biləsiniz. (Talaq surəsi, 12)**

## DARVİNİZMƏ GÖRƏ ŞÜURSUZ ATOMLAR BİR GÜN QƏRAR VERMİŞ VƏ NÖVBƏNÖV BALIQLARI MEYDANA GƏTİRMİŞLƏR

Şəkildəki boş akvariuma canlılıq üçün lazım olan bütün atomları, molekulları, amin turşuları və s. atsanız və nə qədər müddət lazımdırsa o

qədər gözləsəniz, bu akvariumda rəngarəng, hər biri bir-birindən gözəl, hər biri fərqli şəkillərə və strukturlara sahib, lazım olduğunda özünü kamuflyaj edə bilən, sualtında rahatca yaşaya biləcəyi strukturlara və orqanlara sahib qüsursuz balıqlar meydana gətirə bilərsinizmi? Əlbəttə ki, xeyr! Hətta dünyadakı bütün elm adamları bir yerə gələrək bütün imkanlarını səfərbər etsələr də, bu boş akvariumda tək bir balıq belə meydana gətirə bilməzlər.

Ancaq darvinistlərə görə, milyardlarla il əvvəl təsadüfən bir yerə gələn bir neçə atom qərara gəlmiş və bu balıqları yaratmışdır.

Şüursuz atomların, bir az zaman verildiyində təsadüflərin köməyiylə möcüzələr yaradacağına inanan darvinizm böyük bir aldatmacadır. Türk milləti iti zəkası və qavrayış qabiliyyəti ilə darvinizmi tarixin zibilliyinə atmışdır.

## DARVİNİSTLƏR, ŞÜURSUZ ATOMLARIN CANSIZ DÜNYANI TƏSADÜFƏN CANLANDIRDIĞINI İDDİA EDİR

Darvinistlər hər cür əlverişsiz şərtin tapıldığı bir mühitdə, amonyak, karbon, azot, fosfor kimi cansız və şüursuz atomların təsadüflər nəticəsində bir yerə toplaşdıqlarını və sonra ortaq bir qərara gəldiklərini iddia edirlər. Onlara görə atomlar aldıqları bu qərarı əskiltmədən tətbiq etmişlər və bu cansız dünyanın üzərində təsadüfən ağacları, qarışqaları, tutuquşuları, almaları, tutları, xurmaları, qu quşunu, qırğıları, delfinləri, yosunları, arıları, atları, dovşanları, cökə ağaclarını, jasminləri, çobanyastığıları, təyyarə mühəndislərini, beyin cərrahlarını, genetik mühəndislərini, özünü meydana gətirən atomları araşdıran atom professorlarını meydana gətirmişlər.

Darvinistlər bu ağlasığmaz iddialarını ağır və qarışıq bir üslubla, çoxlu Latınca sözlərdən istifadə edərək izah edirlər. Bu şəkildə iddialarındakı məntiq çöküntüsünü gizlətməyə çalışarlar. Onların vəziyyətindən xəbərsiz olanlar da, bu tilsimli üslubdan təsirlənib, "bunlar nə qədər məlumatlı, üstün insanlar" deyərək, hər dediklərini qeyd-şərtsiz qəbul edirlər.

Halbuki, darvinizmə inanmaq məntiqin, düşünmə qabiliyyətinin, ağlın və qavrayışın tamamilə iflic olması deməkdir. Normal bir insan "daşlar təsadüfən düzülüb, bir göydələni bütün təsisatı ilə birlikdə tikdi" deyərmi?

Əlbəttə, deyə bilməz. Darvinistlər isə bundan daha inanılmaz bir iddia etməkdə, şüursuz atomların düzülüb canlandıqlarını və canlı varlıqları meydana gətirdiklərini söyləməkdədirlər.

## ATOMLAR GÖRƏ BİLƏR, EŞİDƏ BİLƏR, DÜŞÜNƏ BİLƏR, HİSS EDƏ BİLƏR, LƏZZƏT ALA BİLƏR, SEVGİ VƏ ŞƏFQƏT DUYA BİLƏRMİ?

Təkamül nəzəriyyəsinin iddiası ağılsız, şüursuz atomların zaman içində təsadüflər nəticəsində bir yerə gələrək insanları meydana gətirdiyidir. Bu iddiaya görə, insanın bütün həyati funksiyalarının qaynağı beynindəki hüceyrələr və bu hüceyrələri meydana gətirən şüursuz atomlardır. Buna görə təkamül nəzəriyyəsi zövq alan, düşünən, hiss edən, sevgi duyan, danışanın da yenə bu atomlar olduğunu qarşıya qoyur.

Çox maraqlıdır ki, darvinizmə görə bu gün dünyadakı təxminən 6 milyard insanın hamısının atomları təsadüflər nəticəsində eyni şəkildə qəbul edəcək və eyni zövqləri paylaşacaq şəkildə razılaşmışlar. Məsələn, bir gülün qoxusunu, Kanarya adalarındakı bir insanın atomları da, Sibiryada və ya Pakistanda yaşayan bir insanın atomları da eyni şəkildə qəbul edir. Və hər üçünün atomları da bu qoxudan eyni zövqü alır. Yenə portağal dadı və qoxusu dünyanın hər yanındakı insanlar üçün eyni şəkildədir. Çiyələk eyni qırmızı rəngində, eyni gözəl qoxusundadır. Qarpızın sulu dadı Çində, Yuqoslaviyada, Amerikada, Mauritusda eyni şəkildə tanınır. Dünya tərəfindən tanınan bütün məşhur mahnılar, məsələn, Motsartın məşhur Türk Marşı mövzusunda da bütün atomlar ortaq zövqə malikdir.

Bu nümunələrdən aydın olduğu kimi darvinizm, şüursuz atomların dünya səviyyəsində qoxu, dad, konsistensiya, ləzzət, görünüş mövzusunda razılaşdıqlarını iddia edir. Məhz bu məntiqdən kənar iddialarına görə darvinizm əsla qəbul edilməyən və elm tərəfindən dəstəklənməyən boş sözdür.

## HƏYAT TƏK HƏYATDAN GƏLİR! CANSIZ MADDƏLƏR HƏYAT MEYDANA GƏTİRƏ BİLMƏZ

Təkamül nəzəriyyəsi yer üzündəki ilk canlının təsadüflər nəticəsində cansız maddələrin bir yerə toplanmasıyla özbaşına yaranan bir hüceyrə olduğunu iddia edir. Amma bu iddia, biologiyanın ən fundamental qanunlarından birinə zidddir: Həyat yalnız həyatdan gəlir, yəni cansız maddə həyat meydana gətirə bilməz.

Cansız maddənin həyat meydana gətirə biləcəyi inancı, əslində bir orta əsrlər xurafatıdır. "Spontane generasiya" adı verilən bu nəzəriyyəyə görə, siçanların buğdadan meydana gəldiyinə, yaxud da böcəklərin yemək artıqlarının içində "öz-özünə" yarandıqlarına inanılmışdır. Darvinin nəzəriyyəsini ortaya atdığı dövrdə isə, mikrobların cansız maddədən öz-özünə meydana gəldiyi sanılmışdır.

Ancaq bu düşüncə, Fransız bioloq Pasterin tapıntıları ilə yıxılmış və Pasterin ifadəsiylə "cansız maddənin həyat meydana gətirə biləcəyi inancı tarixə basdırılmışdır".

Pasterin ardından təkamülçülər yenə də ilk canlı hüceyrənin təsadüfən meydana gəlmiş ola biləcəyi iddiasını davam etdirmişlər. Amma 20. əsr boyunca icra edilən bütün təcrübə və araşdırmalar həmişə müvəffəqiyyətsizliklə nəticələnmişdir. Canlı hüceyrəsinin "təsadüfən" meydana gəlməsi bir tərəfə qalsın, dünyanın ən inkişaf etmiş laboratoriyalarında hüceyrənin şüurlu olaraq meydana gətirilməsi belə mümkün olmamışdır. Necə ki, təkamül nəzəriyyəsinin öndə gedən müdafiəçilərindən Prof. Klaus Dose cansız maddələrin canlılığı meydana gətirdiyini isbat etmək üçün edilən bütün işlərin müvəffəqiyyətsizliklə nəticələndiyini belə etiraf etmişdir:

"...Həyatın mənşəyi mövzusunda otuz ildən çox müddətdir icra edilən bütün təcrübələr həyatın mənşəyi probleminə cavab tapmaqdansa, problemin nə qədər böyük olduğunun qavranmasına səbəb oldu. Hal-hazırda bu mövzudakı bütün nəzəriyyələr və təcrübələr ya bir çıxılmaz tunel içində bitir ya da məlumatsızlıq etiraflarıyla nəticələnir." (Klaus DOSe, The Origin of Life: More Questions Than Answers, Interdisciplinary Science Reviews, cild 13, nömrə. 4, 1988, səh. 348)

Açıqdır ki, bir gül, bir tovuz quşu, bir pələng, bir qarışqa qısacası heç bir canlı, şüursuz və cansız atomların bir yerə gələrək meydana gətirdiyi şüursuz hüceyrələrin iradəsiylə yaranmamışdır. Bu mövzular üzərində dərin araşdırmalar aparan bir elm adamı da, yenə şüursuz atomların əsəri deyil.

**Göylərdə və yerdə kim varsa, Ona məxsusdur. Hamısı Ona təzim edir.**

**Məxluqatı ilk dəfə yoxdan yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Müdrikdir.**

**(Rum surəsi, 26-27)**

## TƏKAMÜLÇÜLƏRİN XƏYALİ SSENARİLƏRİNƏ XƏYALİ TƏCRÜBƏLƏR

Təkamülçülər həyatın primitiv dünya şərtlərində, ildırımların, yağışların təsiriylə bəzi atomların təsadüfən bir yerə gəlmələriylə meydana gəldiyini iddia edirlər. Bu iddialarına isə Stanley Miller adında bir təkamülçünün təcrübəsini dəlil olaraq göstərirlər. Halbuki, təxminən yarım əsr əvvəl reallaşdırılan bu təcrübənin etibarlı olmadığı, ortaya çıxan yeni elmi tapıntılarla aydın olmuşdur.

Miller primitiv yer atmosferində metan, amonyak və hidrogen qazlarının olduğunu fərz edirdi. Bu qazları bir təcrübə qurğusunda birləşdirdi və bu qarışığa elektrik verdi. Bir həftə qədər sonra da bu qarışığın içində bir neçə amin turşusunun meydana gəldiyini müşahidə etdi.

Miller təcrübəsində, primitiv yer atmosferindəki şərtləri eynilə təmin etdiyini iddia etmişdi. Halbuki, təcrübə bir çox istiqamətdən həqiqətləri əks etdirməkdən çox uzaq idi. Millerin özü də təcrübəsinin həyatın mənşəyini şərh mövzusunda bir məna ifadə etmədiyini etiraf edir. (Earth, "Life's Crucible", fevral 1998, səh. 34) Təkamülçülər, elm dünyasını bir dəfə daha yanıltmağa çalışmışlar, amma yenə müvəffəqiyyətli ola bilməmişdilər...

Millerin fərziyyələri

Təcrübədə metan, amonyak və su buxarından istifadə edilmişdi.

Primitiv atmosferdə oksigenin olmadığı fərz edilirdi.

REAL ŞƏRTLƏR

Primitiv atmosferdə metan və amonyak deyil, karbon dioksit və azot olurdu.

Əldə edilən tapıntılar, primitiv atmosferdə çox yüksək miqdarda oksigenin mövcud olduğunu göstərdi.

*TƏCRÜBƏ:* NİYƏ ETİBARSIZDIR?

Təcrübə daha sonra doğru qazlar istifadə edilərək ABŞ-lı Ferris və Chen tərəfindən təkrarlandı. Bu dəfə tək bir amin turşusu da əldə edilə bilmədi.

Bu miqdarda oksigenin olduğuı bir mühitdə amin turşuları meydana gəlsə belə dərhal parçalanacaq.

## DARVİNİZMİN ELMDƏN NƏ QƏDƏR UZAQ OLDUĞUNU ÖYRƏNMƏK İSTƏRSİNİZMİ?

Mutasiyalar, radiasiya kimi xarici faktorlar nəticəsində canlıların genlərində meydana gələn pozulmalardır. Genlərdəki pozulma isə bu canlıda müxtəlif dəyişikliklərə gətirib çıxaracaq, ancaq bu dəyişikliklərin hamısı zərərlidir. Başından ayaq çıxan ağcaqanadlar, beş ayaqlı quzular, alnında göz olan canlılar mutasiyanın zərərli təsirlərinin dəlillərindən yalnız bir neçəsidir. Bundan başqa mutasiyalar insanlarda Mongolizm, Daun Sindromu, Albinizm, cücəlik, Oraq Hüceyrə Anemiyası kimi zehni, fiziki pozulmalara, ya da xərçəng kimi xəstəliklərə də səbəb olur.

Belə zərərli təsirləri olan mutasiyaların kor və şüursuz təsadüflərlə yeni bir canlı meydana gətirdiyini ya da bir canlının xüsusiyyətlərini daha yaxşı

hala gətirdiyini, məsələn, ona bir qanad əlavə etdiyini düşünmək bu vəziyyətdə son dərəcə məntiqsizdir.

Məhz təkamülçülərin iddiaları, belə çürük, məntiqsiz və elmilikdən uzaq təməllərə əsaslanır. Təkamülçülərin saxtakarlıqlarının, təhrif etmələrinin tək-tək ortaya qoymaq hər müsəlmanın vəzifəsidir. Elmi həqiqətləri öyrənmək; yalan məlumatlardan, boş sözlərdən təmizlənmək hər kəsin haqqıdır.

## TARİX BOYUNCA QUŞLAR HƏMİŞƏ QUŞ, MEYMUNLAR HƏMİŞƏ MEYMUN, İNSANLAR İSƏ HƏMİŞƏ İNSAN OLUB

Təkamül nəzəriyyəsinə görə, canlılar kiçik və yavaş dəyişikliklərlə bir-birlərindən törəmişlər. Bu ağıl və elmdən kənar iddiaya görə məsələn, milyonlarla il içində yavaş-yavaş dəyişərək balıqlar sürünənlərə, sürünənlər quşlara, meymunlar insanlara çevrilmişlər.

Ancaq qalıq qeydləri təkamül nəzəriyyəsini qəti və açıq şəkildə inkar edir. Çünki əgər təkamülçülərin bu iddiaları doğru olsaydı, bir növ digərinə çevrilərkən, arada "ara-keçid forması" olaraq adlandırılan bəzi qəribə canlılar meydana gəlməli idi. Məsələn, balıqlar milyonlarla il içində sürünənlərə çevrilərkən, iki növün arasında, yarı balıq yarı sürünən xüsusiyyətlərinə sahib milyonlarla qəribə, əcaib canlı meydana gəlməli idi. Və qalıq qeydlərində bu canlıların izlərinə rast gəlinməli idi.

Amma bu gün qalıq qeydlərində ara-keçid forması xüsusiyyəti daşıyan bir canlının da izinə rast gəlinməmişdir. Halbuki, qarışqaların, arıların, quşların, atların, fillərin, dinozavrların, meymunların, timsahların, trilobitlərin, soxulcanların, yarpaqların, dəniz ulduzlarının, insanların milyonlarla qalıqları günümüzə qədər gəlmişdir. Bu xəyali ara-keçid canlılarının bir dənəsinin də qalığının olmaması, bu canlıların heç bir zaman yaşamadıqlarını göstərən əhəmiyyətli bir dəlildir. Bu isə təkamülün heç bir zaman reallaşmadığının açıq bir göstəricisidir.

## TƏKAMÜLÇÜLƏRİN İDDİA ETDİYİ ƏCAİB CANLILAR HEÇ BİR ZAMAN YAŞAMAMIŞDIR

Təkamülçülərin iddialarına görə, canlılar kiçik-kiçik dəyişiklərlə başqa canlılara çevrilmişlər. Bu iddiaya görə, məsələn, bir dəniz ulduzu, balıq olmadan əvvəl, bir qismi balıq bir qismi dəniz ulduzu olan mərhələlərdən keçmişdir.

Ancaq təkamülçülərin bu iddialarının tamamilə boş söz olduğu bu gün elmi olaraq isbat edilmişdir. Çünki təkamülçülərin keçmişdə yaşadığını iddia etdiyi, bu yarı dəniz ulduzu yarı balıq xəyali canlıların bu günə qədər tək bir qalığı belə tapıla bilməmişdir. Halbuki, belə bir canlı yaşamış olsaydı bu günə qədər minlərlə qalığının tapılması lazım idi. Necə ki, bildiyimiz dəniz ulduzlarına və yenə bildiyimiz balıqlara aid yüz minlərlə qalıq əlimizdə mövcuddur.

## QALIQLARIN DARVİNİZMƏ BÖYÜK ZƏRBƏSİ

Köhnə dövrlərdə yaşamış canlıların qalıqlarını araşdıran qalıq elminin çatdığı nəticələr, Darvinin təkamül nəzəriyyəsinə böyük bir elmi zərbə endirmişdir.

Qalıq tapıntıları məlum bütün təməl canlı qruplarının, dünya üzərində eyni geoloji dövrdə birdən ortaya çıxdıqlarını göstərir. Elm adamlarının "filim" adını verdikləri bu təməl canlı qrupları, "Kembri dövrü" adı verilən və yaşı 530-520 milyon il olaraq hesablanan dövrdə birdən ortaya çıxıblar.

Kembri dövrünün əvvəlində yalnız bir neçə sadə və bənzər canlı qrupu yaşayarkən, Kembri dövründə, molyuskalar, soxulcanlar, başıayaqlılar, buğumayaqlılar, onurğalılar kimi təxminən 100 fərqli təməl canlı sinfi bir anda ortaya çıxmışdır.

Canlıların addım-addım bir-birlərindən təkamülləşdiklərini iddia edən darvinizm Kembri dövründə yaşanan bu fövqəladə hadisə qarşısında çarəsizdir. Bu cür fərqli canlıların birdən ortaya çıxmalarının çox açıq bir yaradılış dəlili olduğu ortadadır. Buna görə təkamülçü qalıq alim Jeffrey S. Levinton, da "Kembri dövründə çox xüsusi və sirli bir Yaradıcı gücün varlığını

görürük" deyərək bu mövzuda etirafıda var. (Scientific American, noyabr 1992)

## DARVİNİZMƏ "ÖLDÜRÜCÜ BİR ZƏRBƏ" ENDİRƏN TRİLOBİT GÖZLƏRİ

Darvin kitabında (Növlərin Mənşəyi) "əgər eyni sinfə aid çoxlu sayda növ həqiqətən həyata bir anda və birlikdə başlamışsa, bu təbii seleksiya ilə ortaq atadan təkamülləşmə nəzəriyyəsinə öldürücü bir zərbə olardı" (Charles Darvin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 302)- deyə yazmışdır.

Günümüzdən təxminən 530 milyon il əvvəlki Kembri dövründə, 60-ı aşan fərqli hevyan həyata BİR ANDA və BİRLİKDƏ başlamışdır. Bu, Darvinin "öldürücü zərbə" olaraq təsvir etdiyi tablonun özüdür.

Bu dövrdə yaşayan trilobitlər isə sahib olduqları kompleks orqanları ilə Darvinin nəzəriyyəsinə, qorxduğu öldürücü zərbələrdən bir başqasını daha endirmişdir.

Trilobitlər qalıq tapıntılarında rast gəlinən ilk canlılardandır və son dərəcə kompleks gözləri vardır. Yüzlərlə pətəkdən və bəzilərində minlərlə linzadan yaranan trilobit gözləri, tam bir dizayn möcüzəsidir. Harvard, Roçester və Çikaqo Universitetlərindən geologiya professoru Devid Raup; "Trilobitlərin gözü, ancaq günümüzün yaxşı təhsil almış və son dərəcə qabiliyyətli bir optik mühəndisi tərəfindən inkişaf etdirilə biləcək bir dizayna sahib idi" (David Raup, Conflicts Between Darvin and Paleontology, Field Museum of Natural History, 50-ci cild, yanvar 1979, səh. 24)-deyə bildirir.

Bu canlıların birdən, çox inkişaf etmiş orqanları ilə meydana çıxmaları Darvinin nəzəriyyəsini tarixin dərinliklərinə basdırmağa kifayətdir.

Trilobitlər haqqında ifadə edilməli bir başqa mövzu da, bu canlılardakı 530 milyon illik pətək göz sisteminin bu günə qədər heç dəyişilmədən gəlməsidir; arı ya da iynəcə kimi günümüzdəki bəzi böcəklər də eyni göz quruluşuna malikdir. Bu tapıntı təkamül nəzəriyyəsinin canlıların primitivdən kompleksə doğru inkişaf etdiyi istiqamətindəki iddiasına da yenə "öldürücü bir zərbə" endirir.

## DARVİNİZMİN KLASSİK TƏBLİĞAT ÜSULU: "REALI YOXSA SAXTASINI DÜZƏLT! İNSANLARI ALDAT!"

Tam 150 ildir, təkamül nəzəriyyəsinin doğru olduğunu göstərən tək bir dəlil də tapılmadı. Elmi araşdırmalar yaxud, aparılan qazıntılar təkamül nəzəriyyəsinin çətinliklərini göstərməkdən başqa bir işə yaramadı. Ancaq Darvinistlər bu zərbələr qarşısında qorxmadılar, boş dayanmadılar və davamlı "saxta dəlillər" çıxardılar!

Piltdaun Adamı qalığı bu saxta dəlillərdən yalnız biridir. 1912-ci ildə İngiltərədə olan Piltdoun kəlləsi tam 40 il boyunca müxtəlif muzeylərdə sərgiləndi və bütün dünyaya "insanın təkamülü" iddiasının ən böyük dəlili olaraq təqdim edildi. Ancaq həqiqətdə qalıq, təkamülçülər tərəfindən edilmiş elmi bir saxtakarlıqdan ibarət idi. Oranqutan çənə sümüyü ilə insan kəlləsi bir-birinə əlavə olunmuş və bəzi kimyəvi əməliyyatlarla bu saxta kəlləyə köhnə bir qalıq görünüşü verilmişdi. Bu kəllə üzərində aparılan təfərüatlı araşdırmalar, Piltdoun Adamı qalığının bir saxtakarlıq məhsulu olduğunu 1953-cü ildə qəti olaraq ortaya çıxardı. Darvinistlərin çıxardıqları bu saxta qalıq həm 40 il boyunca sərgiləndiyi muzeydən, həm də elm ədəbiyyatından tamamilə çıxarıldı.

Təkamülçülər elmi baxımdan aldıqları bu açıq zərbələrə baxmayaraq saxtakarlıqlara müraciət etməkdən, müxtəlif təbliğat və təlqinlərlə insanları aldatmağa çalışmaqdan imtina etmədilər. Lakin elmi inkişaflarla təkamül nəzəriyyəsinin problemlərinin bir-bir ortaya çıxması bu böyük aldatmacanın da sonu oldu. Hal-hazırda əsas vəzifəmiz bu sonun bütün dünya insanlarına çatdırılmasıdır.

Türk milləti bu tarixi vəzifəyə başlamışdır. Bütün dünyaya bu aldatmacaya son qoyulduğunu çatdırmaqda və yeni bir dövrün başlamasına vəsilə olmaqdadır.

Piltdoun qalığı tapılar-tapılmaz bir çox qəzet qalıq haqqında odlu başlıqlar yazdı. Üstdə yer alan "Darvinin Nəzəriyyəsi İsbat edildi" başlığı Londonda çıxan əhəmiyyətli qəzetlərdən birinə aiddir. İnsanlar bu yalanlarla uzun müddət aldadıldılar. Ancaq tam 40 il sonra bu qalığın böyük bir saxtakarlıq olduğu ortaya çıxdı.

Tarix:1922

Yer:Qərbi Nebraska

Mövzu:Təkamülçülərin SAXTAKARLIQLARINDAN BİR NÜMUNƏ

Amerikan Təbiət Tarixi Muzeyi Müdiri Henry Fairfield Osborn, Qərbi Nebraskada bir azı dişi qalığı tapdı.

Osborna görə bu diş insan və meymun xüsusiyyətlərinə sahib bir canlıya aid idi.

Bu tək dişə əsaslanaraq Nebraska Adamı adı verilən canlının kəlləsinin və bədəninin şəkilləri düzəldildi.

Hətta bu tək dişə baxılaraq Nebraska Adamının yoldaşının və uşaqlarının ailə tərəfindən xəyali şəkilləri belə çəkilib nəşr olundu.

Ancaq 1927-ci ildə skeletin o biri parçaları da tapıldı.

Tapılan yeni parçalardan aydın oldu ki, bu diş nə bir meymuna nə də bir insana aid idi. Diş nəsli kəsilmiş bir donuz növünə aid idi.

Beləcə təkamülçülər tərəfindən bir dişə əsaslanaraq düzəldilən bütün saxtakarcasına şəkillər və hiyləgər iddialar dəf edildi.

Təkamülçülərin bu kimi saxtakarlıqlarına, boş sözlərinə dayan demənin və həqiqətləri öyrənmənin yolu doğru məlumat əldə etməkdən keçir.

## DARVİNİSTLƏRİN XƏYAL DÜNYASI SONA ÇATIR

Darvinistlər nəzəriyyələrini dəstəkləyəcək elmi dəlillər tapmaq mövzusunda son dərəcə müvəffəqiyyətsizdirlər. 150 ildir, təkamül nəzəriyyəsini dəstəkləyən bir tək dəlil də tapa bilməmişlər.

Ancaq təkamülçülər bir mövzuda çox müvəffəqiyyətlidirlər: Təbliğat!

Darvinistlər xəyal güclərini istifadə edərək çox əhatəli təbliğat vasitələri çıxarırlar. Bu vəsaitlərin ən əhəmiyyətliləri isə "bərpa" adı verilən saxta şəkil və maketlərdir. Qəzetlərdə, jurnallarda, filmlərdə tez-tez gördüyünüz "meymun adamlar"ın hər biri bir bərpadır. Təkamülçülərin istifadə etdikləri bu materialların heç biri elmi deyil, tamamilə xəyalidir. Çünki;

* Keçmişdə yaşamış insanlara aid qalıqlar çox az saydadır və bunlara əsaslanaraq qəti nəticələr çıxarmaq mümkün deyil.

*Həmçinin, bir canlının qalığında yalnız sümüklərinin qalıqları olar. Sümük qalıqlarına baxılaraq isə, bir canlının "yumşaq toxumaları", məsələn dərisi, qulaqları, burnu, dodaqları və ya saçları müəyyən edilə bilməz.

Amma təkamülçülər bu həqiqəti görməzliyə vurarlar, qalıq tapıntılarını təkamül inancına uyğun şəkildə xəyallarında canlandıraraq çəkirlər. Harvard Universitetindən Earnst A. Hooten, bu mövzuda belə bir xəbərdarlıq edir:

"Yumşaq qisimlərin təkrar inşası çox riskli bir cəhddir. Dodaqlar, gözlər, qulaqlar və burun kimi orqanların altlarındakı sümüklə heç bir əlaqələri yoxdur. Məsələn, bir Neandertal kəlləsi eyni şərhlə bir meymuna və ya bir filosofa bənzədə bilərsiniz. Köhnə insanların qalıqlarına əsaslanaraq düzəldilən canlandırmalar dərhal heç bir elmi dəyərə sahib deyil və cəmiyyəti istiqamətləndirmək məqsədiylə istifadə edilir..." (Earnest Hooten, Up From The Ape, NewYork: McMillan, 1932, səh. 332)

Aydın olduğu kimi təkamülçülər yalnız öz xəyallarında mövcud olan, həqiqətdə heç yaşamamış bu canlıları, təbliğat üsullarıyla canlandırar və cəmiyyətə "məhz bu sizin atanız" deyərlər.

Ancaq XX və XXI əsrlərdə baş verən elmi inkişaflar darvinizmin maskasını salmışdır və həqiqətləri bütün çılpaqlığı ilə ortaya çıxarmışdır. Buna görə darvinistlər artıq insanlığı aldada bilməyəcək.

S. 30 Riçard Leakey və Rocer Levinin "Origins" adlı kitabındakı şəkli (1977)

1959-cu ildə olan “zinjanthropus”un üzdən çox fərqli rəsmi çəkilmişdir.

5 aprel 1964-cü il tarixli "The Sunday Times" jurnalında nəşr olunmuş bir başqa şəkil dr. K. P. Oakley üçün Maurice Uilson tərəfindən çəkilmişdir.

Maurice Uilson tərəfindən British Muzeyi (Təbii Tarix) üçün çəkilmişdir.

9 yanvar 1969-cu il tarixli London News adlı qəzet üçün çəkilmişdir.

# DARVİNİSTLƏR NƏZƏRİYYƏLƏRİNİ İSBAT ETMƏK UĞRUNDA İNSANLARA ZÜLM ETMİŞDİLƏR

OTA BENGA Kongolu bir yerli idi, evli və iki uşaq atası idi. 1904-cü ildə Samuel Verner adında təkamülçü bir araşdırmaçı tərəfindən "tutularaq" Amerikaya gətirildi. Buradakı təkamülçü elm adamları, onu müxtəlif meymun növləriylə birlikdə qəfəsə qoyaraq "insana ən yaxın ara-keçid forması" olaraq nümayiş etdilər. Daha sonra isə Nyu Yorkda bir zooparkında bir neçə şimpanze, qorilla və oranqutan ilə birlikdə "insanın köhnə ataları" adı altında eyni qəfəsdə nümayiş etdirdilər. Ota Benga heyvan rəftarına dözməyərək bir neçə il sonra intihar etdi.

Darvinistlər yalnız Ota Bengaya deyil, daha bir çox irqdən insana, nəzəriyyələrini isbat etmək uğrunda, oxşar əziyyətlər tətbiq etdilər. Məsələn, Aborigen yerlilərini öldürərək, kəllələri muzeylərində "insanla meymun arasındakı ara-keçid forması" olaraq sərgilədilər. Darvinistlər aşağı irq olaraq gördükləri aborigenləri, təkamülün "aşağı olanlar yox olacaq" qanununa uyğun gələrək yox etməyə başladılar. Nəşr etdikləri broşuralarda "Avstraliya Heyvanları" olaraq təyin etdikləri aborigenləri öldürdükdən sonra kəllələri stansiyaya oxşar yerlərin qapılarından asaraq sərgilədilər. Bir qismini isə zəhərli çörək verərək yox etdilər. Avstraliyanın bir çox bölgəsindəki Aborigen məskunlaşma vahidləri 50 il içində vəhşi üsullarla ortadan qalxdı. 100 min uşaq ailəsindən qaçırıldı. Bu gün isə Aborigen yerliləri hələ Avstraliyada digər irqlərlə bərabər haqlara sahib ola bilmək üçün cəhdlərinə davam etməkdədir.

Fərqli irqləri, xəstələri, zəifləri, kasıbları, üzrlüləri aşağı növlər olaraq görən və insanlara ideologiyaları uğruna heyvan kimi davranan darvinist düşüncənin iç üzü  mütləq açılmalıdır. Elmi olduğunu iddia etdikləri nəzəriyyələrinin etibarsızlığı da bütün dünyaya izah edilməlidir. Sülh, dinclik, qardaşlıq, sevgi, mərhəmət və fədakarlıq ancaq o zaman dünyaya hakim olacaq…

## İNSANIN DİK VƏ İKİ AYAQLI GEDİŞİ TƏKAMÜLÜN REALLAŞMADIĞINI GÖSTƏRƏN DƏLİLLƏRDƏN BİRİDİR

Təkamül nəzəriyyəsinin ən əhəmiyyətli problemlərindən biri dörd ayaqlı və əyik meymun gedişinin necə olub da iki ayaqlı dik insan gedişinə çevrildiyi sualıdır. Aparılan elmi araşdırmalar bu çevrilmənin qeyri-mümkün olduğunu göstərir. Bu mövzuyla əlaqədar ən son elmi nəticələr belədir:

Təkamülçülər meymunların əyik və dörd ayaqlı gedişinin pilləli olaraq insanın dik və iki ayaqlı gedişinə doğru təkamül keçirdiyini iddia edirlər. Halbuki, qalıq qeydləri insan ilə meymun yerişi arasında bir hərəkət şəklinə sahib bir canlının heç bir zaman yaşamadığını göstərir.

1996-cı ildə insanın iki ayaqlı gedişi mövzusunda araşdırmalar aparan ingilis mühəndisi Robin Krompton meymun yerişi ilə insan yerişi arasında bir hərəkət şəklinin qətiyyən mümkün olmadığını ortaya qoymuşdur.

Canlıların dik və əyri duruşlarının təsbiti üçün elm adamları daxili qulaq analizini istifadə edirlər. Bütün kompleks quruluşlu canlıların daxili qulaqlarında bədənin yerə görə mövqeyini təyin edən "ilbiz" adlı bir orqan olur. İngilis araşdırmaçı Fred Spoor insanın atası olaraq göstərilən canlıların ilbizlərini araşdırmış və bu nəticəyə gəlmişdir: Bunların bir qismi günümüzdəki meymunlar kimi əyik dayanan meymunlardır. Digərləri isə dik dayanan normal insanlardır. Yəni insanla meymun arasında bir duruşa sahib bir canlı heç zaman yaşamamışdır.

İnsanla meymun arasındakı böyük uçurum yalnız duruşlarından və yeriş şəkillərindən qaynaqlanmır. Bu iki canlı növü arasındakı beyin tutumu, danışıq qabiliyyəti, mühakimə, qərar alma, mədəniyyət meydana gətirmə kimi əhəmiyyətli fərqliliklər təkamülçülər tərəfindən heç vaxt açıqlanmamışdır. Müasir dövrün öndə gedən təkamülçülərindən Rocer Levin bu mövzuda belə bir etirafı da var:

"Fiziki mənada insanın təkamülü haqqındakı hər hansı bir nəzəriyyənin güclü çənələri və iri kəsici dişləri olan və bizdən dörd qat sürətli qaçan meymuna bənzər bir atanın necə yavaş-yavaş, iki ayaqlı bir heyvana çevrildiyini açıqlaması lazımdır. Bu güclərə ağlı, danışmağı və əxlaqı əlavə edin; bunların hamısı təkamül nəzəriyyəsinə qarşı çıxmaqdadır." (John Peet, The True History of Mankind, www.pages.org/uk/org/bcs)

Məhz sizin televiziya proqramlarında, elmi məzmunlu jurnallarda və ya bir universitet mühazirə çıxışlarında danışıqlarına, yazılarına və ya şərhlərinə rast gəldiyiniz təkamülçü elm adamları çoxlu Latınca sözlərdən istifadə edərək təkamül haqqında saatlarla danışarlar. Ancaq xalqın "ağır elmi bir üslubu" anlamamasından faydalanaraq heç bir məlumat verməz, davamlı şəkildə demaqoqluq edərlər. Təkamüllə əlaqədar ən sadə və ən fundamental sualları isə qətiliklə cavablandıra bilməzlər. Çünki təkamül heç zaman reallaşmamışdır. Və olmayan bir şey izah edilə bilməz.

## DARVİNİSTLƏR TERMODİNAMİKANIN İKİNCİ QANUNUNU RƏDD EDİR

Tətilə gedərkən mətbəxinizdə buraxdığınız çörəyi tətildən döndükdən sonra eyni halda görməzsiniz. Çörək zamanla pozulmuş, çürümüş və yox olmağa başlamışdır.

Ən sevdiyiniz paltarınız illər sonra köhnələr, ilk satın aldığınız halından olduqca fərqli bir şəklə düşər.

Evinizə yeni aldığınız mebellərin parçası bir müddət sonra köhnəlir. Aylar, illər keçdikdən sonra mebellərin köhnəsindən daha da yenilənmiş, daha baxımlı bir hala düşməsi, əlbəttə, gözlənilmir.

Məhz bütün bunlar fizikanın ən fundamental qanunlarından biri qəbul edilən "Termodinamikanın İkinci Qanunu"nun təsirləridir. Bu qanun kainatdakı hər şeyin təbii halına buraxıldığında zamanla əlaqəli olaraq pozulmağa doğru gedəcəyini söyləyən bir qanundur.

XX əsrin ən böyük elm adamlarından biri olan Albert Eynşteyn bu qanunu "Bütün elmlərin birinci qanunu" olaraq təyin etmişdir.

1.5 əsrdir insanlığı aldadan təkamül nəzəriyyəsi isə bu qanunu göz görə-görə rədd edir. Hətta tam tərsini iddia edərək, cansız atom və molekulların zaman içində "təsadüflərlə" bir yerə gələrək nizamlı zülalları, DNT, RNT kimi molekulyar strukturları meydana gətirdiyini söyləyir. Bunların, daha sonra milyonlarla canlı növünü təsadüfən ortaya çıxardıqlarını irəli sürür. Təkamülə görə bütün bu sayılanlar hər mərhələdə daha nizamlı, daha

planlı inkişaf etmişdir. Bu da Termodinamikanın İkinci Qanununun ortaya qoyduğu elmi həqiqətlərə tamamilə zidddir.

Təkamülçü bir elm adamı olmasına baxmayaraq təkamülün termodinamik problemini dilə gətirən Rocer Levin Science jurnalında nəşr olunmuş bir məqaləsində belə qeyd edir:

"Bioloqların qarşılaşdıqları problem təkamülün Termodinamikanın İkinci Qanunuyla olan açıq ziddiyyətidir. Sistemlər zamanla daha nizamsız strukturlara doğru pozulmalıdırlar". (Roger Lewin, "A Downward Slope to Greater Diversity", Science, 217-ci cild, 24 sentyabr 1982, səh. 1239)

Qısası, insanlıq 150 ildir fizika qanunlarına zidd bir iddia ilə qarşı-qarşıyadır. Bu əsassız iddianın etibarsızlığını tam mənasıyla qavramaq isə yaşadığımız əsrdə ağıl və bəsirət sahibi millətimizin də iştirakıyla reallaşacaq.

## DARVİNİZMİN CADUSU MÜDAFİƏÇİLƏRİNDƏ ŞİDDƏTLİ MƏNTİQ TƏXRİBATINA SƏBƏB OLMUŞDUR

Darvinizm ilə elm mübarizəsi aparmaq mümkün deyil. Çünki Darvinizm elm və məntiqi qəbul etməyən, inanılması qeyri-mümkün boş sözləri gözü bağlı mənimsəyən, ağlasığmaz möcüzələrə inanan azğın bir dindir.

Bu dinin ilahı "təsadüf"dür. Darvinizmi müdafiə edənlər kainatdakı hər şeyi, qalaktikaları, ulduzları, günəşləri, planetləri təsadüflərin meydana gətirdiyinə inanarlar. Eyni şəkildə Dünyanın, Dünya üzərindəki canlı cansız bütün varlıqların "təsadüf"ün əsəri olduğunu iddia edərlər. Bu din keçmiş dövrlərdən qalma əfsanələrdə iştirak edən azğın inanclara malikdir. Məntiqsiz və inanılması qeyri-mümkün hadisələrin möcüzəvi şəkildə meydana gəldiyini və bunun sayəsində bütün varlıqların meydana gəldiyini müdafiə edir.

Məsələn; mikrobioloqlar darvinistlərə bir zülalın təsadüfən meydana gəlmə ehtimalının 1/10950, yəni qətiliklə qeyri-mümkün olduğunu söylədiklərində darvinistlər, "olsun təsadüf bunu bacarar" deyərlər.

Paleontoloqlar, "ara-keçid formalarına aid bir qalıq da yoxdur, canlılar bütün dövrlərdə ən son hallarıyla birdən-birə yaranmışlar" dediklərində də darvinistlər, "olsun təkamül yenə də oldu"-deyə yola verərlər.

Darvinistlərə 100 milyon illik Homo sapiens (müasir insanı) qalığı göstərsəniz, onlar yenə də insanın heyvanlardan təkamülləşərək törədiyinə inanmağa davam edərlər.

Bu bir neçə nümunədən aydın olduğu kimi elmi məlumatlar və məntiqli şərhlər darvinistlərə təsir etməz. Onlar hər nə olursa olsun təkamül nəzəriyyəsini qorumağa, kor-koranə bu nəzəriyyənin arxasından süründürülməyə davam edərlər.

Şübhəsiz, ağlı, məntiqi və elmi gerçəkləri rədd edən belə azğın bir inancla, elm və məntiq yoluyla mübarizə aparmaq lazımlı nəticəni verməz.

"Qeyri-mümkünə inanaram" düsturu ilə yaşadılan bu batil dinlə, fəlsəfi sahədə mübarizə əsasdır.

Darvinistlərin məntiq pozuqluqlarının və qavrayış əskikliklərinin ortaya çıxarılması ilə bu batil inanc tarixə basdırılacaq.

## DARVİNİZMDƏ AĞIL VƏ MƏNTİQ YOXDUR, FANATİKCƏ İNANMAQ VARDIR!

Darvinistlər son dərəcə kompleks cümlələr, başa düşülməsi çətin ifadələr, çoxlu Latınca sözlərdən istifadə edərək, inanılması qeyri-mümkün iddialarda olarlar. Bu iddialarını isə soyuq görünüşlü cildli kitablarda izah edərlər. Onların cild-cild kitablarda izah etdiklərinin qeyri-mümkünlüyünü göstərmək üçün bir paraqraf yazı yetər.

Darvinistlərin iddiaları köhnə zaman nağıllarına bənzəyir. Darvinistlərin izah etdikləri bir nağıla görə 5 milyard il əvvəl, daşları, qayaları meydana gətirən milyonlarla şüursuz və məlumatsız atom "təsadüfən" bir yerə toplaşaraq bir yığıncaq qurdular. Bu yığıncaqda isə "təsadüfən" çox böyük və əhəmiyyətli qərarlar verildi. Kor, şüursuz atomların verdikləri qərarlar xülasəylə digər səhifədə göründüyü kimi idi.

Yandakı izahat darvinist nağılın bir xülasəsidir. Belə bir boş sözə əslində cavab verilməz. Bu, bir uşağa qurbağanın niyə şahzadəyə çevrilə bilməyəcəyini izah etməyə çalışmaq kimi bir şeydir. Ancaq bu qeyri-mümkün ssenarilərə inananlar olduğu müddətdə darvinizmin məntiqsizliyini səbirlə izah etmək lazımdır.

XXI əsr XIX əsrdə yaranan bu məntiq çöküşündən insanların qurtulduğu, doğruların və ağlın hakim olduğu bir dövr olacaq. Türk milləti hər dövrə damğasını vuran ağılı, bəsirəti və yüksək fikirliliyi ilə bu əhəmiyyətli inkişafda rəhbər olacaq.

**De: "Allahdan başqa yalvardığınız şəriklər haqda düşündünüzmü? Bir mənə göstərin görüm, onlar yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərin yaradılmasında şərikliyi var?" Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər? Xeyr! Zalımlar bir-birinə ancaq yalan vəd verirlər. (Fatir surəsi, 40)**

"Biz "təsadüflər" şəklində, davamlı bir-birimizlə qarşılaşaq. Hər təsadüfü görüşməmizdə, əgər ortaya "təsadüfən" işə yarayan bir şey çıxarsa, yeni təsadüflərin meydana gələrək bunu təsadüfən daha da inkişaf etdirməsini gözləyək. Bir neçə milyard il içində təsadüfən zülalları, hüceyrələri, hələ nə işə yarayacağını bilmədiyimiz gözü, qaraciyəri, ürəyi, dərini, saçları, beyni, gülləri, qərənfilləri, ceyranları, balıqları, tovuz quşunun tüklərini, pişikləri, yasəmənləri, sərv ağaclarını, xoş ətir yayan çiyələyi meydana gətirərik. Bir az daha cəhd göstərsək bizi araşdıran atom fizikası professorlarını, universitet şagirdlərini, Eynşteynləri, Leonardo da Vinçiləri, imperatorları da meydana gətirərik."

## DARVINISTLƏRIN "SANKI OVSUNLANMIŞ KIMI" INANILMASI QEYRI-MÜMKÜN IDDIALARINA INANARLAR

Darvinist biologiya professoru universitetin biologiya laboratoriyasına girdi. İnsanın quruluşunda olan mineralların hər birinin ayrı-ayrı kavanozlarda dayandığı rəfin önünə gəldi və hər qabdan bir parça mineral alıb ovucuna qoydu. Minerallara baxaraq, "İlk atalarım olan bu maddələr təsadüflərin ard-arda gəlməsiylə milyardlarla ilin sonunda məni və digər professor yoldaşlarımı meydana gətirdilər. Biz bunları ılıq su dolu bir qaba qoyub qarışdırsaq bir neçə milyard il sonra, meydana gələn təsadüflərin

nəticəsində kim bilir nə dosent, professorlar meydana gələr"- deyə ürəyindən keçirdi...

Oxuduğunuzda sizə son dərəcə məntiqsiz gələn, hətta kiçik uşaqları belə güldərəcək bu məntiq, əslində darvinist zehniyyətin təməlini meydana gətirir. Böyük professorların, dosent, təhsil işçilərinin, tədqiqatçıların belə bir məntiqə inanması isə, şübhəsiz, heyrət vericidir.

Darvinizm cadusu ağıllı və inanclı Türk millətini heç bir dövrdə təsiri altına ala bilməmişdir və ala bilməyəcək də. Türk milləti başlatdığı elmi və mədəni işlər ilə bütün dünyanı bu sehrin təsirindən qurtarmağa iddialıdır.

## DARVİNİZMİN MƏNTİQ MƏĞLUBİYYƏTİNƏ SİZ DƏ ŞAHİD OLUN!

İşdən sonra evinizə gəlib, hər gün təsvirlər etdiyiniz masanın üzərindəki kağızda "Heç bir şey təsadüfən meydana gələ bilməz" yazısını görsəniz, ağılınıza nə gəlir?

Belə bir vəziyyətdə "Masamın üzərindəki mürəkkəb küləyin təsiriylə aşıb təsadüfən kağızın üzərində 26 hərfdən yaranan bu cümləni meydana gətirmişdir" deyə düşünərsinizmi?

Əlbəttə, belə bir şey düşünməzsiniz. Hətta bu yazının təsadüfən meydana gəldiyini iddia edən bir adam görsəniz, onun ağlından şübhə edərsiniz.

Əgər hər hansı bir yerdə ən kiçik bir dizayn və ya planlı bir hərəkət varsa, orada mütləq bir ağıl sahibinin izləri vardır. Heç bir ağıl məhsulu təsadüfən meydana gəlməz. Bir kağızın üzərinə nə qədər mürəkkəb töksəniz tökün əsla təsadüfən yaranan bir söz görə bilməzsiniz.

Ancaq çox maraqlıdır ki, mürəkkəblərin aşıb 26 hərflik bir cümlə meydana gətirə bilməsinin qeyri-mümkün olduğunu bir söyləyən bəzi kəslər DNT kimi 3 milyard hərflik məlumat ehtiva edən bir molekulun təsadüflər nəticəsində meydana gəldiyi aldatmacasını qəbul edə bilir. Məhz bu, darvinizm boş sözünün səbəb olduğu bir məntiq məğlubiyyətidir.

## İLK DÖVR ƏFSANƏLƏRİNİN GÜNÜMÜZƏ MİRASI: DARVİNİST XURAFATLAR

Artıq dünya insanlarının xurafatlarla aldadılma dövrü bitmişdir. Çünki ilk dövrdən bu yana canlılığın yaranmasını təsadüflərlə izah etməyə çalışan bütün elmdən kənar inanclar bir-biri ardına tarixin dərin qaranlıqlarında itib getmişdir.

Darvinizmin də bu elmdən kənar Şumer ya da Misir inanclarından heç bir fərqi yoxdur. Eyni tilsimli sözlər, məntiqdən kənar nəticələr, cadulu bənzətmələr Darvinizm üçün də etibarlıdır. Bu inanclar necə ki, yox oldu, darvinizm dini də tarixə basdırılacaq. XXI əsr gerçəyin, doğruların, ağılın və elmin çağı olacaq.

Şumer inancları: İlk canlılıq bir su qarışıqlığından ortaya çıxmışdır.

Misir inancları: Qurbağa, balıq kimi canlılar Nil çayının palçıqlı sularında təsadüflərin nəticəsində meydana gəlmişdir.

Hindi inancları: Canlılıq "prakriti" adı verilən bir maddədən təkamülləşərək meydana gəlmişdir.

Orta əsrlər elm adamları: Ağcaqanadlar tərdən, qurbağalar palçıqdan, qarışqalar şəkərdən meydana gəlirlər.

Darvinistlər: Canlılıq cansız su xaosundan bir anda ortaya çıxmışdır.

Darvinistlər: Canlılıq bundan 4 milyard il qədər əvvəl ilk şorba içindən təsadüflər nəticəsi meydana gəlmişdir.

Darvinistlər: Canlılıq cansız maddələrdən təkamülləşərək meydana gəlmişdir.

Darvinistlər: Cansız maddələr xarici faktorlarla birdən həyat tapıb canlılara çevrilirlər.

## DARVINIZMIN XIX ƏSRIN PRIMITIV ELM SƏVIYYƏSI ILƏ YAZILMIŞ NAĞILLARDAN IBARƏT OLDUĞUNU BILIRDINIZMI?

Məhz dünyanın bir çox ölkəsinin aldandığı bu nağıllardan bir neçə dənəsi ...

Dənizdə yaşayan canlıların zamanla sudan quruya çıxdıqları və quruda yaşayan hala gəldikləri nağılı...

Nəhəng sürünənlərin ağcaqanad ovlayarkən ya da budaqdan dala tullanarkən quşlara çevrilməsi nağılı ...

İnsanlarla meymunların ortaq əcdaddan təkamülləşdikləri nağılı...

Hüceyrənin şüursuz atomların və molekulların bir yerə gəlməsiylə öz-özünə təsadüfən ortaya çıxdığı nağılı ...

Darvinizm yuxarıda sayılanlar kimi çoxlu sayda nağıl ilə dolu bir boş sözdən başqa bir şey deyil. Çox təssüf ki, dünyanın bir çox ölkəsində xalq, bu nağıllarla aldadılmaqdadır.

Ancaq bəsirətli və imanlı Türk milləti bu nağıllara aldanmadığını və inanmaycağını, bir çox millətin düşdüyü tələyə düşməyəcəyini isbat etmişdir.

Darvinizmin qədim dövrlərdən günümüzə qədər gələn bütpərəst bir inanc olduğundan XƏBARDARSINIZMI?

Köhnə dövrlərdən günümüzə çatan sənədlərdə müxtəlif canlılara ibadət edən şəkildə təsvir edilmiş insanlara tez-tez rast gəlinir. Məsələn, aşağıdakı şəkildə timsaha sitayiş edən bir insan təsvir edilmişdir.

Keçmişdə olduğu kimi, günümüzdə də bir çox cəmiyyətdə insanlar timsah, inək kimi heyvanlara və ya su, atəş, günəş kimi cansız varlıqlara ibadət edir, onları yaradıcı ilahlar olaraq qəbul edirlər. Belə bir inancın ağla, məntiqə və vicdana uyğun heç bir istiqaməti yoxdur. Bir timsahın heç bir şeyə güc yetirəməyəcək, heç bir şeyə ağlı olmayacaq qədər aciz və şüursuz bir varlıq olduğu açıqdır. Ancaq bu açıq həqiqətə baxmayaraq keçmişin bütpərəst inanclarını davam etdirən kəslər vardır.

Darvinistlər eynilə keçmişdə yaşamış bütpərəst cəmiyyətlərdəki kimi qəribə və ağlasığmaz bir inanca sahibdirlər. Onlar timsahları və ya atəşi deyil, amma təsadüfləri, cansız və şüursuz atomları yaradıcı güc olaraq qəbul edər və bu inanca bir dinə bağlanan kimi bağlanırlar.

Bu inanclarını da əsla dəyişməzlər. Hər normal insanda təsirli olacaq ağla və məntiqə dəvət, elmi dəlillər, vicdanı hərəkətə keçirmə kimi üsullar bu kəslər üzərində heç bir təsir meydana gətirməz.

## BİR ORTA ƏSRLƏR XURAFATI: TƏKAMÜL NƏZƏRİYYƏSİ

Təkamülçülər canlıların cansız maddələrdən özbaşına meydana gəldiyini iddia edir. Halbuki, bu iddia biologiyanın ən fundamental qanunlarına zidd olan bir orta əsrlər xurafatıdır.

Orta əsrlərdə insanlar, qazların ağaclardan meydana gəldiyinə, quzuların qarpızdan çıxdıqlarına, hətta bir su yığınındakı qurbağaların yağış buludlarında bir anda meydana gəldiklərinə və yağışla birlikdə torpağa düşdüklərinə, çirkli bir köynəyin üzərində buğda töküldüyündə, bu birləşmədən siçanların meydana gələcəyinə inanacaq qədər cahillər idi.

"Spontane generasiya" olaraq bilinən bu fərziyyənin, uşaqların da güləcəkləri qədər axmaq və inanılmaz bir iddia olduğu inkişaf edən elm sayəsində aydın oldu.

Çox təssüf ki, bir zaman sonra eyni iddia bir az daha fərqli bir şəkildə, təkamül nəzəriyyəsi olaraq təkrar gündəmə gətirildi. Təkamül nəzəriyyəsi də, canlıların cansız maddələrin bir yerə gəlməsiylə, təsadüfən meydana gəldiklərini iddia etdi.

Orta əsrlərdə elmi səviyyə son dərəcə geri olduğu üçün, bu cür xurafatlara inanılması üzrlü görülə bilər. Ancaq XXI əsrdə orta əsrlərin batil inancları necə olur ki, bəzi insanlar tərəfindən kor-koranə qəbul edilir?

Təkamülçülərin bu batil inancları canlılığın ən fundamental qaydası olan "həyat ancaq həyatdan gəlir" prinsipinə qətiyyən zidddir. Ancaq təkamülçülər digər fizika, kimya və biologiya qaydaları kimi bu qaydanı da heçə sayaraq, batil inanclarını davam etdirməkdədirlər.

## DARVİNİZMİN PRİMİTİV TOTEMÇİLİK İNANCINDAN BİR FƏRQİ OLMADIĞINI BİLİRSİNİZMİ?

Cahil bütpərəst cəmiyyətlərdə müqəddəs qəbul edilən bəzi heyvanlar və totemlər vardır. Taxtadan oyulmuş əşyalar və ya bəzi heyvan növləri azğın bir şəkildə ilah mərtəbəsinə yüksəldilmişlər.

Totemçilik inancı lüğətlərdə də "müəyyən insan birliklərinin özlərinin bir heyvan növüylə, bəzən də bir bitki ilə, təbii bir obyekt ilə soy cəhətdən qohum olduqları inancı" olaraq təyin olunur. (Fəlsəfə Terminləri Lüğəti, Bedia Akarsu, səh. 178)

Qohum olduqları bir heyvandan törədiklərinə inanan və bu heyvana tapınan əvvəlki əsrlərin bu azğın totemçi birlikləri ilə meymundan təkamülləşdiklərinə inanan müasir darvinistlər arasında heç bir fərq yoxdur. Darvinistlər də meymunlarla ortaq bir atadan törədiklərinə inanmaqdadırlar.

## DARVİNİSTLƏR İNANILMAZ OLANI MÜDAFİƏ EDƏRLƏR, AÇIQ-AŞKAR GERÇƏKLƏRİ GÖRMƏMƏZLİYƏ VURARLAR!

Kainatın və canlıların Allah tərəfindən yaradıldığı, bunun dəyişməz və müzakirə edilməz bir gerçək olduğu tamamilə doğrudur.

Xüsusilə, XX və XXI əsrdə yaşanan elmi inkişaf və irəliləyişlər, yaradılış gerçəyinin müzakirə edilməz olduğunu ortaya qoymuşdur. Genetikdən botanikaya bütün elm sahələri, canlıların üstün və ağıllı bir Yaradıcının hazırlamasıyla meydana gəldiyini təsdiqləməkdədir.

Amma XIX əsrin primitiv elm şərtlərində ortaya atılmış təkamül nəzəriyyəsini, ideoloji məqsədləri lazimi kimi müdafiə etmək məcburiyyətində qalan materialist dairələr bu gerçəkləri gözardı etməkdən çəkinmirlər. Kor-koranə bağlı olduqları təkamül doqmasını rədd etməmək üçün gülünc iddialarda olmaqdan çəkinmirlər. Məsələn, məşhur təkamülçü Riçard Davkins bunları söyləyir:

"Əgər bir heykəlin sizlərə əl yellədiyini görsəniz də bir möcüzəylə qarşı-qarşıya olduğunuzu sanmayın. Çox kiçik bir ehtimaldır, amma bəlkə də heykəlin sağ qolundakı atomların hamısı, təsadüfən, bir anda eyni istiqamətdə hərəkətə meyilli ola bilərlər." (Richard Dawkins, The Blind Watchmaker, London: W. W. Norton, 1986, səh. 232-233)

Təkamülçü Riçard Davkins bu sözləriylə ifadə etdiyi kimi açıq-aşkar bir möcüzəni, yaradılış gerçəyini görməməzliyə vurur, təkamülün təsadüf yalanlarını qəbul etməyi seçir.

İnsanların göz görə görə inkara süründürüldükləri Quranda bir çox ayədə bildirilmişdir. Məsələn, Hicr surəsinin 14 və 15-ci ayələrində "onların üzərlərinə səmadan bir qapı açsaq, oradan yuxarı yüksəlsələr də “Gözlərimiz dumanlanmış, daha doğrusu biz sehrlənmişik” deyəcəklər.

Bütün Dünya təkamül müdafiəçilərinin nə cür ciddi bir mühakimə pozğunluğunda olduqlarına, elmi gerçəkləri qəbul etməkdə necə çətinlik çəkdiklərinə şahiddir.

# II HİSSƏ:
# DARVİNİZMİN QARANLIQ ÜZÜ

## KOMMUNİZMİN XX ƏSR HESABATI!

**SSRİ**: 20 milyon ölü

**ÇİN**: 65 milyon ölü

**VYETNAM**: 1 milyon ölü

**ŞİMALİ KOREYA**: 2 milyon ölü

**KAMBOÇYA**: 2 milyon ölü

**ŞƏRQİ AVROPA**: 1 milyon ölü

**LATIN AMERİKA**: 150 min ölü

**AFRİKA**: 1.7 milyon ölü

**ƏFQANISTAN**: 1.5 milyon ölü

**CƏMİ**: TƏXMİNƏN, 100 MİLYON ÖLÜ

Geridə qoyduğumuz əsrdə qırğınlar, döyüşlər, qiyamlar səbəbiylə insanlar böyük ağrılar yaşadı. Bunların səbəbi isə kommunizm adı altında başladılan qorxunc bir sinif qarşıdurması və üstünlük mübarizəsi idi. Bu mübarizədə heç bir sərhəd tanınmırdı; insani duyğular, mərhəmət etmək, insaf etmək, vicdan kimi hisslər tamamilə itmişdi. Kommunizmin təsirinə girən insan birliklərin yaşadıqları yerlər bir anda vəhşi heyvanların yaşamaq və bəslənmək üçün var gücü ilə mübarizə etdikləri arenalara çevrilmişdi. Necə vəhşi bir heyvan qida və məskunlaşma yeri əldə etmək üçün öz növüylə var gücü ilə bir qarşıdurmaya girirsə, bu insanlar da eyni şəkildə "heyvanlar" kimi davranırdılar.

Yaxşı bir insanı belə mərhəmətsiz, zalım, vicdansız, vəhşi hala gətirə bilən faktor nə idi?

Məhz bu nöqtədə qarşımıza çıxan ad Çarlz Darvindir. Darvinin təkamül nəzəriyyəsi kommunist dinsizliyin təsirindəki insanlara əslində bir heyvan olduqları və heyvanlar necə həyat üçün mübarizə aparırlarsa özlərinin də elə davranması lazım olduğu yalanını söyləmişdi. Bu insanlıqdan kənar

hərəkətlərə öz düşüncəsinə görə qanuniyyət qazandırmışdı. Bolşevik liderlərin, təcavüzkarlıq, terror və qırğınlar mövzusunda bu qədər açıq və cürətli danışa bilmələrinin tək səbəbi Darvinin təkamül nəzəriyyəsindən aldıqları təsdiq idi. Necə ki, təkamülçü P. J. Darlington vəhşiliyin təkamül nəzəriyyəsinə inanmanın təbii bir nəticəsi olduğunu belə ifadə edər:

"Birinci nöqtə eqoizm və vəhşilik içimizdəki təbii bir şeydir, ən uzaq atamızdan bizə miras qalmışdır... O zaman vəhşilik insanlar üçün normaldır; təkamülün bir məhsuludur." (P. J. Darlington, Evolution for Naturalists , s. 243)

Bütün bu gerçəklər qarşısında XXI əsrdə keçən əsrin ağrılarını yaşamaq istəməyən insanlara düşən vəzifə darvinizm əsaslı bütün vəhşi ideologiyaları fikri istiqamətdə çökdürməkdir. Bunun yolu da bu ideologiyaların təməlini, yəni təkamül nəzəriyyəsini yıxmaqdır. Təkamül nəzəriyyəsinin çöküşüylə birlikdə XXI əsr İslam dininin gətirdiyi gözəlliklərin, işıqlığın, sevginin, şəfqətin, fədakarlığın, həmrəyliyin yaşandığı bir əsr olacaq.

## KOMMUNİZM ÖLMƏDİ, GİZLƏNDİ! YENİ BİR ŞƏXSİYYƏT ALTINDA YAŞAMAĞA DAVAM EDİR!

İllər boyunca kommunizmin qalası olaraq görülən Sovetlər Birliyinin dağılması, bütün dünyada "Kommunizm Yıxıldı!" sözləriylə qeyd olundu. Buna görə Stalin, Mao və Pol Pot kimi kommunist liderlərin illər boyunca etdikləri insanlıqdan kənar zülmlər sona çatmış, artıq geri dönməmək üzrə tarixin qaranlıqlarına basdırılmışdı.

Halbuki, bu çox böyük bir aldatmacadır. Çünki Marksist nəzəriyyəyə görə tarixi inkişaflar üç mərhələdən keçir. Feodalizmdən kapitalizmə, ondan da kommunizmə keçilməsi lazımdır. Ancaq Rusiyada kommunizmə keçid çox sürətli olmuşdur və Karl Marksın nəzəriyyəsi tam olaraq tətbiq olunmamışdır. Ona görə hal-hazırda kapitalist bir dövr sınanmaqda və kommunizmə keçid üçün gün sayılmaqdadır. İndi edilən bütün sistem dəyişiklikləri keçilmiş kapitalist mərhələni bir an əvvəl tamamlamağa istiqamətlidir.

Leninin "Bir addım irəli iki addım geri" adlı kitabı Maonun "Üç irəli, iki geri" məntiqi ilə izah etdikləri məşhur kommunist taktika Sovetlər Birliyinin

dağılmasıyla tətbiq edilmişdir. Rusiya bu tarixi müddətin başlanğıcını yaşaya bilmədiyi üçün geriyə doğru bir addım atma ehtiyacı hiss etmişdir. Əskik olan kapitalizm mərhələsini ən qısa müddətdə tamamlayıb, yayın gərilib daha sürətli irəli atılması kimi ani bir sıçrayışla gerçək kommunizmə keçid edəcək. Hədəf dəyişməmiş, amma üsullar dəyişmişdir.

Rusiyada yaşananlar "çəkicin yeni və daha güclü bir vuruş üçün yuxarı qaldırılması"ndan ibarətdir. Kapitalist sistem sayəsində din və ailə kimi mövcud olan bütün digər təşkilatlar tamamilə ortadan qaldırılacaq, azadlıq adı altında cəmiyyət çox böyük bir degenerasiyaya sürüklənilәcək. İqtisadi həyatda yaşanan böyük çöküş, aclığın və yoxsulluğun artması, mafiyanın bütün gücü əlinə alması, kommunizmin əvvəlkiylə ölçülməyəcək qədər qüvvətlənməsini və tərəfdar tapmasını təmin edəcək. Beləliklə, kommunizm təkbaşına iqtidarı ələ alacaq və ehtiyac içində olan insanlar buna qarşı çıxa bilməyəcək. Bunun nəticəsində Marksın nəzəriyyəsi tam olaraq həyata keçirilmiş olacaq və kommunizm əvvəlkindən daha güclü olaraq siyasət dünyasına dönəcək.

Ancaq Türk milləti bu təhlükənin illər əvvəl fərqinə varmış və lazım olan tədbirləri görmüşdür. Etməli olduğumuz ən vacib məsələ kommunist düşüncənin bütün fikri əsaslarının ortadan qaldırılmasıdır. Kommunist ideologiyanın ən əhəmiyyətli həyat damarı darvinist düşüncədir. Darvinizmin elm qarşısındakı böyük məğlubiyyətinin bütün dəlilləriylə ortaya qoyulması kommunizmi də yerlə yeksan edəcək.

## YER ÜZÜNDƏ SÜLHÜN VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİNATI ÜÇÜN DARVİNİZM İDDİASININ ETİBARSIZLIĞI ORTAYA QOYULMALIDIR

DARVİNİZM canlıların Allah tərəfindən yaradılmayıb təsadüfən meydana gəldiyini və zaman içində təkamülləşərək bu günki vəziyyətinə çatdığını müdafiə edir.

Darvinizmi təməl dayaq nöqtəsi olaraq mənimsəyən MATERİALİZM və KOMMUNİZM isə cəmiyyətlərin də canlılar kimi dialektika olaraq dəyişdiyini, buna görə kapitalist cəmiyyət nizamından sonra kommunist cəmiyyət nizamına keçiləcəyini təlqin edirlər.

Bu gün Rusiyada hər nə qədər kapitalist bir nizam hökm sürür kimi görünsə də, əslində köhnə kommunist sistemin bütün ünsürləri hələ mövcudluğunu davam etdirməkdədir. Lenin və Stalinin təqibçisi olan köhnə KGB agenti Putin başda olmaqla, çoxlu sayda üst səviyyə idarəçi və yerli idarəçinin kommunist olmasıyla yanaşı, dövlət nizamı və işləri ilə idarəetmə quruluşu da, kommunist rejimin dərin izlərini hələ də daşımaqdadır.

Bunun səbəbi Rusiyada kommunizmin heç zaman kökündən yıxılmayan və yalnız keçici bir müddət kənarda saxlanılan bir nizam olmasıdır. Belə ki, kommunist heyətlər, inandıqları ictimai dialektika prinsipləri lazımi uyğun zaman və zəmində bu nizamı təkrar yaşıllaşdırmaq və həyata keçirmək üçün gözləməkdədirlər. Bu müddəti sürətləndirmək məqsədiylə bir tərəfdən, rəsmi olmayan gizli bir kapitalist təhdidlə bölgədəki türk dövlətlərini təzyiq altında tutmağa çalışmaqda və azadlıqlarına maneə törətməkdədirlər. Digər tərəfdən də, qeyri-qanuni kapitalist gücləri rus xalqını əzmək üçün istifadə edirlər. Bütün bu təhdid və təzyiqlər nəticəsində böhrana düşən insanların kommunizmi axtaran hala gələcəyini hesab edirlər.

Unutmaq olmaz ki, Allah yer üzündə dincliyi, sülhü, dostluq və qardaşlığı əmr edərkən, darvinizmin meşə qanunlarına inanan bütün kommunist öndərlər XX əsrdə dünyanı zülmlə doldurmuşlar. Günahsız insanları ailələrindən, uşaqlarından, ana atalarından ayırmışlar, müxtəlif işgəncələrlə qətlə yetirilmişlər, qadın-kişi, uşaq-yaşlı ayırmadan toplu qırğınlar törətmişlər, milyonlarla insanı aclıqdan qırmışlar, çoxlu sayda insanı şikəst etmişlər. Əxlaqsızlıqları, sui-istifadələri, ədalətsizlikləri, istismar və degenerasiyanı yaymışlar və dünyada böyük bir fitnə çıxarmışlar. Bütün dünya materialist-kommunist anlayışın zalımlığına 150 ildir dəfələrlə şahid olmuşdur.

Məhz bütün bu zulümatı yaymaq üçün, materialist və kommunist fikir axınlarının dayaq nöqtəsi olan darvinist fəlsəfənin qaranlıq üzünü bütün insanlığa eşitdirmək, bu fəlsəfənin elmi çöküşünü göstərmək vicdanı bir vəzifədir. Darvinin sayıqlamalarına aldanmayan, imanlı, vicdanlı və bəsirətli türk milləti bu vəzifəyə talibdir. Bu ideologiyalara qarşı aparcağı fikri və mədəni mübarizə ilə yer üzündə sülhün və təhlükəsizliyin təminatı olacaq.

## DARVİNİST-KOMMUNİST RUSİYA QARANLIQ ÜZÜNÜ BİR DAHA GÖSTƏRDİ!

Lenin və Stalinlə başlayan darvinist-kommunist zülm bu gün Putinlə davam edir.

Günahsız insanları evlərindən, ailələrindən, uşaqlarından, ana-atalarından ayıraraq, müxtəlif işgəncələrlə öldürən, qadın-kişi, uşaq-yaşlı ayırmadan toplu qırğınlar törədən, milyonlarla insanı aclıqdan qıran, milyonlarla insanı şikəst qoyan, milyonlarla insanı evindən, işindən edən Lenin və Stalinin ardınca Putin darvinist-kommunist bəlanın bayraqdarlığını edir.

Müsəlman Çeçen xalqına illərdir zülm yaşadan, milyonlarla günahsız insanın qatili Putin, öz vətəndaşlarını, əsgərlərini ölümlə üz-üzə qoyunca darvinizmlə bəslənən kommunist anlayışın zalımlığına bütün dünya bir daha şahid oldu.

Keçmişdəki ataları kimi darvinizmin "insan bir heyvandır" yalanına inanan Putin nə çeçenlərə, nə 118 Rus əsgərinə, nə də öz əsgərlərinin analarına, atalarına, ailələrinə mərhəmət etmədi. Ağlayan və acı çəkən bir ananı iynə ilə susduracaq qədər mərhəmətsizləşən bu qaranlıq darvinizm fəlsəfəsi elmi mübarizə ilə dayandırılmadığı müddətcə, dünyadan gözyaşı, ağrı, zülm və səfalət silinməyəcək.

## KOMMUNİST-DARVİNİST FƏLSƏFƏNİN ZÜLMÜ HƏLƏ DAVAM EDİR

Kommunist dövlət modelində insana verilən dəyər çox aşağıdır. Xalq sanki davamlı işlədilərək mənfəət əldə ediləcək bir heyvan sürüsü kimi rəftara uğrayar. Bu anlayışın təməlində yatan səbəb isə darvinizmdir. Kommunist dövlətlər kiçik yaşdan etibarən darvinizmin saxta təlqinləriylə yetişdirilmiş, insanın bir az daha inkişaf etmiş bir heyvan olduğu inancına sahib idarəçilər tərəfindən idarə olunar.

Bu anlayışın təsirləri geridə qoyduğumuz əsrdə kommunist dövlətlərin xalqlarına böyük bəlalar gətirdi. Ancaq kommunist-darvinist tətbiqlərin

insanlığa gətirdiyi bəlaları görmək üçün yalnız tarixə, Stalinə, Maoya, Leninə baxmağa ehtiyac yoxdur. Bu gün də kommunist-darvinist idarəçilər Rusiyada və Çində insanlara müxtəlif üsullarla zülm etməyə davam edirlər.

Yeni doğan körpələri heç ağrımadan, qəddarca öküzün, günahsız insanları səbəbsiz yerə işgəncə ilə öldürən Çin, müsəlman çeçenləri qətlə yetirən, evlərindən, yurdlarından edən, öz əsgərlərini, soydaşlarını dənizin dibində öldürən Rusiya kommunist-darvinist anlayışın zalım tətbiqlərinin yaşayan nümunələridir.

Dünyaya dəhşət yaşadan bu zülmə dayan demək, yüksək vicdanlı türk millətinin missiyasıdır. Türk milləti darvinist-kommunist fəlsəfəyə qarşı elmi bir mübarizə ilə bu zülmə dayan deyəcək.

## KOMMUNİST ÇİN ZÜLMÜ ALTINDA ƏZİLƏN ŞƏRQ TÜRKİSTANIN REJİMƏ GÖRƏ GÜNAHI AĞIRDIR: "MATERİALİST OLMAMAQ!"

Əgər müsəlman Şərqi Türkistan türkləri, kommunist Çin rejimi kimi materialist olsaydılar; yəni kor, şüursuz atomların zamanla, təsadüflər nəticəsində bir yerə toplaşıb şeir oxuyan, mahnı oxuyan, loqarifma, xətti cəbr problemləri həll edə bilən, mikroskop altında öz hüceyrələrini araşdıran, elmi mövzularda nitqlər söyləyən, danışıqlar aparan insanlara çevrildiklərinə inansaydılar, heç bunlar başlarına gələrdimi?

Bu insanlar bütün kainatın başıboş bir təsadüflər zənciri içində meydana gəldiyini, özlərinin də başıboş olduğunu düşünsəydilər və sonsuz lütfkarlıq sahibi Allaha qarşı məsul olduqlarını inkar etsəydilər, belə bir zülmlə qarşılaşardılarmı?

Əlbəttə, xeyr.

Əgər bu insanlar hər şeyin maddədən ibarət olduğunu, insanların da şüursuz atomların təsadüflər nəticəsində bir yerə gəlməsiylə meydana gələn varlıqlar olduğunu iddia edən materialist düşüncəni mənimsəsəydilər kommunist zülmə məruz qalmazdılar. Yer üzündə təxribatçılıq çıxmasının, insanlara zülm edilməsinin, qan tökülməsinin, döyüşlərin, anarxiyanın, terrorun yeganə qaynağı inkarçı materialist zehniyyətdir. Bu zülmü yer

üzündən qaldırmağın yolu isə darvinizm əsaslı bu zehniyyətin fikri təməllərinin yıxılmasıdır.

Unutmaq olmaz ki, "zülmə razılaşmaq da zülmdür". O halda, vicdan sahibi hər insanın ən əhəmiyyətli vəzifələrindən biri darvinist-materialist zehniyyətlə mübarizə etməkdir.

## GÜNAHSIZ İNSANLARA GÖZLƏRİNİ QIRPMADAN SİLAH TUŞLAYAN RUS ƏSGƏRLƏRİ, ETDİKLƏRİNİ GÜLƏRƏK İZAH EDİRLƏR

Dünyanın dörd bir tərəfində insanlara, uşaqlıq yaşlarından etibarən materialist və darvinist təhsil verilməkdədir. Bu təhsilin son hədəfi isə Allahın varlığını inkar edən, bütün kainatın təsadüflər nəticəsində mövcud olduğuna inanan və güclü olanın gücsüzləri yox edərək həyatda qala biləcəyini düşünən nəsillər meydana gətirməkdir. Bu zalım ruhu alan gənclərin ən əhəmiyyətli xüsusiyyətləri isə insan sevgisindən, mənəvi gözəlliklərdən və hər cür əxlaqi dəyərdən uzaq olmalarıdır. Ona görə də bu gənclər günahsız bir insanı gözünü qırpmadan öldürən, qundaqdakı körpələrə silahlarını tuşlayan, müdafiəsiz yaşlılara insanlıqdan kənar işgəncələr edə bilən əli qanlı canilər halına düşürlər. Bunun bir nümunəs(n)i də Kommunist təhsilin bir məhsulu olan Rus gəncləridir.

Rus hökumətinin materialist təhsillə yetişdirib, döyüş meydanlarına göndərdiyi bu gənclər əli yalın çeçen xalqına, qadınlara, uşaqlara, körpələrə və yaşlılara qarşı illərdən bəri çox böyük qırğınlar törədirlər. Darvinist təlimin bir nəticəsi olaraq insanı inkişaf etmiş bir heyvan kimi görən bu insanların ən əhəmiyyətli xüsusiyyətləri isə, etdikləri vəhşilikdən böyük bir zövq almaları, işgəncəni əylənmək üçün etmələri və bütün etdiklərini də gülərək və lağ edərək izah etmələridir. Məhz rus əsgərlərinin dilindən insanın tüklərini ürpədən işgəncə nümunələri:

- ƏVVƏL QULAQLARINI, SONRA DİGƏR ORQANLARINI BİR-BİR KƏSƏRDİK. ÖLDÜRMƏK ƏYLƏNCƏLİ İDİ. BİR ÇEÇENİ YAVAŞ-YAVAŞ ÖLDÜRMƏLİ. ÖLÜM SÜRƏTLİ OLSA DADI OLMAZ.

– BİR ÇEÇEN QADINI DÖRD AYRI ALƏTƏ BAĞLADIQ VƏ AVTOMOBİLLƏRİ İRƏLİLƏDİNCƏ QADIN DÖRD PARÇAYA AYRILDI. ƏTRAF QAN GÖLÜ OLMUŞDU, AMMA BİZ ÇOX ƏYLƏNMİŞDİK.

– ƏN GÖZƏL ÜSULLARDAN BİRİ DƏBİLQƏSNİ ODDA QIZDIRMAQ, İSTİDƏN QIPQIRMIZI QIZARDIĞI ZAMAN DA QURBANIN BAŞINA KEÇİRMƏK İDİ. HAMISINI TƏK-TƏK XATIRLAYIRAM. ÇOX ZÖVQLÜ İDİ.

Bir rus əsgərinin dilə gətirdiyi bu səhnələrin bənzərləri Çeçenistanda, Fələstində, Kəşmirdə, Şərqi Türkistanda, İndoneziyada, Filippində, Burmada, Misirdə, Efiopiyada və daha dünyanın bir çox ölkəsində illərdir yaşanmaqdadır. Dinsiz olduqları və Allah qorxusu daşımadıqları üçün ürəkləri qatılaşmış olan bu insanlar keçmişdə olduğu kimi bu gün də dünyaya acı, gözyaşı, bəla gətirməkdədirlər.

Dünyaya verdiyi nizam ilə tanınan türk millətinin bu insanlıqdan kənar vəhşilik qarşısında şərhsiz qalması mümkün deyil. Buna görə də dinsizliyin əli qanlı bir robot halına gətirdiyi bu gənc insanlara ədaləti, insanlığı, sevgini, hörməti, sədaqəti, vəfanı, şəfqəti və dostluğu öyrədəcək də yenə türk milləti olacaq.

## DARVİNİST-MATERİALİSTLƏRİN HİYLƏGƏR TAKTİKALARI

Rusiyada kommunizm əslində məhv olmadı. Bu, Darvinist materialistlərin bir oyunudur. Bu oyuna görə, çəkic daha sürətli vurmaq üçün daha yuxarı qaldırıb və zərbəli alması təmin edilmişdir. Beləcə, marksistlərin "bir irəli iki geri" taktikası tətbiq olunmaqdadır.

Bu günki sistemlə rus xalqı qəsdlə ağır iqtisadi təzyiq altında əzilməkdə, əxlaqi degenerasiya son sürətlə dirənməkdədir. Beləcə, xalqa sözdə "kommunizm günləri axtarılır" və xalqa "Yetər! Kommunizm belə daha yaxşı idi" dedirtdilməyə çalışılır. Yəni süni bir fəlakət mühiti yaradılaraq, kommunizmi geri gətirmək üçün səbəb yaradır.

İnsanlıq bu tələyə düşməməlidir. Çünki kommunizm heç bir problemin həlli ola bilməz. Hətta, tarix boyunca ən böyük bəlalar kommunizmlə gəlmişdir. Lenin, Stalin, Mao kimi kommunist liderlər on milyonlarla insanı

aclıq və qıtlıqla, on milyonlarla insanı işgəncə ilə öldürtmüş, on milyonlarla insanı yurdlarından sürgün etdirmiş, on milyonlarlasını isə evindən, ailəsindən ayırmış, işsiz qoymuşdur.

İndiki vaxtda dünya cəmiyyətlərində yaşanan çətinlik və çətinliklərin göstərdiyi əhəmiyyətli gerçək dinin lazımlılığıdır. Dinsiz cəmiyyətlər istənilən vaxt yox olmağa, degenerasiya olmağa və gücsüzləşməyə məhkumdurlar. Buna görə tək həll Quran əxlaqının yaşanmasıdır.

Türk milləti bunun ən gözəl nümunəsidir. Tarixinin heç bir dövründə kommunist və faşist tələlərə düşməyən millətimiz, ən çətin günlərində də imanı, vicdanı və güclü şəxsiyyəti ilə çətinliklərin öhdəsindən gəlməyi bilmişdir.

## DARVİNİZM VƏ KOMMUNİZM ARASINDAKI TARİXİ İTTİFAQ

Güclərini darvinizmdən alan, etdikləri zülmləri və mərhəmətsizlikləri darvinizmin saxta elmi örtüyü ilə məqbul göstərməyə çalışan kommunizm və faşizm kimi ideologiyalar XX əsrdə on milyonlarla insanın ölümünə, aclığına, səfalətinə, bədbəxtliyinə və hər cəhətdən acı çəkmələrinə səbəb olmuşdur.

Darvinizm bu ideologiyalara həyat verən, onları bəsləyən, gücləndirən və illər boyunca yaşamalarını təmin edən yeganə qaynaqdır. Darvinizm insanları Allahı inkara sürüyərək və "qarşıdurmanı" təbii bir cəmiyyət nizamı sayaraq, kommunist ideologiyanın ayrılmaz bir parçası olmuşdur.

Kommunizmin qurucuları Karl Marks və Fridrix Engels, Darvinin təkamül nəzəriyyəsinin ideologiyalarına təmin etdiyini açıqcasına ifadə etmişlər. Karl Marks Darvinin təkamül nəzəriyyəsinin təməlini təşkil edən "Növlərin Mənşəyi" adlı kitabı üçün "...Bizim görüşlərimizmin təbii tarixi təməlini ehtiva edən kitab məhz budur!" (Marks və Engels Məktublar, səh. 426) demişdir. Hətta daha da irəliyə gedərək, Darvinə olan simpatiyasını, ən əhəmiyyətli əsəri sayılan “Das Kapital”ı Darvinə ithaf edərək göstərmişdir. Kitabın Almanca nəşrinə əl yazısı ilə belə yazmışdır: "Çarlz Darvinin odlu pərəstişkarı  olan Karl Marxdan."

Engels isə Darvinin kitabı haqqında Marksa belə yazmışdır: "İndi kitabını oxuduğum Darvin, bir sözlə möhtəşəmdir." (Conway Zirkle, Evolution, Marxian Biology and the Social Scene, Philadelphia; the University of Pennsylvannia Press, 1959, səh. 527)

Rus kommunist inqilabını reallaşdıran bolşeviklərin öndərlərindən olan Leon Trotskiy da "Darvinin böyük kəşfi bütün orqanik maddə sahəsində dialektikanın ən böyük zəfəri oldu." (Alan Woods, Ted Grant, Marksizm and Darvinizm, London; 1993) deməklə Darvinizmə olan bağlılığını ifadə etmişdir.

20 milyon insanı qətlə yetirən, vəhşilikdən xüsusi bir zövq almasıyla tanınan mərhəmətsiz bir qatil olan rus kommunist diktator Stalin də darvinizmə verdiyi əhəmiyyəti belə açıqlamışdır: "Gənc nəsillərin zehnini yaradılış düşüncəsindən təmizləmək üçün onlara bir şeyi öyrətməliyik: Darvinin təlimlərini." (Kent Hovind, The Falsa Religion of Evolution, http://www.nsv.tis.net/....ke4vol/evolve/ndxng.html (bu kitab yalnız internetdə nəşr olunmuşdur)

Qızıl Çini qanlı bir inqilabla quran kommunist diktator Mao da qurduğu bu nizamın fəlsəfi dayağını "Çin sosializminin təməli Darvinə və Təkamül Nəzəriyyəsinə əsaslanır " (K. Mehnert, Kampf um Mao's Erbe, Deutsche Verlags-Anstalt, 1977) sözləriylə açıqcasına ifadə etmişdir. Ölkəmizdə də yüz minlərlə ailəni dərdə salan, milyonlarla gəncin həyatlarının sönməsinə səbəb olan bu ideologiyaların, fikir və mədəniyyət dünyasından əbədi olaraq silinmələri üçün türk millətinə əhəmiyyətli bir vəzifə düşür. Millətimiz bu vəzifəni eşq və şövqlə yerinə yetirir.

## DARVİNİST-MATERİALİST TƏHSİLİN NECƏ HİYLƏGƏR BİR ÜSULLA GETDİYİNİ BİLİRSİNİZMİ?

İndiki vaxtda döyüşlərin bitməməsinin, terrorist fəaliyyətlərin durdurulamamasının və irqçi hücumların gün keçdikcə daha da artmasının səbəbi dünyanın dörd bir tərəfində verilən darvinist-materialist təhsildir.Bəs şiddəti, vəhşiliyi, döyüşü bir həyat tərzinə çevirən insanların necə bu hala gəldiklərini heç düşündünüzmü? Bunun səbəbi bu gənc insanların təhsil müəssisələrində mərhələli şəkildə şiddətə alışdırılmasıdır. Darvinist-materialist təhsil bu şəkildə inkişaf edir:

1-Cİ MƏRHƏLƏ: Təkamül Nəzəriyyəsi qaynaq kimi götürülərək, hər şeyin təsadüflər nəticəsində mövcud olduğu təlqin edilir.

2-Cİ MƏRHƏLƏ: Təkamül Nəzəriyyəsindən çıxış edərək, insanların atalarının heyvan olduğu yalanı deyilir.

3-CÜ MƏRHƏLƏ: Təkamül Nəzəriyyəsi əsas kimi göstərilərək, insanlar arasında üstün irq ilə ikinci dərəcəli irq deyə fərqlilik iddiası öyrədilir.

4-CÜ MƏRHƏLƏ: Təkamül nəzəriyyəsi təməl götürülərək insanların heç kimə qarşı məsul olmadıqları cəfəngiyyatı aşılanır.

5-Cİ MƏRHƏLƏ: Təkamül Nəzəriyyəsinə görə sağ qala bilmək üçün zəifləri, şikəstləri, xəstələri yox etməyin qanuni olduğu qarşıya qoyulur.

NƏTİCƏ: Artıq hər cür insanlıqdan kənar cinayəti gözünü qırpmadan törədən, şiddəti, vəhşiliyi, təcavüzü, oğurluğu, qırğını, təxribatı qanuni sayan əli qanlı robotlar ortaya çıxmışdır.

Gənclərini bu təhsillə bəlaya sürüyən dünya ölkələrinin tək ümidləri şərəfli türk xalqıdır. Çünki millətimiz bu böyük təhlükənin fərqindədir və bütün dünyanı hədəfə alan güclü bir mədəni hücumla yer üzündə sülh və hüzur dolu bir dövr başlamasına liderlik edəcək.

# DARVİNİST TƏHSİL, DARVİNİST TƏHSİLİN NƏTİCƏLƏRİ

## DARVİNİZM KEÇDİYİMİZ ƏSRİ QARŞIDURMALAR VƏ MÜHARİBƏLƏR ƏSRİNƏ ÇEVİRMİŞDİR

Darvinizm davamlı mübarizə, döyüş və döyüşlərin heyvanları və insanları mükəmməlliyə apardığına inanır. Döyüşsüz bir dünyanın isə insanlığı geriyə aparacağını iddia edir. Darvinizmin bu məntiqinə görə döyüş yoxdursa belə, döyüş çıxarılmalıdır.

Qan tökmək, boğuşmaq, döyüşmək, hücum etmək, məzlumu əzmək, mərhəmətsiz və zalım olmaq və bu şəkildə böyüyəcəyini sanmaq, şeytanın sadist məntiqinin bir əks olunmasıdır. Bu azğın fikirləri qəbul edənlər şeytanın oyuncağı olmaqda, onun əlində sanki vəhşilik maşınına çevrilməkdədirlər. Dünyada milyonlarla kommunisti və faşisti bu məntiqlə öyrədənlər əməllərinə çatmaq üçün darvinizmin və materializmin nəzəriyyəçisi və təhrikedicisi olmuşlar. Şeytanın qan tökmə arzusunu darvinizm kimi şeytanı bir məntiqlə müdafiə edən bu kəslər Qurandakı tərifi ilə "Şeytanın qardaşları olarlar və insanları pozğunluğa sürüyərlər." (Əraf surəsi, 202)

Faşist Hitler də darvinizmin təsiri altında qalaraq, şeytan tərəfindən bir fikri müdafiə etmiş və insanlara acı, gözyaşı və zülm gətirmişdir. Hitlerin bu sözləri, onun darvinizmin döyüş çağırışlarından necə təsirləndiyinin bir göstəricisidir:

"Təbiət, güclülər ilə zəiflər arasında bir döyüş, güclülərin zəiflər üzərindəki mütləq qalibiyyətidir. Əgər belə olmasaydı, təbiətdə davamlı bir pozulma olardı... Yaşayan döyüşmək məcburiyyətindədir. Davamlı döyüşün bir həyat qanunu olduğu bu dünyada döyüşmək istəməyən həyat haqqına sahib deyil." (Clark Robert, Darvin: Before and After, səh. 115)

**Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir. (Bəqərə surəsi, 208)** ayəsiylə, sevgi, dostluq, sülh, təhlükəsizlik və sağlamlığa çağırılar.

Bütün insanlığın hüzuru, təhlükəsizliyi və barışı üçün darvinizm yalanına qarşı insanlar xəbərdar edilməli və əvəzində Quran əxlaqı izah edilməlidir.

## HİTLER VƏ DARVİN ARASINDAKI QANLI İTTİFAQ

Hitler mərhəmətsiz və gözü dönmüş bir irqçi idi. German irqinin üstün irq olduğunu iddia edir və digər irqlərin yox edilmələrinin lazımlığına inanırdı. Və bu inancını tətbiq etdi. Avropada 50 milyona yaxın insanı mərhəmət etmədən qətlə yetirdi! Hitlerin irqçi görüşlərinin qaynağı isə Darvin idi. O da Darvin kimi, sözdə üstün irqdən başqa irqlərin təkamülü tamamlanmamış meymunlar olduqlarına inanırdı. Bir ifadəsində belə demişdi:

"Şimali Avropa almanlarını insanlıq tarixindən çıxarın, yerdə meymun rəqsindən başqa bir şey qalmaz". (Carl Cohen, Communism, Fascism and Democracy, səh. 408)

Darvin isə Növlərin Mənşəyi adlı kitabında irqçi vəhşiliyi belə qızışdırmışdı:

"Bəlkə də, əsrlər qədər sürməyəcək yaxın bir gələcəkdə mədəni insan irqləri vəhşi irqləri yer üzündən tamamilə siləcək və onların yerinə keçəcək. Digər tərəfdən insan meymunlar da, şübhəsiz, ələnəcəklər. Beləcə, insan ilə ən yaxın qohumları arasındakı boşluq daha da genişləyəcək."

Mərhəmətsizliklərini, təcavüzkarlıqlarını, vəhşiliklərini darvinizmin saxta elmi üzüylə qanuniləşdirməyə çalışanlar bu gün hələ dünyanın dörd bir tərəfində qan tökməyə, insanlara qorxu və dəhşət yaşatmağa davam edirlər. Darvinizmin saxta maskası elm yoluyla üzlərindən endirilmədiyi müddət ərzində də davam edəcəklər.

Dünyanın bu bəlalardan xilas olması üçün darvinizmin elmi baxımdan böyük bir saxtakarlıq və yalnışlıq olduğu bütün dünyaya izah edilməlidir.

## DÜNYAYA ZÜLM GƏTİRƏNLƏRİN QATI DARVİNİST OLDUĞUNU BİLİRSİNİZMİ?

Darvinizm terrorun, anarxiyanın və zülmün təməlidir. XX əsrə dağıntı gətirən bütün faşistlər qatı darvinist idi. Hitler və Mussolini danışıqlarında tez-tez darvinist ifadələrə yer verirdilər. Bu gün bu faşistlər həyatda deyillər, ancaq ideologiyalarını yaşadanlar dünyanın dörd bir küncündə hələ qırğın və zülmlərinə davam edirlər. İdeologiyalarını əsaslandıqları darvinizm fikirlə çürüdülmədiyi müddət ərzində də, bunları etməyə davam edəcəklər. Bu həqiqətlər görməzliyə vurulmamalı və təcili tədbirlərlə darvinizm aldatmacasına qarşı insanlar maarifləndirilməlidirlər.

Mussolini: "Şiddət tarixdə təhrikedici gücdür və döyüş inqilab gətirər...

Dəmirə sahib olan çörəyə də sahib olar."

Hitler: "Yaşayan döyüşmək məcburiyyətindədir. Davamlı döyüşün həyat qanunu olduğu bu dünyada, döyüşmək istəməyən həyat haqqına sahib deyil."

Darvin: "Bəlkə də, əsrlər qədər sürməyəcək yaxın bir gələcəkdə, mədəni insan irqləri vəhşi irqləri tamamilə yer üzündən siləcəklər və onların yerinə keçəcəklər."

## HİTLERİN DARVİNİST SAYIQLAMALINA SON QOYULMADI

Adolf Hitler, 1933

"Gənclərin təhsili ilə əlaqədar düşündüyüm proqram olduqca çətindir. Əvvəlcə bütün zəifliklər yox edilməlidir. Mənim xəyalımdakı Alman Nizamının möhkəm qalasında yetişən gənclər elə olmalılar ki, önlərində dünya titrəməli. Mən ZALIM, HÖKM EDƏN, QORXUSUZ, VƏHŞİ BİR GƏNCLİK istəyirəm. Belə olmaq lazımdır. Bu insana çətin gələ bilər. Amma bu mövzuda zəiflik və ya acizlik göstərilməməlidir. İnsanın gözündə o MÜKƏMMƏL BAŞIBOŞ VƏHŞİ HEYVAN BAXIŞI təkrar parlamalıdır... Məhz mən minlərlə ildir davam edən insanın əhilləşdirmə müddətini bu şəkildə yox edəcəyəm... Beləcə, mən Yeni Nizamı quracağam..."

Faşist diktator Hitler uşaqları 8 yaşından etibarən yuxarıdakı sözlərlə öyrətdi. Şübhəsiz, bu vəhşi düşüncələrlə istiqamətləndirilən, beyinləri yuyulan gənclər üçün təcavüzkarlıq, öldürmə, yaralama, işgəncə vermə, zülm etmə xaricində bir seçim yox idi.

Dünya insanları bu təhlükəyə qarşı oyaq olmalıdır! Çünki aradan 70 il keçsə də bu sayıqlamalar hələ sona çatmamışdır. Bu gün dünyada Hitler, Mussolini, Franko kimi faşist liderlər yoxdur, ancaq onların yolu ilə gedən neo-nazılar, dazlar hələ darvinist yalanlarla öyrədilir. Onlar da 70 il əvvəlki yaşıdları kimi qarışıqlıq, anarxiya, zülm, xaos dolu bir həyata sürüklənir.

Yer üzündəki bu bəlaları dayandırmaq darvinizmin fikirlə çökdürülməsi ilə mümkündür. Bu şanlı vəzifəni Quran əxlaqının gərəyi olaraq bütün insanları "barış yurdu"na çağıran TÜRK MİLLƏTİ yerinə yetirməkdədir.

## DARVİNİST-FAŞİST TƏHSİL MİLLƏTLƏRƏ DAĞINTI GƏTİRİR

Faşist Mussolini dövründə gənclər "Tək həll gücdür", "İnan! İtaət et! DÖYÜŞ!" şüarlarıyla yetişdirildilər və gözünü qırpmadan adam öldürə bilən, insanlıqdan çıxmış varlıqlar halına düşdülər. Bu gün də darvinist-materialist təhsildə gənclərə "güclü olan yaşayar, zəif olan ələnər" məntiqi öyrədilir. Bu böyük təhlükəyə qarşı oyaq olmaq insanlığın gələcəyi baxımından son dərəcə əhəmiyyətlidir.

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi, 27)**

## MUSSOLİNİNİN ƏZMKARI DARVİNİZM İDİ!

Benito Mussolini İkinci Dünya müharibəsində dünyanı qana bulayan mərhəmətsiz faşist liderlərdən biri idi. Digərləri kimi o da, tətbiq etdiyi

qırğınları, törətdikləri cinayətləri, döyüş və təcavüzkarlığı müdafiə edən fikirlərini qanuni göstərə bilmək üçün DARVİNİZMDƏN dəstək aldı.

Bu həqiqətlər bu günə qədər həmişə gizli qaldı. Dünya Mussolini, Hitler, Stalin, Lenin, Mao kimi insanlığa bəla, ölüm, qan, ağrılı, zülm gətirən insanları vicdanında mühakimə etdi və günahkar tapdı. Ancaq pərdə arxasındakı əsl günahkar heç vaxt gündəmə gətirilmədi. Artıq bu gün bütün bu qırğınların, cinayətlərin, mərhəmətsizliklərin gerçək baisi olan darvinizmin "günahsız və elmi" maskası enməkdə, əsl üzü ortaya çıxmaqdadır. Bəsirət və fəzilət sahibi türk milləti elm, mədəniyyət, elm və əxlaq yoluyla bütün insanlığı darvinizmin qaranlıq üzünün göstərdiklərindən qurtarmağa iddialıdır.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN AĞRILI STATİSTİKASI

Cəmi ölü sayı: Təxminən 50 milyon ölü

Sovet İttifaqı əhalisinin yüzdə 10-nu itirdi

Polşa əhalisinin yüzdə 19,7-ni itirdi

Yuqoslaviya əhalisinin yüzdə 10,6-nı itirdi

Almaniya əhalisinin yüzdə 6-nı itirdi

Yunanıstan əhalisinin yüzdə 8-ni itirdi

İngiltərə əhalisinin yüzdə 1-ni itirdi

Çində 8 milyon adam öldü

Yaponiyada 2 milyon adam öldü və digərləri...

## FAŞİZMİN QAYNAĞININ DARVİNİST TƏLİMLƏR OLDUĞUNU BİLİRDİNİZMİ?

Qanlı diktatorlardan Mussolini qatı və mərhəmətsiz idi. Çünki tarixdəki itələyici gücün şiddət olduğuna və döyüşün inqilab gətirəcəyinə inanırdı.

Mussolinin bu azğın inancının təməli DARVİNİZMDİR.

Hitler illərcə bütün Avropaya dəhşət və qorxu saldı. Çünki insanların yarı inkişaf etmiş bir heyvan növü olduğunu düşünür və aşağı irqlərin yox edilmələri lazım olduğuna inanırdı.

Hitlerin qırğınlarının səbəbi DARVİNİZMDİR.

İspaniyanı qan gölünə çevirən Franko faşist zalım idi. Zəif insanları təzyiq, şiddət və əziyyətlə məhv etdi. O da insanı inkişaf etmiş bir heyvan olaraq düşünür və gücün zülm və şiddətdə olduğuna inanırdı.

Frankonun sayıqlamalarının təməli də DARVİNİZMDİR.

Mussolini Hitler və Franko zülm və dəhşət qaynağı idilər. Onlar öldü, ancaq təlimləri bu günki dazları, holiganları, neo-nazıları doğurdu. İnsanlar hələ faşizmin gətirdiyi təcavüzkarlığın, vəhşiliyin və mərhəmətsizliyin qaranlıq dəhşətini yaşamağa davam edirlər.

Dünyanı sıxıb qovuran faşist zülmə "dayan" deməyin tək yolu Quran əxlaqının yayılmasıdır. Və bu tarixi vəzifəsi yerinə yetirən, şanlı tarixi və yüksək əxlaqı ilə Türk millətidir.

## FAŞİST LİDER FRANKO YENİ ÇIXARILAN SİLAHLARI MÜDAFİƏSİZ İNSANLAR ÜZƏRİNDƏ TƏCRÜBƏDƏN KEÇİRİRDİ!

XX əsri qan gölünə çevirən faşist zalımlardan biri Franko idi. Franko İspaniyanı çox böyük bir vətəndaş müharibəsinə sürüdü. Qardaşı qardaşa, atanı oğula qarşı vuruşdurdu. Bu vətəndaş müharibəsi boyunca gündə təqribən 500 adam həlak oldu. Şiddət hadisələrinin, vəhşi qırğınların, toplu işgəncələrin və insanlıqdan kənar cinayətlərin ardı-arası kəsilmədi. Vətəndaş müharibəsidə təxminən 800 min insan, edamlarla isə 200 min insan Frankonun təlimatlarıyla öldürüldü.

Frankoya ən böyük dəstək isə Hitler və Mussolinidən gəlirdi. Franko onlarla insanlıq tarixinin ən zalım və ən mərhəmətsiz razılaşmalarından

birinə qol qoymuşdu: Nazılara yeni silahlarını sınaqları üçün Guernika kimi bəzi qəsəbələri hədiyyə etmişdi! Nazı texnologiyasının yeni bombaları bu kiçik qəsəbələr üzərində sınandı.

Minlərlə insanı yalnız silahlarının gücünü sınamaq üçün ölümlə üzbəüz qoyan minlərlə insanın şikəst olmasına, yaralanmasına səbəb olan bu anlayış indiki vaxtda da fərqli şəkillərdə davam etməkdədir. Bu gün də faşist tətbiqlər üzündən insanlar ölür, irqçi hücumlara məruz qalır və insanlıqdan uzaq bir həyat sürdürmək məcburiyyətində qalırlar. İnsanların bir heyvan növü olduğunu və irəliləmək üçün döyüşmək lazım olduğunu iddia edən darvinist-faşist fəlsəfə zalım rəhbərliklərin tək dayağı olmuşdur. Bu fəlsəfə dəstəkləndiyi müddət ərzindı oxşar zülmlər də davam edəcək.

Bu zülmü dayandıracaq darvinist-faşist zülmün önünə keçə biləcək iman və vicdan sahibi, cəsur və qərarlı bir millətdir. Bu gün yer üzündə bu xüsusiyyətləriylə dünyaya nümunə olan türk millətidir.

## FAŞİST ZALIMLIQLARDAN DÜNYANI QURTARMAQ ÜÇÜN DARVİNİZMLƏ ELMİ MÜBARİZƏ ƏSASDIR

Darvinizmin gücləndirdiyi zərərli ideologiyalardan biri də faşizmdir. Darvinin nəzəriyyəsi olan "həyat mübarizəsində zəif olanlarınələnməsi, ən uyğun olanların həyatda qalması" faşistlər tərəfindən elmi bir gerçək olaraq qəbul edilmiş və əsas tutulmuşdur. Beləcə faşizmin zalım məntiq və tətbiqləri sözdə bir hökumət qazanmışdır.

Faşist ruha sahib insanlar qan tökməkdən, döyüşməkdən, döyüşdən, rəqabətdən, kobud qüvvətdən xoşlanarlar. Hitler, Mussolini, Franko və digər faşist liderlərin tarixləri araşdırıldığında törədilən soyqırımların, edilən qanlı vətəndaş müharibələrinin, xalqlara verilən işgəncələrin təməlində həmişə eyni faşist məntiqlə qarşılaşırıq.

Son günlərdə Fələstində meydana gələn qanlı hadisələrin təməlində də eyni faşist ruh yatmaqdadır. Tanklarla vətəndaş xalqın üzərinə getməyin, ibadət yerlərinə giriş qadağanı qoymağın, 11-12 yaşlarındakı müdafiəsiz uşaqları səbəbsiz yerə öldürməyin başqa bir şərhi ola bilməz.

Buna görə bütün bu edilən zalımlıqlarla mübarizə aparmağın yolu əvvəlcə darvinizmlə mübarizədən keçir. Əgər bunları normal qarşılayan, həyatın təbii bir axını olaraq görən fəlsəfələrə zəmin hazırlayan darvinizm fikri ortadan qalxmasa, insanlıq döyüşdən, terrordan, soyqırımdan xilas ola bilməz. Ancaq dünya millətləri bu gün bu bəlalardan xilas olma ərəfəsindədir. Vicdanlı türk milləti darvinizmlə elmi mübarizəni müvəffəqiyyətlə aparır.

## FAŞİSTLƏRİN İKİÜZLÜ DİNDARLIĞI

Faşizm Darvinin təkamül nəzəriyyəsinə əsaslanan, dinə şiddətlə düşmən, dinin öyrətdiyi bütün əxlaqi dəyərləri ortadan qaldırmağı hədəfləyən bir ideologiyadır. Din insana şəfqəti, mərhəməti, fədakarlığı, təvazönü, bağışlamağı, qənaətkarlığı öyrədirkən faşizm mərhəmətsizliyi, qüruru, təcavüzkarlığı, zalımlığı, ehtirası və acgözlüyü öyrədir.

Ancaq tarix boyunca bir çox faşist bu gerçəyi gizlətməyə və özlərini dindar kimi göstərməyə çalışmışdır. Əslində, ateist olan faşist liderlər bunu açıqladıqlarında xalqdan müsbət reaksiya alacaqlarını düşündükləri üçün dindar kimi davranmışlar. Məsələn;

Faşizmin qurucusu olan Benito Mussolini iqtidara gəlməsindən əvvəlki illərdə də La Lima adlı qəzetdə "gerçək dinsiz" ləqəbi ilə din əleyhinə yazılar yazmış, ancaq iqtidara gəldiyində Vatikanın dəstəyini qazanmaq üçün dindar donuna girmişdir. Mussolininin bu siyasəti lazımınca, italyan uşaqlara "Müqəddəs Papanın şəxsində faşizmə inanıram" deyə andlar vermişdir.

Faşizmi İspaniyada hakim edən diktator Fransisko Franko "Falanj" adını verdiyi ideologiyayla, qurduğu təzyiq rejiminə dindar bir don vermişdir. Frankodan ilhamlanan Livanlı xristianlar "Falanjistler" adıyla təşkilatlanaraq 70-ci və 80-ci illərdə Orta Şərqi qan gölünə çevirmişdir.

Faşizmin XVIII əsrdəki qabaqcılı olan Napoleon Bonapartı isə əslində ateist olmasına baxmayaraq iqtidar üçün özünü dindar göstərmişdir. Belə ki, "Napaleon, iqtidardan uzaqlaşdıqca ateizmi açıq müdafiə etməkdən uzaqlaşmış, ateizmi müdafiə etməkdən uzaqlaşdıqca da iqtidara yaxınlaşdığının, artıq yerləşdiyinin fərqinə varmışdır." ((İdeoloji Kuramları, S. Özbek, səh. 43)

Dini yalnız xalqın sevgisini qazanmaq üçün bir vasitə olaraq görən, əslində faşist bir əxlaqa və darvinist dünya görüşünə sahib olan bu kəslər, hansı ölkədə yaşayırlarsa o ölkənin dinindən çıxış edirlər. Buddist bir ölkədə buddist görünüşü ilə, xristian bir ölkədə xristian görünüşü ilə, müsəlman ölkəsində müsəlman kimi ortaya çıxarlar.

Bu ikiüzlülüyü yoxlamaq üçün, Quran əxlaqını haqqıyla bilmək və ürəyə yatırmaq lazımdır.

Unutmaq olmaz ki, Avropanı yaxıb qovuran bu qanlı ideologiyalar türk milləti içində yayıla bilməmişdir.

## SOYDAŞLARIMIZA HÜCUM EDƏN NEO-NAZILAR DARVİNİST İRQÇİLİYİN TƏSİRİNDƏDİRLƏR

İndiki vaxtda başda Almaniyada olmaqla irqçi neo-nazilərin türklərə qarşı tətbiq etdikləri bütün haqsız rəftar və hərəkətlər, irqçiliyə əsaslanan türk düşmənliyindən qaynaqlanmaqdadır. Bu irqçiliyin fikri toxumlarını əkən adam isə Çarlz Darvindir. Bu səhifədəki şəkillərdə də göründüyü kimi neo-nazilər internetdəki Stormfront adlı saytlarında Darvini tərifləyən ifadələrdən istifadə edirlər. Həmçinin, Darvinin türk milləti haqqındakı yalanlarını istifadə edərək tərəfdarlarını öyrədirlər.

Darvinin qiymətli millətimizlə əlaqədar sayıqlamaları bir əsr yarım yaşanan ağrıların səbəblərindəndir. Unutmayın, millətini sevən hər türk vətəndaşının bu irqçi təhlükəyə qarşı oyaq olması şərtdir.

İrqçi Stormfront səhifəsində iştirak edən Çarlz Darvini tərifləyən məqalələrə bir nümunə:

"DARVİNİ ŞƏRƏFLƏNDİRMƏK ÜÇÜN..."

Çarlz Darvinin V.Qrahama yazdığı

3 iyul 1881-ci il tarixli məktubdan:

"... Düşünün ki, bir neçə əsr əvvəl Avropa TÜRKLƏR tərəfindən işğal edildiyində, Avropa millətləri nə qədər böyük təhlükə altında qalmışdı, amma artıq bu gün Avropanın TÜRKLƏR tərəfindən işğalı bizə nə qədər gülünc gəlir. Avropa irqləri kimi tanınan mədəni irqlər, həyat mübarizəsində TÜRK BARBARLIĞINA qarşı qalib gəlmişlər. Dünyanın çox da uzaq olmayan bir gələcəyinə baxdığımda, BU CÜR AŞAĞI İRQLƏRİN çoxunun mədəniləşmiş YÜKSƏK İRQLƏR TƏRƏFİNDƏN YOX EDİLƏCƏYİNİ GÖRÜRƏM."

## ƏVVƏL GİCİTKƏN OTUNU TORPAĞA AT, SULA VƏ GÜBRƏYLƏ BÖYÜT, SONRA "NİYƏ GİCİTKƏN OLDUN?" Kİ... MƏHZ BU DARVİNİSTLƏRİN MƏNTİQ POZĞUNLUĞUNA BİR NÜMUNƏDİR!

Dünyanın bir çox ölkəsi darvinizmi və ondan inkişaf edən materializmi rəsmi təhsil olaraq qüvvədə tutur. Bu ölkələrdə insanlara həyatın şiddətə əsaslanan bir mübarizə sahəsi olduğu, güclü olanın sağ qalacağı və insanın yalnız özünə qarşı məsul olacağı öyrədilir. Bu təhsilə görə məktəblər sanki kommunist və faşist çıxaran fabriklər kimi çalışmaqdadır. İnsan sevgisindən uzaq, zalım, təcavüzkar, azğın, gözü dönmüş, mənfəətpərəst nəsillər yetişdirən bu ölkələrin öz vətəndaşları ilə başları bəlaya girmişdir. Bunun ən açıq nümunəsi darvinizmin ana vətəni İngiltərədir. Holiganlar, faşistlər, kommunistlər, terroristlər ölkəni cəhənnəmə çevirməkdə, idarəçilər də bunun haradan qaynaqlandığını çox yaxşı bildikləri halda sistemi düzəltməyə gücləri yetmir.

Bu ölkələr unutmamalıdırlar ki, gicitkən otlarını biçməklə gicitkənlər tükənməz. Biçilən yerlərdən daha gur və çox budaqlı olaraq inkişaf edər. Həll, gicitkənin kökünü yox etməkdir. Darvinizmdən inkişaf edən materializmin iki məhsulu olan kommunizm və faşizm də ancaq fikri mübarizə ilə yox olar. Ən vacib məsələ darvinist düşüncənin kökündən qoparılıb, bütün həyat damarlarının kəsilməsidir.

Dünya cəmiyyətlərini bu böyük bataqlıqdan çıxarmağa namizəd olan millət türk millətidir. Vicdan sahibi türk milləti başlatdığı böyük ictimai hücumla, bütün dünyadasülhü, dincliyi və gözəlliyi hakim edəcək.

## DARVİNİZMİN YETİŞDİRDİYİ CİNAYƏT MAŞINLARI

Darvinin azğın nəzəriyyəsini yaymaqda ən əhəmiyyətli üsul "gizli və bilvasitə təlqinlərlə insanları bir darvinist kimi yaşayan və düşünən hala salmaq"dır.

Darvinizmin insana verdiyi ən əhəmiyyətli təlqin isə, "kimsəyə qarşı məsul deyilsən, həyatını bir Yaradana deyil, əksinə təsadüflərə borclusan, yaşamaq üçün lazım olsa digərlərini əzməyin lazımdır, bu dünya qarşıdurma və mənfəət dünyasıdır" yalanlarıdır.

Bu anlayışla yetişdirilən insanlar zamanla heç bir mənəvi dəyərə sahib olmayan, vicdandan məhrum, şüursuz, cinayət törətməyə hazır robotlar halına düşürlər. Bu gün bunun ən dəhşətli nümunəsi İngiltərədə nəzərə çarpır, darvinizmi insanlığın başına bəla edən İngiltərə, etdiyi səhvin əvəzini artıqlamasıyla ödəyir.

Dazların, qoçuların, küçə qruplaşmalarının və cinayət təşkilatlarının göstərdiyi zülm və vəhşilik başda İngiltərə olmaqla bütün Avropaya dəhşət axmağa davam edir. Darvinist fəlsəfəylə yetişdirdikləri bu cinayət maşınları, nəticədə Qərb dövlətlərinin başına bəla olmuşdur.

Bu vəziyyətdən xilas olmağın tək yolu Avropanın etdiyi kimi yaxşı işləyən hüquq sistemləri və mükəmməl həbsxanalar qurmaq deyil, əksinə insanları bir heyvandan fərqsiz görən darvinist təhsili ortadan qaldırmaqdır.

Uca türk milləti Qərb ölkələrinin düşdüyü bu qorxunc səhvə yol verməmiş, gəncliyini darvinizmin pəncəsinə buraxmamışdır. Hər dövrdə vətəninə və millətinə bağlı, mənəvi dəyərlərinə sahib çıxan və bunları hər şeyin üstündə tutan vətən övladları yetişdirmişdir. Müsəlman türk milləti bütün bu üstün xüsusiyyətləriylə Avropaya və dünyaya öndər olacaq.

## FAŞİZM KOMMUNİZMƏ QARŞIDIRMI?

İdarə olunan müxalifət bir gücün idarə edə biləcəyi bir meydana gəlməsini öz əlləriylə qurub, düşməniymiş kimi cəmiyyətə təqdim etməsidir.

Əslində, o da eyni məqsədə xidmət edən bir qoldur, yalnız rəngi dəyişikdir. Əsl təhlükəli olan da bu cür quruluşdur, çünki gerçək mahiyyətini gizlətmişdir.

İllərcə faşizmin qarşısındakı güc kommunizm kimi göstərilmişdir. Halbuki, hər ikisi də darvinizmdən qaynaqlanan iki materialist axındır. Və həqiqətdə bir-birlərinin idarə olunan müxalifəti olan bu ideologiyaları böyüdənlərin məqsədi, insanlığı xaos və böhranlara soxaraq, anarxiya və terrorla istəklərinə boyun əydirməkdir.

Darvinist-materialist fikir sistemləri bu məqsədinə bir çox ölkədə çatmışsa da türk millətinin yüksək səciyyəsi bunun öz cəmiyyətində meydana gəlməsinə icazə verməyəcək. Müsəlman türk milləti gücünü darvinizmdən alan bu ideologiyaların arxasındakı qaranlıq məqsədi görür. Elmi olaraq çökdürülən darvinizmin səssizliyə basdırılmasıyla bu ideologiyaların da tarixə qarışacağını bilir.

## FAŞİZM KOMMUNİZMİ, KOMMUNİZM FAŞİZMİ YÜKSƏLDİR

On illərdir insanlıq üzərində qanlı və təhlükəli bir oyun oynanır. Darvinizmin "güclü olan yaşayar", "insan inkişaf etmiş bir heyvandır, yaradılmamış və təsadüfən inkişaf etmişdir", "həyat bir mübarizə və döyüş arenasıdır" şüarları ilə yetişdirilən gənclər ya kommunist ya da faşist olurlar. Bir-birinə öldürənə kin və nifrət bəslməmələri peyvənd edilən bu insanlar sanki bir yelləncəyin iki ucuna yerləşdirilmiş kimidirlər; yelləncəyin bir ucunda kommunistlər, digər ucunda isə faşistlər oturur. Biri yüksələrkən digərini əzib aşağı endirir. Yelləncəyin iki ucunu dəstəkləyən güc isə tam orta nöqtədə dayanan darvinizmdir.

Bu iki təhlükəli ideologiyanı yerlə yeksan etməyin tək yolu isə ortalarında dayanıb onlara dəstək təmin edən darvinizmin fikirlə çökdürülməsidir.

Bunun yolu doğru və yaxşı təhsildir. Darvinizmin mərhəmətsiz meşə qanunlarına görə deyil də, Quranda göstərilən üstün əxlaqa görə yetişdirilən gənclər, dünyada sülhün, hüzurun və rifahın təsis edilməsinə əhəmiyyətli

olaraq iştirak edəcəklər. Yeddi dünyaya nizam verən üstün əxlaqlı türk milləti sülh və hüzurun öndərliyini edəcək.

## XX ƏSRDƏ FAŞİST VƏ KOMMUNİST ÖLKƏLƏRİN DÜNYAYA GƏTİRDİKLƏRİ BÖYÜK DAĞINTI XXI ƏSRDƏ TÜRK MİLLƏTİ SAYƏSİNDƏ BİR-BİR ORTADAN QALXIR

Həyatın bir mübarizə yeri olduğunu, yalnız üstün və güclü olanların yaşamağa haqq qazandıqlarını, müharibələrin inkişafa səbəb olacağını, insanlar arasında bəzi irqlərin daha üstün, digərlərinin isə aşağı irq olduqlarını və bir heyvan kimi öldürülə biləcəklərini iddia edən darvinizm bu xüsusiyyətlərinə görə çox təhlükəlidir. 150 ildir insanlığa böyük bəlalar gətirmişdir.

XX əsr boyunca darvinizmdən dəstək alan faşist və kommunist ölkələrin başlatdıqları böyük toqquşmalar geridə çox acı bir görüntü buraxmışdır. Bu gün onların izi ilə gedənlər böyük vəhşiliklərə imza atmağa davam edirlər.

Yalnız son 10 il ərzində:

6 müharibə nəticəsində 3 MİLYON uşaq həyatını itirmişdir.

6 müharibə nəticəsində 16 MİLYON uşaq şikəst qalmışdır.

6 müharibə nəticəsində 10 MİLYON uşaq psixoloji zədə keçirmişdir.

Bununla yanaşı qadın, yaşlı, gənc milyonlarla adam həyatını itirmiş, şikəst qalmış, evlərindən uzaqlaşdırılmış, şəhərlər yıxılmış, iqtisadiyyat iflic olmuşdur. 1995-ci ildə dünyada 45 milyon adam mühacir olaraq və çətin şərtlərdə həyatını davam etdirərkən, bu rəqəmə son 5 ildə milyonlarla insan əlavə olunmuşdur.

Göründüyü kimi darvinizm döyüşlərlə birlikdə, böyük bəlaları da gətirmişdir.

XXI əsr isə bu ağrıların unudulduğu və barışın hakim olduğu, sevincin, hüzurun yaşandığı bir dövr olacaq. Çünki türk milləti möhkəm xarakteri, güclü və yıxılmaz inancı ilə bütün dünyanı darvinizmin bəlalarından qurtaracaq bir gücə malikdir.

## DARVİNİSTLƏRİN, DÜNYANIN BAŞINA BƏLA ETDİYİ ŞEYTANİ DÜSTUR BUDUR: "KOMMUNİZM FAŞİZMİ, FAŞİZM İSƏ KOMMUNİZMİ DOĞURAR."

Materialist təhsillə yetişənlər dünyanı mərhəmətsiz bir sistemə bağladılar. Bu kilidlənmiş sistemə görə:

*Materialist yetişən bir insan ya faşist ya kommunist olar.

*Dialektika materializmə görə tezis anti-tezisini doğurar. Buna görə, kommunizm faşizmi, faşizm kommunizmi doğurar.

Dünyanı faşist və kommunist deyə ikiyə bölən bu darvinizm dəstəkli materialist düşüncə insanları qiyamətə qədər bir-birlərini öldürməklə, qardaşı qardaşa qırdırmaqla, yandırıb yaxmaqla, şiddət hərəkətləri, mərhəmətsizlik nümayiş etdirməklə vəzifələndirmişdir. Bu zalım düsturla 100 ildə milyonlarla insan qətlə yetirilmişdir.

Türk millətі darvinistlərin və materialistlərin qiyamətə qədər davam etdirməyə qərarlı olduqları bu zülm sisteminə icazə verməyəcək, bunun əvəzinə qiyamətə qədər davam edəcək Rəhmani bir sistemin qurucusu və öndəri olacaq.

## TERRORUN İDEOLOGİYASINI FİKİRLƏ MƏĞLUB ETMƏDƏN, TERRORU DAYANDIRMAQ MÜMKÜN DEYİL

Ağcaqanadlardan xilas olmağın ən təsirli yolu, əlbəttə ki, bataqlığın kökündən qurudulmasıdır. Eyni şəkildə anarxiya və terroru yox etmək üçün də ən təsirli yol terrorun ideologiyasının fikirlə çökdürülməsidir. Dünyadakı terrorun, anarxiyanın, qarışıqlığın təməli isə materializm, kommunizm və faşizm kimi ideologiyalardır.

Bu ideologiyaların tarixi keçmişləri, müdafiə etdikləri fikirlər araşdırıldığında (bəzən bir-birlərinə qarşı görünsələr də), ortaq bir təmələ sahib olduqları görünür. Bu təməl insanı heyvan kimi göstərməyə çalışaraq,

insanlar arasında döyüşü, qarşıdurmanı, müharibələri qanuni etməyi məqsəd qoyan darvinizmdir.

Darvinizm milli və mənəvi dəyərləri yox etməyi hədəfə alan, şiddəti təşviq edən bir bəladır. Buna görə darvinizmin fikirlə çökdürülməsi, elmi, sosioloji və siyasi sahələrdəki saxtakarlıqlarının izah edilməsi son dərəcə əhəmiyyətlidir.

Türk milləti yüksək vicdanı və imanı sayəsində bu günə qədər darvinizmin oyunlarına aldanmamış yeganə millətdir. Darvinizmin dünyadakı dağıdıcı təsirini ortadan qaldırmaq isə, əlbəttə ki, şərəfli millətimizin missiyasıdır.

## YER ÜZÜNDƏ TƏXRİBATÇILIQ, ANARXİYA VƏ TERRORA MANE OLMAQ SƏMİMİ CƏHD İSTƏYİR. TÜRK MİLLƏTİ BU ƏHƏMİYYƏTLİ VƏZİFƏYƏ TALİBDİR

Dünya dövlətlərinin bir çoxu təhsil sistemlərində materializmə və darvinizmə əhəmiyyətli bir yer ayırmaqda, gənclərə bunları öyrətmək üçün milyonlarla dollar xərcləməkdədirlər. Həmçinin, ölkələrində meydana gələn terror hadisələriylə mübarizə aparmaq üçün yenə milyonlarla dollar sərf edirlər. Bu, əvvəl bir bataqlıq meydana gətirmək, daha sonra bu bataqlıqda yetişən minlərlə ağcaqanadla canları bahasına mübarizəyə girişmək kimidir... Halbuki, terrorun qarşısını almaqda səmimidirlərsə, əvvəlcə faşizmin, kommunizmin, anarşizmin və terrorun təməlini meydana gətirən, insanlığa "qarşıdurma"nı, güclülərin qalib gəldiyi bir "həyat mübarizəsi"ni haqlı göstərən materialist-darvinist təhsildən imtina etməlidirlər. Milyonlarla dolları, əvvəl materializmin və darvinizmin elmilikdən uzaq, xurafatlarla dolu, həqiqətdən kənat fikirlər olduğunu öyrətmək üçün istifadə etsələr, problem onsuz da kökündən həll olacaq. Bataqlığı qurutmağın da, hətta ilk başdan meydana gəlməsinə mane olmağın da tək yolu, zalım ideologiyaların qaynağı olan darvinizmlə fikri sahədə aparılacaq mübarizədir.

Allah dünyanı yaratmış, insanları dünyaya yerləşdirmiş və burada necə bir həyat sürmələri lazım olduğunu da Quranla bildirmişdir. Əgər insanlar dünyada Allahın əmr etdiyi kimi yaşamayıb, İslam əxlaqından üz çevirsələr bu vəziyyətdə qarşılaşdıqları bəlalardan xilas olmaları mümkün olmaz.

Cəmiyyətlər dini dəyərlərdən, əxlaqi üstünlüklərdən uzaqlaşdıqca bu həqiqət hər gün daha sıx-sıx yaşanmaqdadır. Unutmaq olmaz ki, bütün bunlar Allahın əmr etdiyi əxlaqdan uzaqlaşan insanların öz əlləriylə etdiklərinə görə başlarına gəlir.

Bir qurtuluş vardır: Qanlı ideologiyaların və inkarçı düşüncənin mənşəyi olan darvinizmin elmi çöküşünü bütün dünyaya eşitdirmək və Allahın əmr etdiyi gözəl əxlaqı yaşamağa və yaşatmağa çalışmaq...

## YAXIN DÜNYA TARİXİ QİYAMLARIN, DÖYÜŞLƏRİN, QAN, ZÜLM VƏ GÖZYAŞININ TARİXİDİR. BÜTÜN BUNLARIN ARXASINDA İSƏ DARVİNİN MƏNASIZ, DONUQ BAXIŞLARINI ƏKS ETDİRƏN ŞƏKLİNİ GÖRÜRÜK

Materialist cəmiyyətlərdə insanlara uşaq yaşda materializm və darvinizm öyrədilməyə başlanır. Bu yanlış təhsil uşaq üçün acı və zülmlə nəticələnəcək səfərin başlanğıcıdır. Lisey və universitet illərinə gəlindiyində isə gənclərə insanın inkişaf etmiş bir heyvan cinsi olduğu, cəmiyyətlər arasında meşə qanunlarının etibarlı olduğu, güclü olanların həmişə haqlı da olsa zəifləri əzəcəyi, həyatın bir "həyat mübarizəsi" olduğu daha yaxşı mənimsədilir. Bu darvinist təhsillə yetişən gənclər öyrəndikləri həyat modelinin uyğun olanını tətbiq edərlər. Çünki bu insanlar həbsxanaların, qarşıdurmaların, anarxiyanın, terrorun, döyüşlərin, qiyamların, qarışıqlığın, zülmün, vəhşiliyin, mərhəmətsizliyin, məzlumları əzməyin həyatın adi və qaçılmaz həqiqətləri olduğu şəklində təlqinə məruz qalmışlar. Halbuki, insanlar arasında təbii və sağlam olan, barışın, hüzurun, təhlükəsizliyin, qardaşlığın, dostluğun, səmimiyyətin, xoşgörüşün, mehribanlığın, şəfqətin, anlayışın, hörmətin hakim olduğu mühitlərdir.

Materialist-darvinist təhsil xaos və qarışıqlıq meydana gətirir. Həll Quran əxlaqının yayılmasıdır. Bu bəlaları yer üzündən silmək üçün hər vicdan sahibi insan kimi sizin də məsuliyyətlərinizin olduğunu unutmayın.

## DARVİNİSTLƏRİN HƏDƏFƏ ALDIĞI CƏMİYYƏT

Darvinistlər insanların heç kimə qarşı məsuliyyət daşımayan, başıboş varlıqlar olduqlarını iddia edirlər. Bu azğın düşüncəyə görə insanlar heyvanlardan təkamülləşmişlər və guya heyvan ataları kimi meşə qanunlarına görə yaşamalıdırlar. Yenə bu yalana görə, dünyada yalnız güclülər sağ qalacaq, zəiflər ələnərək yox olacaqlar.

Bu yalanlara uyğun ortaya çıxan cəmiyyət bir-birləriylə şiddətlə rəqabət aparan, vəhşi bir mübarizəni hədəfə alan, eqoist, mərhəmətsiz, gözəlliklərdən zövq almayan insanlardan meydana gələcək.

## TÜRK MİLLƏTİNİN ALLAHIN İCAZƏSİYLƏ MEYDANA GƏTİRDİYİ CƏMİYYƏT

Güclü bir imana sahib türk milləti isə, insanları bir heyvan kimi görən darvinist düşüncənin təhlükələrinin fərqindədir. Buna görə də vəhşiliyin, şiddətin, hər cür bəlanın arxasında dayanan bu fəlsəfəyə qarşı böyük fikri mübarizə başlatmışdır.

XX əsrdə elm qarşısında məğlub olan təkamül nəzəriyyəsi türk millətinin səyləri nəticəsində XXI əsrdə tarixin səhifələrindəki yerini alacaq. Beləcə, türk millətinin hədəfi reallaşacaq, bütün dünyada sevgi, dostluq, hüzur, güvən, sülh və sevinc hakim olacaq.

## İLLƏRCƏ DARVİNİST-MATERİALİST FƏLSƏFƏ İLƏ İDARƏ OLUNAN RUS MİLLƏTİNİN SONU BÜTÜN DÜNYAYA İBRƏT OLMALIDIR

Rusiyada bu gün hər cür bəla, dərd, fəlakət və çətinlik yaşanır. Xalq ac və işsizdir, insanlar vərəmləmiş, AIDS kimi epidemiya xəstəliklərindən ölürlər, gənclər narkotik bataqlığına batmış vəziyyətdədir, əxlaqi degenerasiya davam edir.

Rusiyada yaşananlar darvinist-materialist-kommunist ideologiyaların böyük bir ölkənin xalqını nə hala saldığının ibrətamiz görüntüsüdür. On illərdir mənəvi dəyərlərdən məhrum, Allahın varlığını inkar edən, insanları heyvan kimi, həyatı isə heyvanların həyatda qalma mübarizəsi kimi görən fəlsəfələrlə yetişdirilən rus milləti böyük bir çöküşün bir addımlığındadır.

Bu çöküşə isə Putin kimi kommunistdən dönmə faşistlərin mane ola bilməyəcəyi aydındır.

Həll: Darvinist-materialist fəlsəfənin rədd edilməsi və Quran əxlaqının qəbuludur.

İnsanları Allahın yaratdığı ruh sahibi varlıqlar olaraq tanıdan, insanlar arasında fədakarlığı, mərhəməti, şəfqəti, həmrəyliyi əsas sayan Quran əxlaqı yalnız rus xalqının deyil, bütün dünyanın qurtuluşu və rifahı üçün tək çıxış yoludur.

Türk milləti ağılı və vicdanı ilə tarix boyunca yanındakı darvinist-kommunist təhlükədən qorunmağı bacarmışdır. Bütün dünyanı bu təhlükəyə qarşı xəbərdar edən də yenə türk millətidir.

## SATANİSTLƏRİN FİKRİ DAYAĞI DARVİNİZMDİR

XX əsrdə nə qədər azğın ideologiya, fikir axını və inanc varsa, hamısı iddialarını və dünyagörüşlərini darvinizmə bağladılar. Hitlerdən Stalinə, Mussolinidən satanistlərə qədər hamısı Darvinin fikirlərini mənimsədilər...

Satanist kilsəsinin öndərlərindən Burton H. Wolfe The Satanic Bible (Şeytanın İncili) adlı kitabın ön sözündə bunları söyləyirdi:

"Satanizm həyasızca eqoist, mərhəmətsiz bir fəlsəfədir və bu inanclar üzərində təməlləndirilmişdir: İnsanlar anadangəlmə eqoist və vəhşi varlıqlardır. Həyat ən uyğun olanların DARVİNSAYAĞI mübarizəsidir. Yalnız güclülər həyatda qalar və dünya meşə qanunlarına bağlı olaraq davamlı rəqabət içində döyüşənlər tərəfindən idarə olunacaq." (Burton H. Wolfe, The Satanic Bible Önsöz, San Francisco, 25 dekabr, 1976)

Bu kitabın yazıçısı isə kitabda "Şeytanın Doqquz Əmri"ndən dördüncüsünü belə açıqlayırdı:

"Hamımız instinktiv olaraq yırtıcı heyvanlar deyilikmi? Əgər bir-birləriylə mübarizəsinə tamamilə son verilsə, insan yaşamağa davam edə bilərmi?" (Anton Szandor LaVey, The Satanic Bible, səh. 25, 33)

XXI əsrdə bütün dünya materializm, satanizm, kommunizm, faşizm kimi darvinizmdən güc alan bütün azğın ideologiyalardan və xurafatlardan xilas olacaq. Beləcə, dünyanın heç bir yerində günahsız insanların qanları tökülməyəcək, insanlar dəhşət və qorxu yaşamayacaqlar. Bu günlər çox yaxındır. Darvinizmin bir xurafat olduğunu ən başından millətimiz yoxladıqdan sonra, qaranlıqlardan sonra nurun gəlişində bir daha liderlik edəcək.

## DARVİNİZMİN YETİŞDİRDİYİ NƏSİLLƏRİN SONU MƏNƏVİ ÖLÜMDÜR

Darvinizmin azğın inancına görə insan:

Təsadüflərin, xaosun və cansız maddələrin bir məhsuludur...

Buna görə heç kimə qarşı məsuliyyəti yoxdur...

Yaranışında bir məqsəd də yoxdur, başıboşdur...

Üstəlik, hələ inkişafı davam edən, heyvanlardan bir az çox inkişaf etmiş bir canlı növüdür... Həyatdakı tək məqsədi qarnını doyurmaq, çoxalaraq genlərini bir sonrakı nəsilə köçürmək, əzilmədən həyatda qalmağa çalışmaq və bunlar üçün mübarizə aparmaqdır.

Darvinizmin bu tərifinə görə yetişdirilən insanlar dinsiz, inancsız, mənəvi dəyərlərdən tamamilə qopmuş, sevgi, hörmət, fədakarlıq, vəfa, şəfqət kimi gözəlliklərdən məhrum, mərhəmətsiz, eqoist, asanca adam öldürə bilən, mənfəətçi, sənət, estetik kimi insan ruhuna xoş gələn gözəlliklərdən zövq ala bilməyən cəmiyyətlər meydana gətirmişlər. Buna görə bu insanların üzlərində donuq, mənasız, insaniyyətsiz, pessimist və qaranlıq ifadələr vardır.

Məhz bu xüsusiyyətlər bu cəmiyyətlərin mənəvi ölümlərinin cədvəlidir.

Cəmiyyətlərə gözəl əxlaqın, sülh və sağlamlığın, sənət və estetikanın, hüzurun və güvənin hakim olması üçün, insanları mənəvi ölümə sürüyən darvinist-materialist təhsilin aradan qaldırılması, gənclərə elmi gerçəklərin

izah edilməsi şərtdir. Türk milləti sahib olduğu yüksək mənəvi dəyərlər ilə bu cəmiyyətlərin düşdüyü vəziyyətə düşməmişdir və onları qurtaracaq mənəvi gücə malikdir.

## NEO-NAZILAR DARVİNİST BATAQLIĞIN BİR MƏHSULUDURLAR

Kommunist və faşist rəhbərliklər keçdiyimiz əsri qana və ağrıya boğdular. Bu iki ideologiyanın təhsilindən keçən gənclər isə liderlərinin izi ilə gedir və eyni qanlı tarixi yaşadığımız əsr boyunca da yazmaq istəyirlər. Dünyanın dörd bir tərəfindəki kommunist və faşist təşkilatlanmalarla, müxtəlif təbliğat üsullarıyla tərəfdar saylarını artırmağı və cəmiyyət üzərindəki təsir sahələrini genişlətməyi hədəfə alırlar. İstifadə etdikləri üsulların başında isə qorxu, qorxutma və terror gəlir. Tətbiq etdikləri vəhşilik ilə insanlar üzərində qorxu meydana gətirib, bu şəkildə onları özlərinə dəstəkləyən hala gətirmək istəyirlər.

Bu hadisələrdən biri keçdiyimiz aylarda Almaniyada ortaya çıxan bir vəhşilikdir! İnsanları inkişaf etmiş heyvan növü olaraq göstərən və şiddəti qanuniləşdirməyə çalışan darvinist təhsilin məhsulu olan neo-nazılar sinir dərmanı ilə bayıltdıqları altı yaşındakı bir uşağı, əvvəlcə öldürmüş, daha sonra da iç orqanlarını oğurlamışlar. Bu, neo-nazıların etdikləri nə ilk hərəkət olmuşdur, nə də son hərəkət olacaq. Ancaq əhəmiyyətli olan bu gəncləri dedektiv tədbirlərlə dayandırmağa çalışmaq deyil, çıxdıqları bataqlığı bütünlüklə qurutmaqdır. Bu bataqlıq darvinist-materialist təhsildir.

Vicdanlı türk milləti bütün insanlığa çox böyük bəlalar gətirən bu kommunist və faşist təşkilatlanmaların XXI əsr üçün qurduqları planların fərqinə varmış və böyük bir mədəniyyət sıçrayışı ilə bu bəlanı ortadan qaldırmağa qərar vermişdir.

## DARVİNİZM ZƏİFLƏRİN, GÜCSÜZLƏRİN, MÖHTACLARIN ƏZİLƏRƏK YOX EDİLMƏLƏRİNİ ƏMR EDİR

Darvinizmə görə bir cəmiyyətdəki zəif, gücsüz, kasıb və ya üzrlü fərdlər, o cəmiyyətin inkişafına maneə törədən və mütləq yox edilməli ünsürlərdir. İndiki vaxtda, yoxsullara, ac insanlara və ya ehtiyac içində olanlara əl uzadılmamasının, böyük bir ölkənin aclığa və səfalətə salınmasının, yetimlərin, kimsəsizlərin, yaşlıların qorunub saxlanılmamalarının ardında darvinizmin bu zalım iddiası iştirak edir.

Darvinizmin dünyada açdığı yaraların tamamilə sağalması, yetimlərə, yaşlılara, uşaqlara, möhtacı olan bütün insanlara şəfqətlə, mərhəmət və sevgi ilə əl uzadıla bilməsi üçün tək həll darvinist əxlaq yerinə dünyada Quran əxlaqının hakim olmasıdır.

Türk İslam əxlaqı ilə yetişmiş türk milləti, vicdanı və sağlam fikri ilə dünyanı darvinizmin gətirdiyi bəlalardan qurtaracaq, dünyaya hüzur və təhlükəsizlik gətirəcək.

## OLİMPİADA MƏŞƏLİNİ YANDIRAN ABORJİN ATLETİN HEKAYƏSİ: KATİ FRİMANİN ATALARINI DARVİNSTLƏR QƏTLƏ YETİRDİ!

Darvinizm son 150 il ərzində dünyada reallaşan bir çox zülm və qırğının səbəbi oldu. XIX əsrdə dünyanı müstəmləkəyə çevirən Avropalı güclər Asiyalı və ya Afrikalı insanları Darvinin nəzəriyyəsinə görə "primitiv irq" elan etdilər. "İctimai Darvinizm" adını verdikləri bu sözdə elmi axmaqlıq uğruna, qanlı qırğınlara giriş idilər və milyonlarla günahsız insanı gözlərini qırpmadan öldürdülər.

Bu vəhşiliklərin bir nümunəs(n)i, Avstraliya qitəsinin yerli xalqı olan Aborjinlere qarşı tətbiq olundu. Olimpiada məşəlini yaxan Dünya çempionu atlet Cathy Freemanın xalqı, Darvinist elm adamları tərəfindən "yarı heyvan primitiv canlılar" olaraq təyin olundu.

Darvinistlər Aborjin kəllələri Avropa muzeylərində "meymundan insana keçiş forması" olaraq sərgilədilər. Minlərlə Aborjin, kəllə tacirləri tərəfindən

öldürüldü və kəllələr Avropa muzeylərinə satıldı. 21. əsrdə Avstraliya hökumətinin, etdiyi böyük zülm səbəbindən Aborjinlerden RƏSMİ OLARAQ üzr istəməsi gündəmə gəldi.

Əgər dünya çempionu Cathy Freeman bundan 150 il əvvəl doğulsaydı, ehtimalla ya özünü aşağı irq olaraq görən Avropalılar tərəfindən bir heyvan kimi qətl ediləcək, ya da kəllə tacirləri tərəfindən öldürülərək kəllə sərgilənmək üzrə Avropaya satılacaqdı.

Darvinizm və materialist fəlsəfə 150 ildir dünya üzərində buna bənzər saysız vəhşiliyə səbəb oldu. İndi də Darvinizmdən dəstək alan qaranlıq ideologiyalar insanlara zülm etməyə davam edirlər.

## DARVİNİST ELM ADAMLARI GÜNAHSIZ İNSANLARI HİND DONUZU KİMİ İSTİFADƏ EDİRLƏR

Çarlz Darvinin insanın təkamülləşmiş bir heyvan növü olduğu iddiası ictimai həyatda çox dərin izlər buraxdı. Çünki bu düşüncəyə görə fərqli irqlər, xəstələr, zəiflər, kasıblar, üzrlülər təkamülləşmə müddətini tamamlamamış aşağı növ sayılırdı. Təkamülçü elm adamları əsrlər boyunca aşağı irq olaraq xarakterizə etdikləri yerli qəbilələri vəhşicəsinə qətlə yetirdilər, üzərlərində təcrübələr apardılar, bir heyvan kimi nümayiş etdirdilər. Müasir təkamülçü elm adamları da atalarının izilə gedirlər və günahsız insanları elmi məqsədli işlərində təcrübə vasitəsi olaraq istifadə edirlər.

Geridə qoyduğumuz həftələrdə qəzetlərdə, Afrika, Şərqi Avropa, Asiya və Cənub Amerika ölkələrinin vətəndaşları üzərində aparılan təcrübələrin ölümcül nəticələr verdiyi barədə xəbər yayıldı. Bu xəbər menengit epidemiyasından yüzlərlə insanın öldüyü Nigeriyadakı bir düşərgədə bəzi xarici həkimlərin bahalı dərmanları pulsuz paylamaları ilə əlaqədar idi. Ancaq bu dərmanları ehtiyac içindəki insanlara kömək etmək üçün vermirdilər. Məqsədləri hələ satış lisenziyası ala bilmədikləri antibiotikləri bu xəstə və çarəsiz insanlar üzərində sınamaq idi.

Məhz bu kimi mərhəmətsiz tətbiqlər materialist və darvinist təhsil alan insanların həqiqi üzünü göstərməkdir. Bu insanların müdafiəsiz və çarəsiz

insanlara belə mərhəmətsiz şəkildə davranarkən güc aldıqları guya əsas təkamül nəzəriyyəsidir.

## TƏKAMÜLÇÜLƏRİN İNSANLIQDAN KƏNAR TƏTBİQLƏRİ

Darvinizmin heç bir elmi dayağı olmayan bir aldatmaca olduğu geridə qoyduğumuz əsrdə sübut edildi. Darvinistlərin təkamülün dəlili olaraq qarşıya qoyduqları iddiaların isə ya bir aldatmaca ya da bir saxtakarlıq məhsulu olduğu ortaya çıxdı.

Ancaq nəzəriyyələrinin çöküşünü həzm edə bilməyən bəzi darvinistlər hələ təkamül nəzəriyyəsini yaşatmağa səy edirlər.

Necə ki, qarşıdakı günlərdə Amerikada nəşr olunacaq kitab məşhur bir darvinistin təkamül nəzəriyyəsinə görə etdiyi saxtakarlığı da ortaya çıxarır.

Kitabda Yanomami yerliləri üzərində apardığı araşdırmalarla tanınan darvinist Çaqnonun təkamül nəzəriyyəsinə dayaq təmin etmək üçün insanlıqdan kənar bir üsuldan istifadə etdiyindən bəhs edilir. Çaqnon Cənubi Amerika yerlilərinin vəhşi meyilləri olduğu iddiasına saxta dəlillər gətirmək üçün yerlilər arasında vəhşi mühitlər meydana gətirmək üçün mükafatlar vəd edərək döyüşlər təşkil etmişdir. Hətta bu mövzuda kitablar yazmışdır. Kaliforniya Universitetində antropologiya sahəsində vəzifə tutan Çaqnonun saxta məlumatlarla dolu bu kitabları hələ də dünyanın dörd bir tərəfində universitetlərdə dərs kitabı olaraq oxudulur.

Məhz darvinizmin insanları aldatmaq üçün istifadə etdiyi üsul budur. Əvvəl əsassız bir nəzəriyyə ortaya atmaq: daha sonra bu nəzəriyyəyə dayaq təmin edəcək saxta dəlillər uydurmaq! Ardınca da saxta nəzəriyyəni saxta dəlillərlə birləşdirib insanlara elmi bir həqiqət kimi təqdim etmək.

Darvinizmin gerçək üzünü bütün dünya öyrənir.

# III HİSSƏ:
# HƏLL YOLU QURAN ƏXLAQI

## DARVİNİZMİN İNSANLIĞA GƏTİRDİYİ BƏLALARA QARŞI HƏLL: QURAN ƏXLAQI

Allahın varlığını inkar edən, təsadüfləri ilah edən, döyüşləri, mübarizəni, eqoizmi inkişafın tək yolu olaraq göstərən darvinizm XX əsrdə insanlığa saysız pislik və bəla gətirdi. Darvinizmin açdığı yaraların tamamilə yaxşılaşdırılmasının tək yolu Allahın insanlar üçün rəhbər olaraq endirdiyi Qurana sarılmaqdır.

Quran əxlaqı XXI əsrdə bütün insanlığa gözəllik və işıqlıq gətirəcək. Vicdanlı və məsuliyyətli türk millətinin şərəfli səyi ilə, dünya darvinizmin əxlaqsızlığından xilas olacaq, Quran əxlaqının gözəlliklərini yaşayacaq.

## DARVİNİST ƏXLAQIN GƏTİRDİYİ BƏLALAR

Döyüş

Eqoistlik

Düşmənlik

Dəhşət-qorxu

Xaos-qarışıqlıq

Mərhəmətsizlik-zülm

Qıtlıq-kasıblıq

Mənfəətpərəstlik

Bədbəxtlik-pessimizm

Çirkinlik

Saxtakarlıq

Donuq və mənasız baxışlar

İnsaniyyətsizlik

## QURAN ƏXLAQININ GƏTİRDİYİ GÖZƏLLİKLƏR

Barış

Fədakarlıq

Sevgi

Güvən

Hüzur

Mərhəmət-şəfqət

Bərəkət-zənginlik

Həmrəylik

Sevinc-optimizm

Estetik

Dürüstlük

İman sevinciylə canlı baxışlar

İnsanlıq

## YAZIQ QADINLAR, UŞAQLAR, YAŞLILAR, ZÜLMƏ UĞRAYAN BÜTÜN İNSANLAR ÜÇÜN SİZ DƏ BİR ŞEY EDƏ BİLƏRSİNİZ

**XXI ƏSR ALLAHIN İCAZƏSİYLƏ İMANLI TÜRK MİLLƏTİNİN BÜTÜN BU PROBLEMLƏRİ DÜZƏLDƏCƏYİ ƏSR OLACAQ!**

Dünya ölkələrindəki müsəlmanların indi düşdükləri qarışıqlıq, ümumiyyətlə ölkələrə hakim olan sabitliksizlik, aclıq və səfalət ortadadır. Türk milləti istər irticanın pəncəsində olan, istərsə də vətəndaş müharibələrilə

boğuşan dünya müsəlmanlarını yaşadıqları çətinliklərdən qurtarma vəzifəsini boynuna götürməyə hazırdır.

**Çeçenistan**:

İllərdir günahsız və müdafiəsiz Çeçen xalqı ruslar tərəfindən qətlə yetirilir, bazarlara, xəstəxanalara bombalar yağdırılır.

**Fələstin**:

Fələstin xalqı İsrailin işğalçı siyasətinə qarşı illərdir mübarizə aparır. Çox güclü silahlara qarşı daşla, sapandla aparılan bu mübarizə hələ davam edir.

**Əl-Cəzair**:

Ölkədə get-gedə şiddətlənən vətəndaş müharibəsidə bu günə qədər bir çox günahsız insan səbəbsiz yerə həbs olundu, işgəncələr gördü, toplama düşərgələrinə bağlanıldı.

**Filipinlər**:

Filipinlərdə başa keçən hər rəhbərlik etnik soyqırım törədir. Müsəlmanlar isə ciddi müstəqillik mübarizəsi aparırlar.

**Şərqi Türkistan**:

Burada yaşayan Uyğur türkləri kommunist Çin rejiminin şiddətli təzyiqi altındadır. müsəlman xalqı yox etmək üçün toplu şəkildə sonsuzlaşdırmalar, toplu abortlar, hətta nüvə sınaqlar aparılır.

**Livan**:

İllərcə davam edən vətəndaş müharibəsi hər azlığın özünə aid kiçik bölgələrdə sıxışıb qalması ilə nəticələndi. Bu döyüş nəticəsində yüz minlərlə ölü, mühacirlər və qanlı bir tarix ortaya çıxdı.

**Çad**:

Çad dünyanın ən kasıb ölkələrindən biridir. Baş verən qarşıdurmalar ölkənin vəziyyətini getdikcə daha da çətinləşdirir.

**Abxaziya**:

Vətəndaş müharibəsi ilə yanaşı xalq rus əsgəri komandalarının işğalının səbəb olduğu çətinliklər yaşayır.

**Sudan**:

Daxili qarşıdurmalar səngimək bilmir. Üsyançılarla mübarizə aparan Sudan xalqı aclıq və səfalət içində həyatını davam etdirir.

**Kəşmir:**

Hind rəhbərliyi tərəfindən törədilən vəhşi qırğınlarda on minlərlə kəşmirli müsəlman öldürülmüş, qadınlara təcavüz edilmiş, uşaqlar qətlə yetirilmişdir.

**İndoneziya:**

Ölkədə qarşıdurmalar səngimək bilmir, təzyiq və terror sürətlə davam edir.

## YER ÜZÜNDƏ ƏDALƏTİN, SÜLHÜN VƏ QARDAŞLIĞIN TƏMİN EDİLMƏSİ ANCAQ QURAN ƏXLAQININ YAŞANMASIYLA MÜMKÜN OLACAQ

Bu gün dünyanın dörd bir tərəfindəki müsəlman ölkələri daxili qarşıdurmalarla, döyüşlərlə, azğınlıqlarla və müxtəlif çətinliklərlə mübarizə aparır. Fələstinlisindən azəri türkünə, özbəkindən çeçenə qədər bütün müsəlman xalqları sanki nəfəs almadan kömək əli gözləyirlər. Əsrlərdir İslamın bayraqdarlığını edən müsəlman türk milləti isə müasir, işıqlı və güclü quruluşuyla, mürtəcilikdən və xurafatdan uzaq xalis din anlayışıyla bütün müsəlman ölkələrin problemlərini həll edə biləcək, bu şərəfli vəzifəsini boynuna götürəcək ən uyğun quruluşa malikdir. Yer üzündə əskikliyi hiss edilən ədalətin, sülhün və qardaşlığın təmin edilməsi müsəlman türkün rahatlıqla bacara biləcəyi bir işdir. Türk millətinin İslam əxlaqıyla birləşdirdiyi iman, cəsarət, əzm, səbir, iradə kimi üstün xüsusiyyətləri dünya millətlərinə nümunə olacaq.

### ÇEÇENİSTAN

Rusiya illərdən bəri bütün dünyanın gözləri qarşısında Çeçen xalqına qarşı çox böyük bir vəhşilik törətmişdir. Yalnız son bir il içində təxminən 45 min vətəndaş və 3 min Çeçen əsgəri həyatını itirmişdir. 500 min insan

mühacir vəziyyətinə düşmüşdür və hələ də çox çətin şərtlər altında həyatını davam etdirməkdədir. Edilən məhdud köməklər isə yerinə çatmamaqda, Rus Fövqəladə Halllar Nazirliyi tərəfindən hər cür köməyə qol qoyulmaqdadır.

## FƏLƏSTİN

Yarım əsrdən çox bir müddətdir işğalçı İsrail rəhbərliyinin ağır təzyiqi altında həyatlarını davam etdirməyə çalışan Fələstin xalqı, xüsusilə də son aylarda artan şiddət hadisələrinə görə çox böyük çətinliklər altındadır. Hər gün bir neçə adam -xüsusilə də uşaqlar və gənclər- həyatını itirməkdə, insanlar bombaların altında həyatını davam etdirməyə çalışmaqdadır. İndiyə qədər 100 mindən çox adam ölmüş və 4 milyona yaxın adam mühacir vəziyyətinə düşmüşdür.

## ƏFQANİSTAN

İllərdir sürən vətəndaş müharibələrinə görə heç cür sabitlik və hüzura qovuşmamışdır. Sülhün təmin edilməsi vəziyyətində Orta Asiya ölkələri üzərində təsiri olacağı təxmin edilən Əfqanıstandakı bu daxili qarşıdurmalar xarici güclərin təsiriylə davam edir, qadağalar isə ən çox günahsız insanlara təsir edir. Bu qarşıdurmalar nəticəsində 2 milyona yaxın insan həyatını itirmişdir və təxminən 2.5 milyon insan da mühacir vəziyyətinə düşmüşdür.

## İNDONEZİYA

Dünyanın ən izdihamlı müsəlman ölkəsi olan İndoneziyada daxili qarşıdurmalar şiddətlənərək davam edir. Suharto rəhbərliyi altında çox böyük təzyiqlər görən indoneziyalı müsəlmanlardan yüz minlərləsi həyatını itirdi, minlərlə insan itkin, minlərləsi də mühacir vəziyyətdədir. Daha əvvəl islami bir rəhbərliyə sahib olan müstəqil Aça Sumatra İndoneziya hökuməti tərəfindən işğal edildiyindən bəri ölkədə hadisələr səngimir və ölüm xəbərləri gəlməyə davam edir.

## KƏŞMİR

Kəşmirdəki Hind zülmü yarım əsrə yaxındır ki, şiddətlənərək davam edir. Dünyanın ən əhəmiyyətli qızıl, zümrüd və yaqut yataqlarına sahib olan Kəşmir xalqının tək istəyi dinlərini rahatca yaşaya biləcəkləri, uşaqlarını istədikləri kimi öyrədə biləcəkləri, dinc və sülh dolu bir həyatdır. İndiyə qədər təxminən 70 min kəşmirli müsəlman həyatını itirdi, 5000-ə yaxın qadın təcavüzə uğradı və on minlərlə insan mühacir olaraq həyatını davam etdirir.

## AZƏRBAYCAN

Azərbaycan torpaqlarının 20%-i hələ də ermənilərin işğalı altındadır. Erməni gücləri tərəfindən çox böyük bir etnik soyqırıma məruz qalan ölkə xalqının, böyük bir hissəsi mühacir vəziyyətindədir. Azərbaycan daxilində yaradılan 50-dən çox immiqrant düşərgəsində 1 milyona yaxın azəri türkü çox böyük yoxsulluqlar, epidemik xəstəliklərlə mübarizə aparır.

## ŞƏRQİ TÜRKİSTAN

Şərqi Türkistandakı müsəlman türk xalqına kommunist Çin rəhbərliyi tərəfindən tətbiq olunan şiddətli işgəncə, təzyiq, insanlıqdan kənar rəftar və haqsız həbslər yarım əsrdən çoxdur davam edir. Yalnız partladılan bomba və termo-nüvə bombardmanı nəticəsində təxminən 250 min adamın qətlə yetirildiyi təxmin edilir. Son 6 ayda 1700 adam güllələndi, 36.000 adam güllələnmək üçün sırada gözləyir.

## FİL DİŞİ SAHİLİ

19 milyonluq ölkə əhalisinin 25/100-ni təşkil edən müsəlmanlar iqtidarı bir zərbə ilə ələ keçərən əsgəri komanda rəhbərliyi tərəfindən çox böyük bir qırğına məruz qaldılar. Bəzən əsgər və polislərin də qatıldığı qırğınlarda çoxlu sayda müsəlman ya güllələnərək ya da bağırsaqları deşilərək, işgəncə ilə öldürüldü.

## TELEVİZORU AÇDIĞINIZDA, QƏZETİNİZİ OXUYARKƏN ZÜLMƏ UĞRAMIŞ, QƏTLƏ YETİRİLMİŞ İNSANLARLA QARŞILAŞMAYACAĞINIZ GÜNLƏR ÇOX YAXIN ZAMANDA GƏLƏCƏK...

Rus zülmü altında böyük bir soyqırıma tabe olan müsəlman Çeçen xalqı İsrailin işğalçı siyasəti ilə illərdir mübarizə aparan Fələstin xalqı, Kəşmirdə Hind zülmünə qarşı müqavimət göstərən müsəlmanlar, Çin hökumətinin təzyiqi altında əzilən müdafiəsiz Uyğur türkləri və Kosovada, Bosniyada, Albaniyada, Suriyada, Filipində, Burmada, Əfqanistanda, Çadda, İndoneziyada, Eritreyada illərdir zülm görən günahsız insanlar…

Faşist və kommunist rəhbərliklərin bütün dünya xalqlarına, xüsusilə də müsəlman xalqlara etdikləri insanlıqdan kənar qırğınları bütün dünya səssizcə izləyir. Hər gün qəzetlərdə, televiziyalarda gözü yaşlı analar, kəfənə sarılı körpələr, səfalət içindəki insanlar, şikəstlər, yaralılar iştirak edir. Bəlkə, hər kəs baş verənləri alışdığımız sözlərlə qınayır, bəlkə yaşananların vicdan əzabını çəkir və bu zülmün dayanmasını istəyir. Ancaq həqiqi mənada həll yolu tapan, bu qırğınları dayandıran heç kim yoxdur. Problemlərin əsl qaynağının dinsizlik olduğunu qavrayan türk milləti dünyanı bürümüş xaosun öhdəsindən gələcək yeganə millətdir.

## DARVİNİZMİN 150 İLDİR DAVAM EDƏN TƏXRİBATI BÖYÜKDÜR, ANCAQ BÜTÜN BUNLARIN BİR HƏLLİ VARDIR

Heç düşündünüzmü? Rusiyada;

Niyə 150 ildir mərhəmət, hörmət bilinmir?

Niyə hörmət, şəfqət, yardımlaşma kimi gözəlliklər yaşanmır?

Niyə insanlar kommunizmin gətirdiyi yoxsulluq və aclıq içində

qıvrılırlar?

Niyə Rusiya deyilincə insanların ağılına əxlaqi degenerasiya

və səfalət gəlir?

Niyə eyni sistem azğınlaşaraq davam edir?

Dinsizlik bir bəladır. Rusiyada yaşananlar darvinist-materialist

fikirlərin səbəb olduğu dinsizliyin, cəmiyyətlərə gətirdiyi bəlalardan

yalnız bir neçəsidir.

Tək həll insanların darvinizmin boş sözlərinə

qarşı şüurlandırılmaları və Quran əxlaqının yayılmasıdır.

## SİZDƏN, FƏZİLƏTLİ VƏ VARLI OLANLAR, YAXINLARA, YOXSULLARA VƏ ALLAH YOLUNDA HİCRƏT EDƏNLƏRƏ VERƏRKƏN ƏKSİKLİK ETMƏSİNLƏR, BAĞIŞLASINLAR VƏ XOŞ GÖRSÜNLƏR... (NUR SURƏSİ, 22)

Dünyada əsrlərdir həll edilməyən, hər kəsin də bu şəkildə qəbul etdiyi bir çox problem vardır. Bunlardan biri də kasıblıq, epidemiya xəstəliklər, döyüşlər və müalicə imkanlarının əskikliyi kimi səbəblərlə hər il milyonlarla uşağın həyatını itirməsidir.

UNICEFin 2001 hesabatına görə hər gün 30 min, bir il içindədirsə 11 milyon uşaq önlənə bilər xəstəliklər üzündən ölməkdədir. Bunun yanında hər il qarşıdurmalar və döyüş şərtləri səbəbiylə 20 milyon uşaq evindən uzaqlaşıb, mühacir mövqesinə düşməkdə və çox çətin şərtlər altında həyatını davam etdirmək məcburiyyətində qalmaqdadır. Çoxu beş yaşın altında olan bu uşaqların ölüm səbəbləri isə qida qeyri-kafiliyi, lazımlı müalicəni etdirəcək imkanları olmaması, dərman ehtiyaclarının giderilememesi və çətin həyat şərtləridir...

Ortada çox böyük bir səfalət vardır və lazımlı tədbirlər alınmazsa, bu səfalətin böyük bir sürətlə artmağa davam edəcəyi açıqdır. Yalnız müəyyən günlərdə bu problemi xatırlayaraq ya da yolda qarşılaşılan dilənçi uşaqlara pul verərək bu problemin həll olmayacağı isə ortadadır. Həll üçün yoxsul

uşaqların təhsil, sığınma, yemək, sağlamlıq, geyəcək kimi ehtiyaclarını qarşılayacaq sistemli və çox güclü bir iş lazımdır.

Bu isə ancaq Quran əxlaqının tam olaraq yaşanmasıyla mümkün olar. Çünki Allaha iman edən və vicdanıyla hərəkət edən insanlar fədakar, xoşgörüşlü, ədalətli, mərhəmətli və şəfqətli xarakterləri sayəsində ehtiyac içində olan hər insana bütün imkanlarıyla köməkçi olacaqlar. Belə bir mühitdə hər kəs Quranda tövsiyə edildiyi kimi özü ehtiyac içində olduğu halda yeməyini yoxsula və yetimə yedirəcək, özünün bəyənməyəcəyi şeyləri başqalarına verməyəcək, bütün insanları da vicdanlarını istifadə etməyə dəvət edəcək.

Buna görə Quran əxlaqının yaşandığı bir mühitdə həll edilməyəcəyi düşünülən bütün problemlər bir anda ortadan qalxacaq, barış və hüzur dolu yeni bir dünya qurulacaq. Bu şərəfli addımı atan isə əsrlər boyunca dünyaya nizam vermiş iman sahibi türk millətidir.

## YOXSULLUQ VƏ SƏFALƏTİN ORTADAN QALXMASI ANCAQ QURAN ƏXLAQININ HAKİM EDİLMƏSİYLƏ OLAR

İndiki vaxtda yoxsulluq yalnız Afrika ölkələrini ya da Cənub Asiyadakı kasıb ölkələri maraqlandıran bir problem olmaqdan çıxmışdır. Dünyanın ən inkişaf etmiş ölkəsi sayılan Amerikada yoxsulluq içində yaşayan uşaqların sayı son 20 ildə 3 qatına çıxmışdır. 1994-cü ildə hər 3 yaşındakı 4 uşaqdan birinin yoxsulluq içində yaşadığı göstərilir. Dünyanın dörd bir tərəfində zibil qarışdıraraq həyatını davam etdirən, çox az pul qarşılığında həyatını təhlükəyə ataraq çalışmaq məcburiyyətində qalan uşaqlar, hər cür ağır şəraitdə çöldə yaşamaq məcburiyyətində qalan evsizlər, aclıqdan qaynaqlanan uşaq ölümləri və bunlar kimi yoxsulluqdan qaynaqlanan bir çox problem bütün dünyanın gündəmində yer tutur.

Bir tərəfdə çox böyük bir zənginlik və rifah yaşanarkən, digər tərəfdə insanların bir parça çörək tapa bilməyib, aclıqdan həyatlarını itirmələri əslində çox düşündürücüdür. Çünki indiki vaxtda dünya əhalisinin 1/5 hissəsini tutan zənginlər dünya qeyri-nizamı nəticəsində 4/5-nü nəzarətləri altında saxlayırlar. Bu, bəzi insanların çox böyük bir zənginlik, rifah içində

yaşayarkən, dünyanın çox böyük bir hissəsini təşkil edən kasıbları ehtiyac içində olan günahsız uşaqları görməməzlikdən gəlmələri mənasını verir.

Tək həll Quran əxlaqının insanlar arasında hakim olmasıdır. **Allah dünya zənginliklərinin cəmiyyətin çox kiçik bir seqmentində toplanmasını "...Belə ki, aranızdakı zənginlərin var-dövləti olub qalmasın. " (Həşr surəsi, 7) ayəsiylə qadağan etmiş, "Onların mal-dövlətində dilənçinin və yoxsulun payı vardır.** (Zəriyət surəsi, 19) ayəsiylə də yoxsullara köməyi əmr etmişdir.

## CANLILARDAKI İMAN DƏLİLLƏRİ

## AĞIL VƏ VİCDAN SAHİBİ İNSANLAR, HEYVANLARI DEYİL, QURANDA BƏHS EDİLƏN ƏXLAQI NÜMUNƏ GÖTÜRƏRLƏR

Balalarını ağızında daşıyan timsahlar, balalarına yuva düzəltmək üçün günlərlə kol çırpı yığan, sürüsünü təhlükədən qorumaq üçün qışqıraraq və ya yaralı kimi davranaraq düşmənin diqqətini üzərinə çəkən quşlar, özlərini düşmənləri ilə gənc zebrların arasına ataraq ölümü gözə alan zebralar, aylarla yumurtalarını və yeni doğan balalarını heç tərpənmədən, qar fırtınalarının altında, bir dəfə də yemək yemədən ayaqlarının arasında daşıyan pinqvinlər... Bu davranışların bir çoxunda insanın heyrət və təəccüblə qarşıladığı fədakarlıq nümunələri vardır. Ancaq heyvanlar ağıl, vicdan, şüur kimi xüsusiyyətlərdən məhrumdur. Onlar bunları Allahın ilhamı ilə edirlər.

Ağıl, vicdan və şüur sahibi insanlar fədakarlığı, mərhəməti, incə düşüncəni və digər gözəl əxlaq xüsusiyyətlərini heyvanlardan nümunə götürməzlər. İnsanlar üçün tək rəhbər və tək nümunə Quran və Allahın elçiləridir.

Darvinistlər isə özlərini heyvanlarla bir sandıqları üçün, heyvanların döyüş, mübarizə, mərhəmətsizlik kimi davranışlarını nümunə götürərlər. Heyvanlar kimi qarşıdurmanın, döyüşməyin, mərhəmətsiz olmağın insanın təbii quruluşu olduğuna inanarlar. Bir insanın özünü heyvanlarla bir tutması, onlar kimi yaşaya biləcəyinə, onlar üçün etibarlı olan qaydaların özü üçün də

etibarlı olduğuna inanması böyük ağılsızlıqdır. Belə bir inanc dünyanı ən vəhşi meşələrdən daha təhlükəli və mərhəmətsiz bir hala gətirər.

Yüksək əxlaq sahibi türk milləti heç bir zaman darvinizmin bu boş sözlərinə inanmadığı, həmişə özünə Quranı və peyğəmbərləri nümunə götürdüyü üçün darvinizmin ağır təxribatını yaşamamışdır. Bütün dünya insanlarına gözəl bir nümunədir.

## "DƏNƏNİ VƏ ÇƏYİRDƏYİ YARAN ŞÜBHƏSİZ ALLAHDIR" (Ənam surəsi, 95)

Hindqozu palma toxumlarını suyla daşıyan bitkilərdəndir. Bu bitkinin toxumları suya qarşı çox dözümlü şəkildə yaradılmışlar. Bu toxumlar suda etdikləri 80 günlük uzun səfərdən sonra quruya çatdıqlarını "anladıqlarında" cücərməyə başlayarlar. Bu, son dərəcə xüsusi bir vəziyyətdir. Çünki bilindiyi kimi bitki toxumları su ilə təmasda olduqları anda cücərməyə başlayarlar. Ancaq hindqozu palması bu mövzuda xüsusidir. Əgər palma toxumları da digərləri kimi suyla təmasda olar olmaz dərhal cücərməyə başlasaydılar soyları çoxdan tükənərdi. Halbuki, bu toxumların cücərməsindəki həssas ölçülərə görə bitki əsrlərdir nəsilini davam etdirmişdir.

Toxumların qabıqlarındakı suya dözümlü strukturları, içlərindəki qidaların miqdarı, quruya çatma vaxtları kimi xüsusiyyətlərindəki hesablamalar heç şübhəsiz ki, öz zəka və qabiliyyətləriylə reallaşmış deyil.

Bütün bu həssas ölçülər, toxumları yaradan, onların ehtiyaclarını bilən, sonsuz ağıl və elm sahibi Allah tərəfindən qüsursuzca nizamlanmışdır. Quranda bu qüsursuz tarazlıq belə bildirilir:

**"Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və orada hər şeydən lazım olduğu qədər yetişdirdik."** (Hicr surəsi, 19)

## TƏKAMÜLÇÜLƏRİN MƏNTİQ MƏĞLUBİYYƏTİNİ GÖSTƏRƏN BİR HADİSƏ: AĞACLARDAKI MÜHƏNDİSLİK MÖCÜZƏSİ

Bilindiyi kimi, ağaclar ehtiyacları olan suyu kökləri vasitəsi ilə torpaqdan götürərlər. Bəs neçə metr uzunluqdakı ağacların ən uc budaqlarındakı yarpaqlara qədər suyun necə çatdığını, o yüksəkliyə heç bir nasos və ya hidrofor sistemi olmadan necə çıxdığını heç düşündünüzmü?

Bunun üçün ağacda çox təfərrüatlı bir sistem var. Ağacın köklərindən gövdəyə və budaqlara doğru uzanan, "odunvari toxuma" olaraq adlandırılan incə borulardan ibarət olan bir sistem suyu daşıyır. Ancaq suyun ağac içindəki bu su borularından bir şəkildə yuxarıya doğru çəkilməsi lazımdır. Bu isə fizika qaydalarının qüsursuz uyğunlaşması ilə reallaşır.

Hər yarpaqda karbon 4 oksidin girib suyun buxarlaşdığı kiçik məsamələr olur. Su molekulları strukturları bir-birlərinə yapışmağa meyllidir və su yarpaqdan buxarlaşarkən, yarpaqdakı su altda qalan suyu "çəkər" və bu şəkildə torpaqdan ağacın budaqlarına qədər uzanan bir "yuxarıya doğru çəkmə hərəkəti" meydana gələr. Su yarpağa və sonra havaya hərəkət etdikcə, odunvari toxumada bir gərginlik meydana gələrək köklərdən daha çox su çəkilir.

Tək məsamə ağacın içində olan suya yalnız çox az bir çəkmə qüvvəti tətbiq edə bilsə də, ağacın bütün yarpaqları üzərində olan çoxlu sayda məsamə böyük bir ağacda bir gün içində 400 litrdən çox su çəkə biləcək bir gücə qadirdir. Bu dizaynın ən möhtəşəm xüsusiyyətlərindən biri, ağacın bu hidrolik daşıma sisteminin çalışması üçün bir səy göstərməməsidir; bu vəzifəni buxarlaşma günəş enerjisi ilə hərəkətə keçərək yerinə yetirir. Lakin bu mühəndislik möcüzəsində bir təhlükə də var. Hələ quru olan hava suyu ağacdan daha güclü bir şəkildə çölə çəkir. Buxarlaşma suyu yuxarıya doğru çəkərkən, su molekullarının bir-birlərini çəkmələrinə görə bir qədər müqavimət meydana gəlir və su rezin bir lent kimi titrəyir. Bunun nəticəsində su borusunda bir boşluq meydana gəlir və hava qabarıcığı şəklini alır. Hava qabarcığının meydana gətirdiyi boşluq aradan qaldırılmadan, ağac köklərindən yuxarıya su çəkilə bilməz.

Ancaq ağaclar su kolonlarının bu cür hərəkət etməsinin qarşısını alacaq uyğunlaşmaya sahibdirlər. Suyun məsamələri tərk edərkən meydana gətirdiyi

gərginlik müəyyən bir səviyyəni aşsa, bəzi yarpaqların üzərində olan dəliklər dərhal bağlanar və buxarlanmanın çəkiliş təsirini azaldarlar. Beləcə hava qabarcığının meydana gəlməsinə mane olar və ağacın budaqlarının və yarpaqlarının susuz qalması və ağacın ölməsinin qarşısını kəsərlər.

Göründüyü kimi, hər gün dəfələrlə önlərindən keçib getdiyimiz ağaclarda belə qüsursuz bir sistem iştirak edir. Üstəlik bu, ağacların sahib olduğu qüsursuz dizaynın yalnız kiçik bir hissəsidir. Təkcə suyun ağacın hər nöqtəsinə çatması üçün fizika qanunları və mühəndislik bilgiləri bir yerdə istifadə edilmiş və qüsursuz bir tarazlıq və dizayn meydana gəlmişdir.

Darvinistlər bütün bu qüsursuzluğun təsadüfən inkişaf etdiyini iddia edirlər. Yəni təsadüflər su molekullarının bir-birini çəkməsi, buxarlaşma, gərginlik və s. kimi fizika qanunlarından istifadə edərək, bir mühəndis kimi düşünmüşlər və ağacların içinə su borularını döşəməyi də unutmayaraq, belə bir möcüzə meydana gətirmişlər.

Darvinistlər inanılmaz hadisələrə "elmi gerçəklərmiş" kimi inanırlar. Darvinistlərin məntiq məğlubiyyəti yaşadığımız illərdə bütün açıqlığı ilə ortaya çıxmışdır.

## PAYIZ GƏLİNCƏ YARPAQLARI TÖKƏN ŞÜURLU HÜCEYRƏLƏR

Payız yaxınlaşıb günlər qısalmağa başladığında, yarpaq hüceyrələri payızın gəlmək üzrə olduğunu anlayır. Beləcə ilk olaraq yarpağın böyümə hormonu artıma nisbətini salmağa başlayar. Daha sonra, yarpaq sapının budağa bağlandığı nöqtədə yeni hüceyrələr törəyir. Və bu hüceyrələr sanki özlərinə lazım olduğunu bildirmiş kimi bu əlaqə nöqtəsinin üzərində göbələkdən bir yataq yaradarlar. Bu nöqtəyə "Apsis nöqtəsi" deyilir. Bu göbələkdən yataq, yarpağın budağa olan əlaqəsini olduqca zəiflədir.

Tam bu sırada, yarpaq hüceyrələri bu səfər "etilen" olaraq tanınan yeni bir hormon çıxarmağa başlayarlar. Bu qaz formasındakı hormon yarpağın budağa əlaqəsinin zəiflədilməsi əməliyyatını daha da sürətləndirir. Və artıq yarpaq ən kiçik bir titrəyişdə də budaqdan düşəcək vəziyyətə gəlir.

Ancaq yarpağın düşməsi ilə hüceyrələrin vəzifəsi tamamlanmır. Bu dəfə hüceyrələr apsis nöqtəsində yarpağın qopmasından meydana gələn yaranın üzərini dərhal bir göbələk təbəqəsi ilə örtərlər və beləcə yaranı müalicə edərlər.

Məhz hər payız yerdə gördüyünüz yarpaqlar burada qısaca izah edilən bir çox biyokimyəvi hadisə nəticəsində tökülürlər.

Bəlkə bu günə qədər varlığını heç düşünmədiyiniz bu ağac hüceyrələri ard-arda reallaşdırdıqları hadisələrlə sanki ağıl və şüur nümayiş edirlər. Bir düşünün:

• ağac hüceyrələri payızın gəlmək üzrə olduğunu necə anlayır?

• payızın yaxınlaşdığını anladığında hansı iradə, ağıl və şüurla yarpaqları tökmək üçün hazırlıq görməyə başlayır?

• bu hüceyrələr böyümə hormonu, göbələk, etilen kimi kompleks kimyəvi maddələri çıxarmağı, bunların düsturlarını, təsirlərini, faydalarını haradan bilirlər?

• eyni hüceyrələr ağacın yarası olduğunun necə fərqinə varıb, bu yaranın göbələklə müalicə olacağını necə bilirlər?

• bunların xaricində bu hüceyrələr eyni hormonları niyə yazın və ya yazda deyil də, yalnız payızda çıxarmaqdadırlar? Onlara bu əmri verən, bu yolu göstərən kimdir?

Şüur, ağıl və məlumat sahibi olmayan atomların birləşib, bu qədər əhatəli və mütəşəkkil bir hadisəni yüz milyonlarla ildir, dünyanın hər küncündə, trilyonlarca ağacda, heç bir zaman axsatmadan və çaşmadan davam etdirmələri qətiliklə qeyri-mümkündür.

Bütün bu ağac hüceyrələrinə etdikləri işləri ilham edən, onlara əmriylə istədiklərini etdirən, əlbəttə ki, sonsuz qüdrət, ağıl və məlumat sahibi olan Rəbbimiz Allahdır. Çünki; **"O, BİLMƏDƏN BİR YARPAQ BELƏ DÜŞMƏZ. .."(ENAM SURƏSİ, 59)**

## TƏBİƏTƏ DOĞRU GÖZLƏ BAXIN

Təkamül nəzəriyyəsi tarix boyunca insanlığa qarşı deyilən ən böyük yalanlardan biridir. Neçə insan özlərinə "elm adamı" bəzəyi verən təkamülçülər tərəfindən şüursuz təbiətin özbaşına möcüzəvi nizam meydana gətirəcəyinə inandırılmışdır.

Halbuki, başda biologiya olmaqla inkişaf edən elmlərin hamısı bu gün bu mövzuda ortaq bir gerçəyi göstərməkdədir: Yer üzündəki tək bir canlı belə şüursuz təsadüflərin əsəri ola bilməz. Şüursuz təsadüflər bir canlı deyil, bir zülal belə meydana gətirə bilməzlər. Canlılığın ən kiçik vahidini belə meydana gətirməkdə aciz olan təsadüflər necə olub ki, bir ağacı, o ağacın budaqlarında yetişən ləzzətli almanı, o almanı ustalıqla qoparan əli, dişləyən dişləri, üyüdən mədəni, almadan bədənə ən lazımlı maddələri udan bağırsaqları və bunların hamısını bədənə paylayan damarları və qanı yarada bilər? Təsadüflərin zamanla belə möcüzə sistemlər meydana gətirə biləcəyini iddia etməyin böyük bir şəhərin çölün ortasında prospektləri, binaları, su, elektrik və digər bütün sistemləriylə birlikdə həm də öz özünü yeniləyəcək şəkildə "özbaşına" meydana gəldiyini iddia etməkdən heç bir fərqi yoxdur.

## BİTKİLƏR SİZDƏN DAHA ŞÜURLUDURMU?

Bir insanın önünə bir ovuc mineral və vitamin qarışıq olaraq qoyulsa, bunların içindən lazım olanları seçməsi istənilsə nə qədər müvəffəqiyyətli ola bilər? Ancaq bir insanın müvəffəqiyyətli ola bilmədiyi bu sahədə, bitkilər mükəmməl bir müvəffəqiyyətə sahibdirlər.

Torpağın içində yüzlərlə mineral olar. Bitkilər bu çoxlu saydakı mineral içindən yalnız ehtiyacları olan 13-nü seçib götürərlər. Bu seçim bitkilərdə təzyiq sisteminin tərsinə işləyən nasoslar tərəfindən edilir. Bu nasoslar yalnız mineralları bitki içində paylamaqla kifayətlənmir, eyni zamanda bitki üçün lazımlı olan maddələri də müəyyən edir və torpaqdan çəkərək bitki içində paylayırlar.

Yaxşı bu şüuru bitki hüceyrələrinə verən nədir?

Yer üzündəki bütün canlılar üçün əhəmiyyətli olan bitkiləri ortaya çıxaran və onlara sahib olduqları xüsusiyyətləri verən Allahdır.

Allah üstün güc sahibi olan, qüsursuzca yaradandır.

Bitkilərin bu xüsusiyyəti yer üzündəki milyonlarla, milyardlarla iman həqiqətindən biridir. İman həqiqətləri imanlı bir müsəlmanın dərinliyini artırır. Həmçinin, bu kimi məlumatlar bir başqa insana izah edildiyində adətən hidayətinə səbəb olur. Bir adamın imanına vəsilə olmaq da əhəmiyyətli bir ibadətdir.

## BALIQLARDAKI BƏNZƏRSİZ DUYĞU SİSTEMİ

Yüzlərlə insanın çiyin-çiyinə bir izdiham içində olduğunu düşünün. Hər kəsdən davamlı şəkildə bir sağa bir sola olmaqla təsadüfi hərəkət etməsi istənilsə, üstəlik qaranlıqda heç kimlə toqquşmadan kütləyə uyğun gəlməyiniz mümkün ola bilərmi? Şübhəsiz, xeyr!

Bizim üçün qeyri-mümkün olan bu hərəkət balıqlar üçün çox asandır. Çünki balıqlar "yan xətt" olaraq adlandırılan mükəmməl bir duyğu sistemi ilə yaradılmışlar. Bu sistem bədənin hər iki tərəfində boyuna uzanan nöqtələr və ya kəsik xəttlər halındadır. Sistemin duyğu hüceyrələri dəri altında kanal içərisində yerləşir. Xarici mühitdə ola biləcək ən kiçik bir təzyiq dəyişməsi, su dalğalanması, axıntı şiddəti və istiqaməti bu orqanlarla müəyyən olunur.

Balıqlar bu duyğuların vasitəsi ilə titrəyişləri həm hiss edə və eşidə bilərlər. Yemlərinin yerini və ya düşmənlərinin mövqeyini təyin edə bilərlər, ən bulanıq su axıntılarının içərisində istiqamətlərini tapa bilərlər. Həmçinin, sudakı ən kiçik istilik və təzyiq dəyişikliklərinin də fərqinə vara bilərlər. Yan xətt, xüsusilə, yaxındakı aşağı tezlikli titrəyişlərə qarşı həssasdır, məsələn: sahildəki addımlara və ya suyun səthinə düşən bir cismə... Sahildə danışa bilər, mahnı oxuya bilər və ya radio dinləyə bilərsiniz, ancaq balıqlar bunlardan ürkməyəcəklər. Ancaq suyla əlaqəsi olan bir şeyi hərəkət etdirsəniz, məsələn körpünü yellətsəniz, ya da suya daş atsanız bütün balıqlar oradan qaçacaqlar.

Balığın bu duyğu orqanı olduqca kompleks bir quruluşdadır. Təkamül nəzəriyyəsinin iddia etdiyi kimi balığın belə bir mexanizmə ehtiyac duyub, öz

iradəsiylə belə bir quruluş ortaya çıxarması qeyri-mümkündür. Belə qüsursuz bir duyğu sisteminin təsadüfi təsadüflərlə, zaman içində mərhələ mərhələ meydana gəlməsi isə mümkün deyil. Buna görə bu sistemin bir dəfədə qüsursuz bir şəkildə Allah tərəfindən yaradıldığı açıqdır.

## "DÖRD GÖZLÜ" BALIĞIN MÖHTƏŞƏM OPTİK DİZAYNI

Anableps adını daşıyan və "dörd gözlü" olaraq tanınan bir balıq növü suyun həm içində, həm də xaricində son dərəcə yaxşı görə bilir. Dörd gözlü balığın əslində hər birində iki linza olan iki gözü vardır. Balıq az qala su səviyyəsində hərəkət edərkən, səthin üzərində qalan göz bəbəkləri ilə havanı izləməkdə, səthin altında qalan alt göz bəbəkləri ilə də su dünyasını araşdırmaqdadır. Balığın hər bir gözü iki ayrı fokuslama sisteminə malikdir. Hər fokuslama sisteminə aid linza da olduğu mühitlə xüsusi bir qırılma bucağına malikdir.

Balığın suyun və havanın fiziki xüsusiyyətlərinə görə bir optik sistem hazırlayıb hər ikisini tək bir gözə monte etməsi mümkün deyil. Təkamül nəzəriyyəsi hələ tək bir gözün ortaya çıxışını açıqlaya bilmədiyi vaxtda "dörd gözlü balığın" mənşəyinə dair heç bir şərh etməyəcəyi açıqdır. Dörd gözlü balığın mənşəyinə bağlı deyilə biləcək tək şey vardır o da; "hər şeyə güc yetirən və bütün canlıları yaradan" Allah tərəfindən xariqüladə bir sistemlə, qüsursuzca yaradıldığıdır.

## ALLAH NÜMUNƏSİZ YARADANDIR

Dənizaltılarda olan dalğıc tankları suyla dolunca gəmi sudan daha ağırlaşır və dibə çökər. Əgər tankdakı su təzyiqli hava ilə boşaldılsa, dənizaltı təkrar su üzünə çıxar.

Nautilus adı verilən bir dəniz heyvanı da eyni üsuldan istifadə edir. Nautilusun bədənində 19 sm diametrində ilbiz qabığı formasında spiralvari

bir orqan vardır. Bu orqanda bir-biriylə əlaqəli 28 "dalış hüceyrəsi" yerləşir. Bəs nautilus suyu boşaltmaq üçün lazımi təzyiqli havanı haradan tapır?

Nautilusun bədənində biokimyəvi yolla xüsusi qaz çıxarılır və bu qaz qan dövranı ilə hüceyrələrə köçürülərək hüceyrələrdən suyun çıxmasını təmin edir. Bu şəkildə nautilus ovlanarkən ya da düşmənlərindən qaçmaq üçün daha dərinə enə, yaxud səthə çıxa bilər.

Bir sualtı qayıq yalnız 400 metr dərinə enərkən, nautilus üçün 4000 metr dərinliyə enmək son dərəcə asandır. Bu dərinlikdə nautilusun üzərindəki suyun təsiri, heyvanın hər $sm^2$-nə 400 kilodan çox ağırlığın təsiriylə ekvivalentdir.

Şübhəsiz, nautilusun qaz çıxaracaq bir kimyəvi reaksiyaya girməsi, bu reaksiyanı reallaşdıracaq quruluşu qurması, yaxud da üzərindəki tonlarla yükə davamlı bir qabıq düzəltməsi əsla mümkün deyil. Belə üstün bir dizayn ancaq hər şeyi nümunə götürmədən, qüsursuzca yaradan Allahın əsəridir.

## BİR KƏRTƏNKƏLƏ ATOM MÜHƏNDİSİ OLA BİLƏRMİ?

Geko bir kərtənkələ növüdür. Bu sürünən bir barmağı ilə hər hansı səthdən asılı qala bilər və ya şüşədən olan tavanda başıaşağı hərəkət edə bilər.

Gekonun barmaq ucları "setae" adı verilən xüsusi bir toxuma ilə örtülmüşdür. Bu toxumada tükə bənzər uzantılar yerləşir və bu uzadılmaların ucları da yüzlərlə mikroskopik uca ayrılır. Hər bir ucun qalınlığı millimetrin beş mində biri qədərdir. Gekonun ayağındakı milyonlarla mikroskopik uc, toxunduqları səthdə atomların dartınma qüvvəsindən istifadə edərək o səthə bir yapışqan kimi yapışar. Bu vəziyyət kvant fizikasında Van Der Vals qüvvəti olaraq adlandırılmaqdadır.

Milyonlarla ildir mövcud olan bir sürünənin ancaq son əsrdə kəşf edilən atomu və onun cazibə qüvvəsini bilməsi, özünü istifadə ediləcək sistemlər ilə təchiz etməsi qeyri-mümkündür. Heç şübhəsiz, atomu və onun xüsusiyyətlərindən istifadə edən bu heyvanı qüsursuz olaraq yaradan Allahdır.

## HÖRÜMÇƏK VƏ DAHİYANƏ "TOR GƏRİLMƏ TEXNİKASI"

Aralarında 2 metr məsafə olan iki divar arasına 2,5 metr uzunluğundakı bir ipi gərilmiş vəziyyətdə saxlamanız lazım gəlsə nə edərdiniz?

Bağça növündən olan hörümçəyi oxşar (hətta daha kompleks) problemi belə həll edir:

Bağça hörümçəyi bəzən torlarını aralarındakı məsafənin çox olduğu iki budaq və ya ağac arasında qurar. Belə torlar olduqca böyük olduğundan ov ovlama tutumları da böyükdür. Necə ki, torun böyük olması zamanla gərginliyin, buna görə də ov ovlamadakı müvəffəqiyyətin, azalmasına səbəb olur.

Hörümçək bu vəziyyətdə toru yeniləmək əvəzinə son dərəcə çaşdırıcı bir iş görür:

Torun mərkəzinə gələrək buradan yerə qədər uzanan bir ip ifraz edir. İpin yerdəki ucunu kiçik bir daşa bağlayar. Tora geri qayıdar və ipi çəkərək daşın yerdən yuxarı qalxmasını təmin edər. Hörümçək daş havada ikən bağlı olduğu ipi torun ortasına yenidən möhkəm şəkildə bağlayır. Torun ortasından sallanan bu ağırlıq özünü mərkəzdən aşağı doğru çəkdiyinə görə gərilir.

Yaxşı hörümçək belə üstün bir texnikanı haradan bilir və necə müvəffəqiyyətlə istifadə edə bilir? Üstəlik milyonlarla ildir eyni cinsdən olan hər hörümçək eyni texnikayla torlarını hörməkdədir. Hörümçəyin belə bir texnikadan istifadə edə bilməsi üçün, bunu özünə ilham edən bir "iradə sahibinə" ehtiyacı vardır. Bu iradə hörümçəyin özünə aid deyil. Bu iradənin sahibi hər şeyin sahibi olan, hər şeyə gücü çatan, bütün canlıları istiqamətləndirən, lazım olan işləri onlara ilham edən Allahdır.

## SUYUN ALTINDA DA TOR HÖRƏN QABİLİYYƏTLİ VƏ ŞÜURLU HÖRÜMÇƏKLƏR

Həyatının böyük bir hissəsini suyun altında keçirən bir hörümçək növü bütün digər hörümçəklər kimi, özünə ipəkdən bir tor hörər. Bunu edərkən də, ardıcıl ağıllı və şüurlu rəftarlar göstərər.

• Sualtı bitkilərini dəstək olaraq istifadə edən su hörümçəyi əvvəl iki uyğun nöqtə arasına öz istehsalı olan ipəkdən bir körpü xətti çəkər və yavaş yavaş zəng şəklində bir tor qurar.

• Bu vaxt hava almaq üçün nizamlı olaraq suyun üzünə çıxar. Kürəyindəki uzun tüklər isə tənəffüs üçün lazım olan havanı təbəqə halında saxlayarlar.

• Torlar hörülüb tamamlandığında hörümçək kürəyindəki tüklər arasında qalan bu havanı zəngi doldurmaqda istifadə edər. Sonda da havayla dolu olan bu sualtı evində yerləşdirər.

Ovucunuzun içi qədər kiçik bir canlıdır;

• Necə olur ki, ona verilən xüsusiyyətləri ən uyğun şəkildə istifadə etməyi bilir? Məsələn, qarnından çıxan iplə tor hörməyin lazım olduğunu, tüklərinə dolan havayla bu toru doldurmaq lazım olduğunu ona bildirən, göstərən nədir?

• Dünyanın hər yerində, ilk yarandığından bəri bu hörümçək növü suyun altında zəng şəklində bir tor hörür, toru hörərkən tamamilə eyni üsullardan istifadə edir. Hamısına birdən eyni üsulları öyrədən güc nədir?

Təkamülçülər təbiətin hörümçəyi bunları edəcək şəkildə proqramlaşdırdığını iddia edirlər. Halbuki, təbiət daşdan, torpaqdan ibarət olan, ağıl və şüurdan məhrum bir varlıqdır. Ağılın və şüurun sahibi Allahdır. Allah Öz sonsuz elmindən hörümçəyə ilham edir.

## 2 QRAMLIQ GÜVƏNİ TƏQLİD EDƏN 150 TONLUQ DÖYÜŞ TEXNOLOGİYASI

Müasir dövrün ordularının istifadə etdiyi AWACS təyyarələri hücum anını və istiqamətini əvvəlcədən biləcək şəkildə hazırlanmışdır. AWACS-lər yüz milyonlarla dollar xərclənərək qurulan təsislərin, yüzlərlə elm adamı və mühəndisin işinin məhsuludur. Bu təyyarələr üzərlərindəki nəhəng radarı və kompleks kompüter sistemlərindən istifadə edərək onlardan çox uzaqdakı düşmənin fəaliyyətlərini müşahidə edə bilir.

Təbiətdəki bir canlı isə bütün həyatı boyunca AWACS ilə müqayisə edilə biləcək üstün bir bacarığı ortaya qoyur: bəzi güvələr ağcaqanadlardan fərqli olaraq eynilə AWACS təyyarələrindəki kimi, bir "erkən xəbərdarlıq" sistemi ilə təchiz edilmişdir. Bu güvələr qanadlarının altındakı qulaqları sayəsində düşmənləri olan yarasanın yaydığı səs dalğalarını 100 m uzaqdan eşidə bilərlər. Beləcə düşmənlərinin koordinatlarını və onları hədəfə alan bir hücuma başlayıb başlamadıqlarını təyin edə bilirlər.

Bir tərəfdə 150 ton ağırlığında, qanadlarının uzunluğu 40 m, boyu isə 44 m olan AWACS təyyarəsi, digər tərəfdə bir neçə qram ağırlığında qanadlarının uzunluğu 2,5 sm olan, 2 sm boyundakı güvə... İkisi də eyni texnoloji xüsusiyyətdədir. Üstəlik AWACS-in uçması üçün 9.5 ton təyyarə benzini lazım olarkən, güvənin bu iş üçün bir neçə milliqram bitki sapı götürməsi kifayətdir... AWACS-in radarının və kompüterlərinin işləməsi üçün kilometrlər tərəfindən naqildən istifadə edilərkən, güvənin mükəmməl qəbul etmə sistemi üçün yalnız iki qısa sinir lifi kifayətdir...

İnsanlığın yüz illik elmi təcrübəsinin, neçə ton ağırlıqdakı təyyarələrə ancaq sığdıra bildiyi erkən xəbərdarlıq sistemləri bir neçə qramlıq güvənin qanadları altında kibrit ucu qədər bir sahədə reallaşdırılır.

İnsanların bütün imkanlarını səfərbər etməsinə qarşı, oxşarını belə etməkdə çətinlik çəkdiyi belə bir sistem kiçik güvənin bədənində Allah tərəfindən qüsursuz şəkildə yaradılmışdır.

## BİLDİYİNİZ, BİLMƏDİYİNİZ BÜTÜN CANLILARI YARADAN UCA ALLAHDIR

Polyphemus güvəsinin kişiləri geniş, tüklü buynuzlara malikdir. Bu buynuzlar bir dişi güvənin qoxusunu bir neçə kilometr uzaqdan hiss edəcək qədər həssasdır. Hətta dişi saatda yalnız 1 qramın milyardda biri qədər qoxu ifraz etsə belə kişi güvələr bunu fərq etməkdə çətinlik çəkməzlər. Güvənin qoxu hiss etmə duyğusunun bu qədər təsirli olmasının bir səbəbi hər bir buynuzun təxminən 17.000 tükcüyə sahib olmasıdır. Hər bir tükcük də minlərlə qoxu hiss etmə məsaməsinə malikdir. Məhz bu xüsusi dizayn güvələrin qoxu hiss etmə həssaslığını inanılmaz dərəcədə artırır.

Güvələr bu qüsursuz qəbul etmə qabiliyyətini necə qazanmışlar?

Kiçik bir güvənin bədənində 17.000 tükcüklü və hər bir tükcükdə minlərlə məsamə olan bu quruluş necə ortaya çıxmışdır?

Təsadüflərin bir böcəkdə beləcə inkişaf etmiş qoxu qəbul edici bir sistem yaratması qeyri-mümkündür. Düşünmə qabiliyyəti olan, ağıl sahibi hər insan belə bir iddianın məntiqsizliyini dərhal anlayacaq. Güvələr Allah tərəfindən bu fövqəladə xüsusiyyətlərlə birlikdə yaradılmışlar.

## KÖPƏKBALIQLARININ HƏSSAS QƏBUL EDİCİLƏRİ

Köpəkbalıqları sudakı bütün titrəyişləri, suyun istiliyindəki dəyişikləri, duzluluq nisbətini və xüsusilə də hərəkət halındakı canlıların gətirib çıxardığı elektrik sahəsindəki kiçik dəyişiklikləri belə hiss edə bilərlər. Bunu "Lorenzini ampul" olaraq adlandırılan xüsusi orqanları sayəsində reallaşdırırlar. Bu orqanlar başın və heyvanın üzündəki sivri qismin üstündə olan məsamələrə bağlıdır. Və elektrik qəbul edicisi (elektroreseptor) olaraq son dərəcə həssasdırlar.

Yaralı bir balıq suyun içində çırpındığında camgöz köpəkbalıqlarının bütün duyğuları həyəcana keçir. Balıqdan yayılan sualtı səslər (aşağı tezlikli titrəyişlər) köpəkbalıqlarını çəkər. Ovlarına yaxınlaşdıqlarında Lorenzini ampulu daha çox diqqətə çarpan şəkildə işə başlayır. Belə ki, köpəkbalıqları yaralı balığın ürək döyüntülərinin və əzələlərindəki sıxılmaların gətirib

çıxardığı çox kiçik elektrik cərəyanlarını belə hiss edirlər. Bunun sayəsində ovlarının yerini tam olaraq təyin edirlər.

Elektrik xəbərdarlıqları qəbul edəcək bir mexanizmin özbaşına ortaya çıxa bilməyəcəyi çox açıqdır. Köpəkbalıqlarının son dərəcə məqsədəuyğun ölçülər götürməsini təmin edən bu bədən sistemi çox açıq bir şəkildə yaradılışı sübut edir. Üstəlik, Lorenzini ampulaları köpəkbalıqlarının sahib olduqları xüsusiyyətlərdən yalnız biridir. Köpəkbalıqları istər tənəffüs sistemləri, istər yollarını tapmalarını təmin edən maqnit qəbulediciləri, istərsə də sürətli üzmə qabiliyyətləri ilə bir yaradılış möcüzəsidirlər. Allah bütün canlıları olduğu kimi köpəkbalıqlarını da əskiksiz bir şəkildə yaratmışdır.

## YER ÜZÜNDƏKİ HƏSSAS TARAZLIQLAR

Yer üzündə istilik tarazlığının təmin edilməsində rolu olan canlılardan biri dənizlərin dərinliklərində yaşayan kiçik yosunlardır. Yosunlar "dimetil sulfit" adlı qazı çıxarırlar. Bu qaz atmosferə yüksələrək, günəş işığının təsiriylə kiçik parçalara çevrilir. Bu parçalar havadakı nəmi alır və bir su damlası halına düşürlər. Bu damlaların çoxalmasıyla da səmada ağ buludlar meydana gəlir. Səmanı ağ buludların örtməsi günəşdən gələn şüaların əksəriyyətinin yer üzünə çata bilmədən kosmosa geri əks etdirilməsi deməkdir. Beləcə, yer üzündə  istilik yavaş-yavaş azalmaya başlayır. Əgər yosun bu qazın istehsalını dayandırmasadı nə olardı? Buludlar meydana gəlməyə davam edər və yer üzü davamlı istilik itirərdi. Ancaq belə bir vəziyyət heç zaman reallaşmaz. Çünki istilərin düşməyə başlamasıyla birlikdə yosunlarda daha az miqdarda qaz çıxarmağa başlayarlar. Beləcə, buludların meydana gəlməsi də azalar və günəş şüalarının yer üzünə keçidi asanlaşar. Artıq yer üzündə istilik təkrar artmağa başlayar.

Bütün bunlar dənizlərin qaranlıqlarında yaşayan, buludları heç görməyən, dənizin xaricində necə bir həyat olduğundan xəbəri olmayan, şüursuz mikroskopik canlıların hesablaması mümkün olmayan şeylərdir. Ancaq yosunlar yer üzündəki istilik tarazlığının təmin edilməsində üstün bir qabiliyyət göstərirlər. Çünki yosunlar da yer üzündəki bütün canlılar kimi Allahın ilhamıyla hərəkət edirlər.

Bütün bu tarazlıqları biz təmin etmədiyimizə, hətta təmin edilməsi üçün ən kiçik bir səy də göstərmədiyimizə görə bir daha diqqətlə düşünməmiz lazımdır. Düşünüb, bizə bu neməti hər gün, hər saat hətta yaşadığımız hər an təmin edən sonsuz mərhəmət sahibi Allaha könüldən şükür etməyimiz lazımdır.

Şəkildə görünən və dənizlərin qaranlıqlarında yaşayan mikroskopik böyüklükdəki bu yosun yer üzündəki istilik tarazlığının təmin edilməsində çox böyük bir rol oynayır.

## GÖZLƏRİYLƏ DEYİL, KƏLLƏNİN ALT QİSİMİNDƏ OLAN SONARLA GÖRMƏ ƏMƏLİYYATINI YERİNƏ YETİRƏN DELFİNLƏR SAHİB OLDUQLARI BU QÜSURSUZ CİHAZI NECƏ ƏLDƏ ETDİLƏR?

Bir insan özündən 100 metr irəlidəki hər hansı bir obyekti görməkdə çətinlik çəkərkən, delfinlər 3 km kənarda dayanan bir cismi görməkdə heç çətinlik çəkməzlər. Həm də bu görmə əməliyyatını gözləriylə deyil, kəllələrin alt qisimində olan sonar sistemi vasitəsiylə yerinə yetirirlər. Bu sonar o qədər qüvvətli səs dalğaları yayır ki, delfinlər ətraflarında olan kiçik-böyük hər şeyi bu sistem sayəsində qəbul edə bilirlər.

Sonarın göndərdiyi siqnallar qarşılaşdıqları cisimlərlə toqquşduqdan sonra təkrar geri dönərək delfinin alt çənəsinə çatır və buradan da "lipit" adı verilən bir növ yağ vasitəsiylə daxili qulağa daşınır. Tam konsistensiyasında və uyğun miqdarda ifraz olunan bu yağ sayəsində iç qulağa çatan məlumatlar beyinə köçürülür və qəbul etmə tamamlanmış olur.

Hər şeyi bənzərsiz, qüsursuz və əskiksiz yaradan Allah delfinləri də ən gözəl şəkildə yaratmış və üstün bir texnologiyayla təchiz edərək öz sənətinin ucalığını və qüdrətinin sərhədsizliyini göstərmişdir.

## ALLAH HƏR CANLINI YAŞADIĞI MÜHİTƏ UYĞUN OLARAQ YARATMIŞDIR

Dalğıclar su səthinə sürətli çıxışlarda təzyiq fərqindən qaynaqlanan ölüm təhlükəsiylə qarşılaşarlar. Bunun səbəbi ağciyərə çəkilmiş havanın ani bir şəkildə qana qarışaraq damarların içində hava qabarcıqları meydana gətirməsidir. Bu qabarcıqlar qan dövranındakı nizamı pozaraq ölüm təhlükəsi meydana gətirir.

Delfinlər isə insanlar kimi ağciyərləriylə tənəffüs etmələrinə baxmayaraq belə bir problemlə qarşılaşmazlar. Bunun səbəbi dərinə dalarkən insan kimi havayla dolu ciyərlərlə deyil, əksinə boş ciyərlərlə hərəkət etmələridir. Ciyərləri havayla dolu olmadığı üçün də, təzyiq dəyişikliyi ölümə səbəb olmaz. Ancaq əgər delfin ciyərlərini havayla doldurmursa, oksigensiz qalıb boğulmaqdan necə xilas olur?

Bu problemin cavabı delfinlərin əzələlərində olan yüksək nisbətdəki "miyoglobin" zülalında gizlidir.

Miyoglobin zülalları çox yüksək miqdarda oksigen molekulunu öz üzərlərinə bağlayır və qoruyurlar. Buna görə yunus üçün lazım olan oksigen ciyərlərdəki havada deyil, əzələlərin içində saxlanır. Bu mükəmməl sistem delfinə istədiyi qədər nəfəs almadan üzmə və istədiyi qədər dərinə getmək imkanı verir.

Məhz bu nöqtədə təkamül nəzəriyyəsinin cavablandıra bilmədiyi suallar ortaya çıxır.

• Delfinlər sıxlıqla üzləşməmək üçün boş ağciyərlərlə dalmaları lazım olduğunu haradan bilirlər?

• Boş ciyərlərlə dərinə getdiklərinə görə, boğulub ölməmək üçün əzələlərində oksigen yığmağı necə düşünmüşlər?

• Daha da əhəmiyyətlisi, oksigenin əzələlərində tutulmasını təmin edən "miyoglobin" zülalını bədənlərinə necə yerləşdirmişlər?

Şübhəsiz ki, bu qədər kompleks və mükəmməl sistemlər, təkamülçülərin iddia etdiyi kimi təsadüflər nəticəsində meydana gələ bilməz, delfinlər bütün bunları reallaşdıracaq bir ağla və iradəyə də sahib deyildirlər.

Delfinlərə xüsusi olan bu biokimyəvi nizam, əlbəttə ki, şüurlu bir dizaynın açıq-aşkar dəlilidir. Allah hər canlı kimi delfinləri də yaşadıqları şərtlərə ən uyğun bədən quruluşları ilə yaratmışdır.

## İMMİQRANT QUŞLARIN KİLOMETRLƏRİ HESABLADIQLARINI VƏ BU HESABA GÖRƏ ENERJİ QƏNAƏTİ TƏTBİQ ETDİKLƏRİNİ BİLİRDİNİZMİ?

İmmiqrant quşların uçuşa başlamadan əvvəl səfərlərini tamamlamalarını təmin edəcək qədər enerjini bədənlərində yığmaları şərtdir. Məsələn, qızıl yağış quşu qışı keçirmək üçün hər il Alyaskadan Havay adalarına köç edər. Hərəkət istiqamətləri üzərində heç ada olmaz. Buna görə quşun bu uzun səfəri əsnasında heç bir istirahət etmə imkanı yoxdur. Enmə nöqtəsi isə başlanğıc nöqtəsindən 4000 km uzaqdadır. Bu məsafə quşun aralıqsız olaraq təxminən 250 min qanad çırpmasını tələb edir. Səfərin hamısı 88 saatdan çox davam edər.

Qızıl yağış quşunun səfərə başlayarkən ağırlığı 200 qramdır. Bunun 70 qramı, yolda yanacaq olaraq istifadə ediləcək yağlardan meydana gəlir. Ancaq ornitoloqlar qızıl yağış quşunun bir saat uçmaq üçün sərf etdiyi enerjini müəyyən etmiş və quşun 88 saatlıq uçuş üçün ən az 82 qram enerji sərf edəcəyi qənaətinə gəlmişlər. Yəni quşun bu vəziyyətdə 12 qramlıq bir açığı vardır və hesablara görə Hava adalarına çatmadan yüzlərlə kilometr əvvəl enerjisinin bitməsi və dənizə düşməsi lazımdır.

Amma elm adamlarının bu hesabına baxmayaraq qızıl yağış quşları heç bir zaman dənizə düşməz və hər il müvəffəqiyyətlə Hava adalarına çatarlar. Yaxşı bu canlıların sirri nədir?

Bu quşları yaradan Allah onlara uçuşlarını məhsuldar hala gətirəcək və asanlaşdıracaq bir üsul ilham etmişdir. Quşlar təsadüfi bir şəkildə deyil, sürü halında uçurlar. Uçarkən də hamısı müəyyən bir sıraya düzülür və havada bir "V" şəkli meydana gətirərlər. Bu V şəkli qarşılaşdıqları hava müqavimətini azaldır. Bu uçuş nizamı o qədər təsirlidir ki, quşlar bunun sayəsində təxminən 23%-lik bir enerji qənaəti təmin edirlər. Bu şəkildə, yerə endiklərində artıqdan 6-7 qram daha yağları qalar. Üstəlik, bu artan yağ da

lazımsız deyil; küləklərin əks istiqamətdən əsməsi vəziyyətində istifadə ediləcək ehtiyat enerjidir.

Bu fövqəladə hesab qabiliyyəti qarşısında bunu soruşmaq lazımdır: Uçuş məsafəsinin nə qədər olduğunu və səfər boyunca nə qədər yağ istehlak edəcəyini bir quş necə hesablayır?

Əlbəttə ki, qızıl yağış quşlarının öz ağıllarıyla ya da təsadüfən bu məlumatlara çatmaları, bunlara uyğun hesablamalar etmələri və bu hesablara uyğun toplu uçuşlar reallaşdırmaları qeyri-mümkündür. Bu vəziyyət etdikləri işlərin quşlara "ilham edildiyini", bu canlıların üstün bir güc sahibi olan Allah tərəfindən istiqamətləndirildiklərini göstərir.

Bu açıq-aşkar gerçəyi təqdir edə bilməyənlər isə canlıların sahib olduqları möcüzəvi sistemlərin və fövqəladə qabiliyyətlərin "təsadüflərin" əsəri olduğunu iddia edirlər. Belə kəslərə yaradılış gerçəyini səbirlə, doğru və aydın məlumatlarla izah etmək, vicdan sahibi hər insanın üzərindəki əhəmiyyətli bir məsuliyyətdir.

## TƏKAMÜLÇÜ İDDİALARI TƏK BAŞINA ÇÖKDÜRƏN BİR SİSTEM: BÖCƏKLƏRİN UÇUŞU

Böcəklər öz böyüklükləri ilə müqayisə edildiyində bir insanın saatda bir neçə min kilometr sürətlə uçmasına bənzədiləcək qədər yüksək sürətlərdə uca bilirlər. Məsələn, cırcıramalrın uçuş sürəti saatda 40 km-ə çatır. Onlardan daha kiçik olan at ağcaqanadlarının uçuş sürəti isə saatda 50 km-dir.

Bu sürətlər düşünüldüyündə böcəkləri reaktiv təyyarələri ilə müqayisə etmək mümkündür. Reaktivlər sahib olduqları yüksək sürət mühərriklərini işlədə bilmək üçün çox xüsusi yanacaqlardan istifadə edirlər. Ağcaqanadların uçuşu da eyni şəkildə yüksək bir enerji tələb edir. Üstəlik, bu enerjini yandırmaq üçün bol miqdarda oksigenə ehtiyacları vardır. Məhz bu yüksək oksigen ehtiyacı ağcaqanadların və digər böcəklərin bədəninə yerləşdirilmiş fövqəladə tənəffüs sistemiylə ödənilir.

Bu tənəffüs sistemi insanınkından çox fərqlidir. Biz havanı ağciyərlərimizə çəkirik. Oksigen burada qana qarışır, sonra da qan yoluyla bütün bədənə paylanır. Amma ağcaqanadlardakı oksigen ehtiyacı o qədər

çoxdur ki, oksigenin qan yoluyla hüceyrələrə getməsini gözləyəcək zaman yoxdur. Buna görə çox xüsusi bir sistem hazırlanmışdır. Hava ağcaqanadın bədəninin fərqli bölgələrinə kapilyarlar yoluyla paylanılır. Eyni bədəni əhatə edən damar sistemi kimi, ağcaqanadlarda çoxlu sayda kanala ayrılan hava sistemi də vardır. Bunun sayəsində uçuş əzələlərini meydana gətirən hüceyrələr oksigeni doğuran bu kanallardan alır. Bu sistem eyni zamanda saniyədə 1000 dövriyyə kimi yüksək bir nisbətdə çalışan əzələlərin soyudulmasını da təmin edir.

Bu cür həssas bir dizaynın heç bir təsadüfi müddətlə açıqlana bilməyəcəyi ortadadır. Bu sistemin təkamülün iddia etdiyi kimi pilləli olaraq inkişafı da qeyri-mümkündür. Çünki hava kanalları tam olaraq qurulub işləmədiyi müddətcə ara mərhələlər canlıya üstünlük təmin etməyəcək, əksinə tənəffüs sistemini səmərəsiz hala gətirib ona zərər verəcək.

Göründüyü kimi, darvinizmin xəyali "təkamül müddəti" bir ağcaqanadın tək bir sistemini də qətiliklə meydana gətirə bilməz. Ağcaqanadları və yer üzündəki digər bütün canlıları yaradan Allahdır.

**Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər.**

**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.**

**Məgər onlar Allahın hər şeyi bürüyən əzabının onları qaplamayacağına və ya özləri də hiss etmədən o Saatın onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi?**

**(Yusif surəsi, 105-107)**

## TƏBİƏTDƏKİ SİMMETRİYA VƏ UYĞUNLUQ, ALLAHIN VARLIĞININ DƏLİLLƏRİNDƏNDİR

Simmetriya arxitekturadan dekorasiyaya, geyimdən avtomobil dizaynına qədər bir çox sahədə istifadə edilən və insana estetik baxımdan xoş gələn bir üsuldur. Məsələn, divarda asılı olan aynanın yalnız bir tərəfinə çiçək qoyduğunuzda bu gözünüzə gözəl görünməyəcək. Ancaq iki tərəfinə

eyni çiçəkdən yerləşdirdiyinizdə yaranan simmetriya xoşunuza gələr. Buna görə bir çox sahədə simmetriya şüurlu olaraq istifadə edilir. Və siz bir yerdə simmetriya gördüyünüzdə bunun estetik anlayışı olan, şüurlu biri tərəfindən hazırlandığını dərhal anlayarsınız. Məsələn, bir bağçaya girdiyinizdə bağçanın sol və sağ tərəfində, bərabər saylarda qarşılıqlı düzülmüş iki sıra ağac olduğunu gördüyünüzdə, bu ağacların, bir bağban tərəfindən şüurlu bir şəkildə simmetrik olaraq düzüldüyünü anlayarsınız. Çünki qüsursuz bir simmetriyanın təsadüfən yaranması qətiliklə mümkün deyil. Qısası, simmetriya bir dizayn olduğunun və eyni zamanda bir dizaynerin varlığının bir isbatıdır.

Təbiətdə mövcud olan saysız simmetriya nümunəsi də təbiətdə bir dizayn olduğunun və eyni zamanda təbiəti hazırlayan bir Yaradıcı olduğunun bir göstəricisidir. Kəpənək qanadları, qar kristalları, dəniz ulduzları, quş qanadları, insan üzü və bədəni, dəniz qabıqları və təbiətdəki yüzlərlə varlığın xarici görünüşündə simmetrik bir quruluş var.

Ancaq təkamülçülər təbiətdəki simmetriya nümunələrinin necə meydana gəldiyini açıqlaya bilməzlər. Üstəlik, təbiətdəki tək gözəllik, estetik, sənət və simmetriya da deyil. Darvin də təbiətdəki gözəlliklərin, təkamül nəzəriyyəsi ilə açıqlana bilməyəcəyini anlamış və bunu belə etiraf etmişdir:

"Tamamilə ümidsiz bir qarışıqlığın içində olduğumun şüurundayam. Gördüyümüz dünyanın bir şans əsəri olduğunu düşünə bilmirəm. (Francis Darvin, The Lifə and Letters of Charles Darvin, II cild, səh. 146)

Təbiətdə gördüyümüz gözəlliklərin heç biri təsadüflərin əsəri ola bilməz. Hər gözəllik, hər simmetriya, hər uyğunlaşma, hər rəng Sani (Sənətçi, sonsuz gözəllikləri sənətinin içində yaradan) olan Allahın bir əsəridir.

# V HİSSƏ:
# MADDƏNİN ARDINDAKI SİRR

Hər insan həyatı boyunca beyninin içində yaşayır və heç bir şəkildə beyninin xaricinə çıxa bilməz. Gördüyümüz hər görünüşə, eşitdiyimiz hər səsə, toxunduğumuz hər cismə, daddığımız hər ləzzətə dair hisslər elektrik siqnallarının beynimizdə meydana gətirdiyi hisslərdir. Biz nə daddığımız bir meyvənin, nə eşitdiyimiz bir səsin nə də gördüyümüz bir görünüşün beynimizin xaricindəki əslinə heç vaxt çata bilmərik. Həyatımız boyunca, bu əsillərin beynimizdə yaranan hisslərini seyr edərik.

Məsələn, təyyarə ilə bir ölkədən bir başqasına gedən, okeanlar keçən bir insan əslində beynində yaranan görünüşlər arasında səyahət edər. Hava limanının görünüşü, səs-küyü, təyyarə saatlarının anonsu, təyyarənin mühərrikinin səsi, təyyarənin havaya qalxarkən insanda meydana gətirdiyi hiss, buludlar, aşağıda qalan şəhər görünüşü, okean, uzaqlıq hissi, təyyarə kreslosunun döşəməsinin verdiyi hiss-bunların hamısı beyindəki kiçik qəbul mərkəzlərində qəbul edilər.

Beynin içindəki bir kub santimetrlik görmə mərkəzində yaranan uzaqlıq hissi isə Allahın yaratmasındakı böyük bir möcüzədir. Allah bu qədər kiçik bir nöqtədə yaratdığı görünüşlər arasında kilometrlərlə uzaq qəbul edilən məsafə qəbulunu da yaratmaqdadır. Təyyarədən altındakı okeana baxan bir insan əslində beynindəki təyyarədən beynindəki okeana baxmaqdadır. Aradakı yüksəklik isə Allahın beyninin içində yaşayan insan üçün yaratdığı bir hisdir.

Bu nöqtədə qarşımıza böyük həqiqət bir daha çıxır: Kilometrlərlə aşağıdakı okeanı görən, təyyarənin mühərrikinin səs-küyünü eşidən, təyyarə kreslosunun sərtliyini hiss edən beynin içindəki hüceyrələr, sinirlər ola bilməz.

Bəs bu hissləri qəbul edən kimdir? Materialistlərin əsla cavab verə bilməyəcəkləri bu problemin cavabı Allahın yaratdığı ruhdur. Bütün bu hissləri yaşayan ruhumuzdur.

Allahın yaradışındakı bu möhtəşəm sənəti, bu fövqəladə elmi, sonsuz ağılı, bənzərsiz yaradışı siz də mütləq daha təfərrüatlı öyrənməli və bu yaradılış möcüzəsindən nəticə çıxarmalısınız.

**Məgər onlar özlüyündə fikirləşmirlər ki, Allah göyləri, yeri və onların arasındakıları ancaq bir gerçəklik kimi və müəyyən müddətə qədər yaratmışdır? Lakin, insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir. (Rum surəsi, 8)**

## MADDƏNİN XARİCDƏKİ VARLIĞINA DUYĞULARIMIZLA ƏSLA ÇATA BİLMƏRİK

Televizorda axşam xəbərlərini izləyərkən sizdən televizorun neçə metr uzaq olduğu soruşulsa, ehtimalla bir neçə metr deyərsiniz. Lakin doğru cavab bu deyil. Çünki televizor "bir neçə metr" irəlidə deyil, içinizdə, beyninizdəki qəbul mərkəzinizdədir. Sizin gördüyünüz xaricinizdəki televiziya deyil, beyninizdəki görmə mərkəzinizdə yaradılan televiziya görünüşüdür. Xaricdən, işıq yoluyla gələn mesaj, hüceyrələriniz tərəfindən elektrik siqnalına çevrilir və beyninizə gedən bu elektrik siqnalı bir görünüş hesab edilir.

Bu həqiqət Allahın çox böyük bir möcüzəsidir. Çünki Allah ətdən, yağdan, zülaldan ibarət olan balaca bir nöqtədə rəngli, işıqlı, dərinlik hissi verən, heç bir bulanıqlığı, sürüşməsi və ya qaralması olmayan, qüsursuz dəqiqlikdə və keyfiyyətdə bir görünüş yaratmaqdadır. Üstəlik, yenə eyni beynin başqa kiçik bir nöqtəsində bu görünüşə yoldaşlıq edən, onunla böyük bir uyğunlaşma içində olan son dərəcə keyfiyyətli, çox istiqamətli, hamar, fışıltısız bir səs də yaratmaqdadır.

Bu elmi bir həqiqətdir ki, hər kəs kəlləsinin içində beyninə yerləşdirilmiş kiçik bir otaqda yaşayır. Hər hansı bir insan, nə edirsə etsin kəllənin içindəki bu otaqdan çölə çıxa bilməz. Beynində gördüklərinin əsillərinə əsla çata bilməz.

Bu elmi həqiqət Allahın yaradışındakı ehtişamı və bənzərsizliyi göstərməsi baxımından çox əhəmiyyətlidir. Allah hz. Adəmdən etibarən, bu günə qədər yaşamış bütün insanların beyinlərində ayrı-ayrı həyatlarını yaratmış, milyardlarla insana ayrı-ayrı rəngarəng, parlaq, uzaqlıq hissi olan görünüşlər göstərmiş, quş səslərini, ən gözəl bəstələri, böyük bir şəlalənin gurultusunu, göy gurultusunu, arının vızıltısını dinlətmişdir. Daha da təəccüblüsü, Allah bütün hissləri o qədər böyük bir uyğunluq və qüsursuzluqla yaratmışdır ki, bu insanların böyük bir əksəriyyəti əslində

beyinlərinin içindəki görünüşü seyr etdiklərini, beyinlərinin içindəki səsi dinlədiklərini fərqinə varmamışlar. Hamı çöldəki varlıqları görüb, eşitdiklərini, onlarla danışdıqlarını, onlara toxunduqlarını sanmışlar.

Bu əhəmiyyətli gerçəyi unutmayın: Maddənin əslinə əsla çata bilmərik.

Biz ancaq beynimizdə gördüklərimizi yaşayarıq.

## DARVİNİST-MATERİALİSTLƏRİN CAVABLANDIRA BİLMƏDİKLƏRİ ƏHƏMİYYƏTLİ BİR SUAL:

Beynin içində, rəngarəng rəngli bir dünyanı seyr edən, simfoniyaları, quşların cəh-cəhlərini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar, elektrik siqnalı olaraq beyinə gedir. Bəs beyində, bu elektrik siqnallarını görünüş, səs, qoxu və hiss hesab edən kimdir? Beynin içində gözə, qulağa, burna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç bir cavab verə bilmirlər.

Əsla unutmayın darvinist-materialist ideologiyanın təməl iddialarını çökdürmək sizin də əlinizdədir.

XXI əsr bu həqiqətlərin bütün dünyada aydın olaraq qəbul edildiyi bir əsr olacaq. Türk milləti ağıl anlayışı və vicdanı ilə bu həqiqətləri ilk anlayan və ilk izah edən millətdir.

## HƏR İNSAN BÜTÜN HƏYATINI BEYNİNDƏKİ KİÇİK MƏKANDA YAŞAYIR

Hər kəsin bildiyi bir həqiqət vardır: Görünüş, səs, qoxu, dad, toxunma duyğusu beyində hiss edilən duyğulardır. Yəni xarici dünyamızı əslində iç dünyamızda yaşayarıq. Bütün həyatımız beynimizin içindəki kiçik bir

məkanda keçir. Çölü, beynimizdəki televiziyadan seyr edirik. Çöldən gələn elektrik siqnallarını beynimizdəki qəbul mərkəzində iyləyərik. Xaricdən gələn elektrik siqnallarıyla yenə beynimizdə sərtlik hesab edərik. Xaricdən gələn elektrik siqnalları beynimizdəki dinamikdə səsə çevrilir. Bütün bunları beynimizin içindəki bir neçə kub santimetrlik otağımızda yaşayarıq və həyatımız boyunca o otağın xaricinə əsla çıxa bilmərik. Hər insan, qitələr arası səyahət edən bir səyyah, ilk olaraq aya ayaq basan bir astronavt, həyatı boyunca kəndindən ayrılmamış bir cütçü də olsa, beynindəki kiçik otağından kənara çıxa bilməz. Okeanları, meşələri, səmanı, ayı, günəşi, çiçəkləri, meyvələri bu beynimizdəki kiçik otaqda görər, orada iyləyər və səslərini orada dinləyərik. Xaricdəki əsillərinə heç bir zaman çata bilmədən... Beynin içində bütün bu hissləri qəbul edən bir şüur vardır. Ancaq, əlbəttə, bu şüur beyni meydana gətirən sinirlər, yağ təbəqəsi, sinir hüceyrələrinə aid deyil. Bu şüur Allahın yaratdığı ruhdur.

Bu açıq və elmi gerçəyi oxuyan hər insanın, beynin içindəki bir neçə kub santimetrlik, qapqaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran Uca Allahı düşünüb, Ondan qorxub, Ona sığınması lazımdır.

## DÜNYA HƏYATININ GERÇƏYİ ALLAHIN BEYNİMİZDƏ İZLƏTDİRDİYİ QƏDƏRİMİZDİR

Bir insanın həyatının hamısı beş duyğusu vasitəsilə beynində ona göstərilən hisslərdən meydana gəlir. Məsələn, işinə getmək üçün yolda gedən bir insan əslində beyninin içindəki yolda gedir. Ayaqları, yolun üzərindəki kələ-kötürlüklər, yoxuş, aşağı gedən yol, ayaqqabısının ayağına verdiyi narahatlıq, səkinin yüksəkliyi, gedərkən əsən külək, yanından keçən avtomobillərin hamısı beyində görünür və hiss edilir.

Yolda gedərkən əsən küləyin təsiriylə gözünə toz düşən bir insan, gözünü yüngülcə qaşıdığında bu həqiqəti hiss edəcək. Gözünü qaşımasıyla bütün yol görünüşü, ağaclar və avtomobillər aşağı yuxarı gedib gələcəkdir. Bu, televiziyadakı bir görünüşün sürüşməsi kimidir. Televizordakı sistem beyində də vardır və insan beynindəki televizor ekranını seyr edən bir insanla əslində eyni mövqedədir. Necə ki, televiziyada nə yayımlansa insan onu seyr

edər, gerçəkdə də insan özünə duyğuları vasitəsilə göstərilənləri beynində seyr edər.

O halda beynin içində bu görünüşləri görən, soyuq küləyi hiss edən kimdir? Allah bizə bu hissləri qəbul edən varlığın RUH olduğunu bildirmişdir. Bizim "həyatımız" dediyimiz şey, əslində qədərimizdə yazılı olanın, ruhumuza Allah tərəfindən yaşatdırılmasıdır.

## BEYNİNİN İÇİNDƏ YARANAN EV GÖRÜNÜŞÜNÜ SEYR EDƏN KİMDİR?

Darvinist-materialistləri ən çox narahat edən sual; "Beynin içində yaranan üç ölçülü, rəngarəng, mükəmməl görünüşü GÖRƏN KİMDİR?" sualıdır.

Bilindiyi kimi, gördüyümüz hər şey beynimizə çatan elektrik siqnallarının meydana gətirdiyi bir görünüşdür. Gözdən gələn xəbərdarlıqlar beynin görmə mərkəzinə çatır və beyin bu kiçik nöqtədə üç ölçülü, rəngarəng, dərinlik qəbulunun qüsursuz olduğu bir görünüş meydana gətirir.

Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görünüşün beyində necə meydana gəldiyinə dair bir çox təfərrüat oxucusunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: Görünüş beyində meydana gəlir, bəs beyində yaranan görünüşü kim seyr edir? Tamaşaçısı olmayan bir görünüş işə yaramaz. O halda bu tamaşaçı bədənin harasındadır? Beyində, bu görünüşü seyr edən bir varlığa bu günə qədər rast gəlinməmişdir.

Beyindəki görünüşü izləyən ətdən sümükdən ibarət olan bir varlıq deyil. Bu varlıq insanın şüuru, yəni ruhudur. Darvinist-materialistlər ruhun varlığını qəbul etməmək üçün bu sualdan həmişə qaçırlar. Mövzu açıldığında isə çaxnaşma olaraq, izah edən adamı susdurmağa çalışırlar. Bunu bir darvinist-materialistə bu sualı soruşaraq təcrübə edə bilərsiniz.

## HEÇ DÜŞÜNDÜNÜZMÜ?

Televizorda, yada axşam xəbərlərini izləyərkən sizə televiziyanın neçə metr uzaqlığında olduğu soruşulsa, ehtimalla bir neçə metr irəlidə deyərsiniz. Lakin doğru cavab bu deyil. Çünki televizor bir neçə metr irəlinizdə deyil, içinizdə, beyninizdəki hiss mərkəzlərində yaradılan bir görünüşdür. Amma səsin inkişaf istiqaməti və üç ölçülü, dərinlikli görünüşün cəmi sizə televiziyanın oturduğunuz yerdən bir neçə metr uzaqda olduğunu düşündürür. Bu hissiniz elə güclüdür ki, əksini isbat və razısalma üçün -indi olduğu kimi- xeyli şərh etmək lazımdır. Halbuki, burada bəhs etdiyimiz mövzu bir fəlsəfə və ya bir düşüncə sistemi deyil. "Maddi dünya" dünya dediyimiz şeyin, beynimizdəki qəbul mərkəzlərində yaradıldığı bu gün elmin də isbat etdiyi qəti həqiqətdir.

Qarşınızda olduğunu düşündüyünüz televiziya, yanınızda çalınan musiqi, həyəcanını eşitdiyiniz avtomobil, qoxusunu hiss etdiyiniz güllər, görməkdən zövq aldığınız dostlarınız, dadını çox sevdiyiniz dondurma, qısası, bütün maddələr beyninizdə yaranan xəyallardır.

## ALLAH BİLMƏDƏN BİR YARPAQ DA DÜŞMƏZ

İndi bu yazını oxumaqda olduğunuzu;

Bir dəqiqə sonra nə edəcəyinizi;

Ağlınızdan keçirdiyiniz şeylərin nə olduğunu;

Həyatınız boyunca görəcəyiniz hər cür işi;

Yalnız özünüzün şahid olduğunu sandığınız hər şeyi;

Allah bilir...

Cəmiyyətin bəzi sektorlarında, yanlış qədər anlayışı hakimdir. Bu yanlış qədər anlayışında Allahın insanlara bir "alın yazısı" təyin etdiyi, amma o insanların bəzən bunu dəyişdirdikləri kimi batil bir inanc vardır. Məsələn, ölümdən dönən bir xəstə üçün "qədərinə qalib gəldi " kimi çox yanlış

ifadələrdən istifadə edərlər. Halbuki, kimsə qədərini dəyişdirə bilməz. Ölümdən dönən adam, qədərində ölümdən dönməsi yazıldığı üçün ölməmişdir. "Qədərimi məğlub etdim" deyərək özlərini aldadanların bu cümləni söyləmələri yenə qədərlərindədir.

Şahid olduğumuz ya da olmadığımız hər cür hadisə Allahın elmi və idarəsi altında baş verir.

Qədər Allahın elmidir və bütün zamanları eyni anda bilən və bütün zamanlara və məkanlara hakim olan Allah üçün hər şey qədərdə yazılmış və bitmişdir.

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**